# İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzvü olan dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının 3-cü görüşü üzrə

## MATERİALLAR

**Bakı**
**06-07 iyun 2017**






**“Məmur-vətəndaş münasibətləri, bu məsələlər cəmiyyət üçün, inkişaf üçün çox önəmlidir. Burada hər şey məmurlardan asılıdır.”**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqindən.*

*Bakı şəhəri, 30 yanvar 2017-ci il*



## Azərbaycan və İqtisadi Əməkdaşlıq Təşkilatı

Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Nazirlər Şurasının 1992-ci ilin 28 noyabr tarixində İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilatın üzvlüyünə qəbul olunmuşdur. Həmin gün Azərbaycanla yanaşı daha 5 digər ölkə (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan) təşkilata üzvlüyə qəbul olunmuşdur. ECO-nun bu genişlənməsi hazırda “ECO günü” kimi qeyd olunur.

Azərbaycan ECO–nun təsis edilməsi haqqında 1987-ci il tarixli İzmir müqaviləsinə və müqavilənin 1990-cı il 18 iyun və 1992-ci il 28 noyabr tarixli protokollarına Azərbaycan Respublikası Milli Məclisinin 3 sentyabr 1993-cü il tarixli 699 nömrəli qərarı ilə qoşulmuşdur.

ECO-nun əsas məqsədi üzv ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi və inteqrasiya proseslərinə kömək etməkdir. Təşkilat çərçivəsində Azərbaycan digər üzv ölkələrlə bir sıra prioritet sahələr, o cümlədən nəqliyyat, enerji, ticarət və investisiya sahələri üzrə əməkdaşlıq etməkdədir.

İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısı və ECO Xarici İşlər Nazirləri Şurasının 20-ci iclası 16 oktyabr 2012-ci il və 15 oktyabr 2012-ci il tarixlərində Bakı şəhərində keçirilmişdir. Bu iclaslar təşkilatın 1992-ci ildə genişlənməsinin, yeni üzvlərin qoşulmasının 20-ci ildönümünə təsadüf etmişdir. Eyni zamanda, 15 oktyabr tarixindən ECO-da Sədrlik Azərbaycan tərəfinə keçmişdir. Zirvə toplantısında Bakı bəyannaməsi qəbul edilmişdir.

Azərbaycanın sədrliyi dövründə ECO-nun Tehranda keçirilən Regional Planlaşdırma Şurasının, Daimi Nümayəndələr Şurasının iclasları Azərbaycan nümayəndələrinin rəhbərliyi ilə həyata keçirilməkdədir. 2013-cü ilin 6-8 may tarixlərində keçirilmiş Regional Planlaşdırma Şurasının 23-cü iclasında Azərbaycan Respublikası geniş tərkibdə nümayəndə heyəti ilə iştirak etmişdir.

ECO-nun 20-ci ildönümündə sədrliyin Azərbaycana keçməsi təşkilat çərçivəsində əməkdaşlığımızın artırılması üçün bir stimuldur. Azərbaycan tərəfi ECO-dakı sədrliyinin irəliləyiş dövrü kimi yadda qalmasına çalışacaqdır.

Regional əməkdaşlıq üçün ilkin şərtlərdən biri bölgədə sülh və təhlükəsizlik mühitinin yaradılmasıdır. Buna nail olunarsa, bütün üzv dövlətlərin inkişafı üçün şərait yaranar.

Azərbaycan ECO çərçivəsində əməkdaşlığa önəm verir və təşkilatın səmərəli fəaliyyət göstərməsində maraqlıdır. Azərbaycan ECO-nun iqtisadyönlü təşkilat kimi inkişaf etməsini və bu istiqamətdə layihələr həyata keçirilməsini dəstəkləyir. Sədrlik dövrü ərzində təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılması, regional əməkdaşlığın genişləndirilməsi, regionda konkret layihə və proqramların həyata keçirilməsində davamlılığın təmin edilməsi üçün zəmin yaratmaq Azərbaycan Respublikasının qarşısında duran əsas hədəflərdir.

Bu məqsədlə təşkilata sədrliyimiz dövründə bir sıra iclaslarda təkliflər irəli sürülmüşdür. Azərbaycan əmindir ki, təşkilat çərçivəsində hazırda daha çox ehtiyac duyulan əməkdaşlıq istiqamətlərinin prioritetləşdirilməsi, kəmiyyət artımından keyfiyyət artımına keçid, region dövlətləri üçün yaranan çağırışların vaxtlı vaxtında qiymətləndirilməsi, proqnozlaşdırılması və müvafiq cavab tədbirlərinin həyata keçirilməsi bütöv təşkilatın və onun struktur bölmələrinin fəaliyyətinin səmərəliliyinin artımına xidmət edə bilər.

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ REGİONAL ƏMƏKDAŞLIQ

## AÇILIŞ MƏRASİMİ



**Cənab Zakir QARALOV**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru**




Salam, dəyərli qonaqlar!
Xanımlar və cənablar!

İlk növbədə iclasın sədrliyinin Azərbaycan dövlətinin nümayəndəsinə həvalə olunması ilə bağlı göstərdiyiniz etimada görə hər birinizə dərin təşəkkürümü bildirirəm.

Hörmətli tədbir iştirakçıları icazənizlə möhtərəm cənab Prezidentin salamlarını çatdırması üçün sözü Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri cənab Fuad Ələsgərova verim.

**Cənab Fuad ƏLƏSGƏROV**
**Prezidentin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri**




Hörmətli xanımlar və cənablar,
hörmətli tədbir iştirakçıları!

Sizə Bakı şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərləri və Ombudsmanların 3-cü iclasının açılışı münasibətilə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin səmimi salamlarını çatdırmaq istərdim.

Azərbaycan dünyada tolerantlıq mühitinin inkişafına, multikulturalizmin, mədəniyyətlərarası dialoqun qurulmasına böyük əhəmiyyət verir. Bu il ölkəmizdə "İslam Həmrəyliyi İli"nin elan edilməsi və "IV İslam Həmrəyliyi Oyunları"nın uğurla keçirilməsi Azərbaycanın islam dəyərlərinə və müsəlman aləmində birliyə verdiyi önəmin təzahürüdür.

Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvü olmaqla onun iki Zirvə görüşünə ev sahibliyi etmiş, o cümlədən 2012-2017-ci illərdə təşkilata sədrliyi həyata keçirmişdir. Sədrliyi dövründə ölkəmiz təşkilatın inkişafına və əməkdaşlığın dərinləşdirilməsinə mühüm töhfələr vermişdir.

Beynəlxalq tələblərə uyğun qanunvericilik, ixtisaslaşmış institusional qurumların səmərəli fəaliyyəti və dövlət idarəçiliyində şəffaflığın təmin edilməsi antikorrupsiya siyasətimizin uğurlarıdır. Dövlət xidmətlərinin göstərilməsində tətbiq etdiyimiz model korrupsiyanın qarşısının alınması üzrə beynəlxalq səviyyədə ən yaxşı təcrübə kimi qəbul edilir.

Azərbaycan Respublikasının Prezidenti əmin olduğunu bildirmişdir ki, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində təşkil edilən bu tədbir əməkdaşlığımızın daha da möhkəmlənməsinə tövhə verəcəkdir.

Sizi bir daha təbrik edir, iclasın işinə uğurlar arzulayıram!

Diqqətinizə görə təşəkkür edirəm!

**Cənab Zakir QARALOV**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru**




Çox sağ olsun hörmətli Fuad müəllim,

Biz də bu konfrans iştirakçıları adından möhtərəm cənab Prezident İlham Əliyevə bu konfransın Azərbaycanda keçirilməsinə razılıq verməsinə və tədbirin təşkilinə göstərdiyi xüsusi diqqət və qayğıya görə öz dərin təşəkkürümüzü bildirmək istəyirik.

Sizi İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzvü olan dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclasının açılışı münasibəti ilə səmimi qəlbdən salamlayır və ölkəmizdə görməkdən böyük məmnunluq hissi duyuruq. Fürsətdən istifadə edib müqəddəs ramazan ayı münasibəti ilə hər birinizi təbrik edir, Uca Allahdan millətlərimizə sülh və əminamanlıq arzu edirik.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasi kursa uyğun olaraq müsəlman ölkələri ilə mehriban və qarşılıqlı münasibətlər quran dövlətimiz təmsil olunduğu hər bir beynəlxalq təşkilat çərçivəsində də İslam dünyasının maraq və mənafelərini müdafiə edir.

Müasir dövrdə müsəlman dövlətlərinin siyasi birliyə, mənəvi həmrəyliyə və tərəfdaşlığına böyük ehtiyacı vardır ki, bu da ölkələrimizin ən başlıcası iqtisadi cəhətdən inkişaf etməsini labüd edir.

İqtisadi Əməkdaşlıq Təşkilatı məhz belə bir mürəkkəb dövrdə ortaq mədəni-tarixi köklərə malik olan ölkələrimizin iqtisadi vəhdətini təmin etməklə nəyinki regionda, hətta dünya miqyasında olduqca mühüm əhəmiyyətə malik olan bir regional təşkilatdır. Hesab edirəm ki, təşkilatımız hazırda qarşıya qoyduğu üzv ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi və inteqrasiya proseslərinə kömək etmək kimi ali məqsədlərinə tam nail olmaqdadır.

Təqdirəlayiq bir haldır ki, yarandığı tarixdən etibarən yüksək nailiyyətlər əldə edən İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində üzv ölkələr bir sıra prioritet sahələr, o cümlədən nəqliyyat, enerji, ticarət və investisiya sahələri ilə yanaşı son illər ümumbəşəri problem olan korrupsiyaya qarşı mübarizə üzrə də yaxından əməkdaşlıq etməkdədirlər.

Ona görə də, Azərbaycan hökumətinin siyasi və maliyyə dəstəyi əsasında Azərbaycan Respublikası Baş Prokurorluğu, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən təşkil olunmuş bu iki günlük tədbir zamanı əldə edəcəyimiz müsbət təcrübə və biliklər, habelə tədbirin nəticələri Təşkilatın üzv ölkələrində korrupsiyaya qarşı mübarizə işinin yeni müstəviyə qaldırılmasına təkan verəcəkdir.

Çıxışımın sonunda hər birinizə tədbirdəki fəaliyyətinizdə uğurlar arzulayır və ümid edirəm ki, bu Görüşdə beynəlxalq və regional qurumlar, eləcə də, üzv dövlətlər tərəfindən həyata keçirilən korrupsiyaya qarşı mübarizədə ən yaxşı təcrübələr, effektiv mexanizm və tədbirlər ilə yaxından tanış olmaq, bu sahədə qarşıya çıxan problemləri və əməkdaşlıq yollarını müzakirə etmək imkanı əldə etməklə qurulmuş əməkdaşlığımızı daha da möhkəmləndirəcəyik.

**Xanım Elmira SÜLEYMANOVA**
**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman)**




Çox hörmətli tədbir iştirakçıları, sədarət, xarici qonaqlar və dost ölkələri təmsil edən korrupsiyaya qarşı mübarizə qurumlarının rəhbərləri, ombudsmanlar və onların təmsilçiləri,

Hamınızı salamlayır, uğurlar arzulayıram.

Eyni zamanda müsəlman ölkələrini təmsil edən iştirakçıları da mübarək Ramazan ayı münasibətilə ürəkdən təbrik edir, xeyir, ruzi-bərəkət arzu edirəm.

Bildiyiniz kimi korrupsiya hər bir ölkədə müşahidə olunan dağıdıcı prosesdir. Belə hallar adətən nəfsi cilovlaya bilməyən, vəzifəsindən sui-istifadə edən məmurların hərəktələri nəticəsində baş verir və daim dövlətin nəzarəti altında saxlanılır. Korrupsiya nəticəsində insan hüquqları pozulur, səmərəli idarəetməyə və sabitliyə, bütün sahələrdə davamlı inkişaf proseslərinə maneçilik törədir. Yeri gəlmişkən bizim ölkəmizdə də xüsusi proqramlarla yanaşı, insan hüquqlarının səmərəliliyinin artırılması üzrə həm də korrupsiya ilə mübarizəni öz tərkib hissəsi kimi saxlayan bir sıra proqramlar və üç strateji sənəd qəbul olunmuşdur. Ölkəmizdə həyata keçirilmiş islahatlar nəticəsində “Korrupsiyaya qarşı mübarizə haqqında” qanuna müvafiq olaraq Komissiya yaranmış, bundan sonra isə cənab Prezidentin Sərəncamı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılmışdır. Hər iki qurumun fəaliyyəti və gördüyü tədbirlər barədə Sizlərə geniş məlumat veriləcəkdir. Birgə əməkdaşlığımız nəticəsində həm korrupsiya halları aradan qaldırılır, həm də dövlətin maraqları, zərərçəkmiş vətəndaşların hüquqları təmin olunur. Korrupsiya ilə mübarizədə hər bir ölkənin öz xüsusiyyətləri var, ama mən istərdim ki, zənnimcə hər bir kəs üçün mühüm olan şərtlər haqqında bir neçə söz deyim. Ən əvvəl bu siyasi iradə tələb edir. Azərbaycanda həmin amil çox güclüdür. Belə siyasətin özülünü ümummilli liderimiz, dünya şöhrətli siyasi və dövlət xadimi Heydər Əliyev qoymuş və bu siyasət ardıcıl olaraq Azərbaycanın Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Bu qəbildən olan daha bir faktoru diqqətinizə çatdırmaq istərdim. Dövlət siyasəti xalqın, insanların maraqlarına xidmət etməli, onları müdafiə etməlidir. Dövlətin bu niyyəti Konstitusiyamızın ilk cümləsində yer tutur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Qanunun aliliyi prioritet kimi təmin olunur və bu da korrupsiyanın aradan qaldırılmasında mühüm amildir. Məhz preventiv baxımdan idarəetmənin təkmilləşdirilməsi, korrupsiyanın qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edən və digər dövlətlər üçün örnək olan səmərəli mexanizmlərdən biri də Azərbaycan brendi olan “ASAN Xidmət”dir. Mən bugün öz təcrübəmdən deyə bilərəm ki, bu qurumun fəaliyyətinin səmərəliliyinin göstəricisi kimi vətəndaşların korrupsiya halları ilə bağlı alınan şikayətlərinin sayının kəskin azalmasıdır. Hesab edirəm ki, korrupsiyanın aradan qaldırılmasında əldə etdiyimiz təcrübələri bölüşməklə bu bəlanı aradan qaldırmaqda gücləndirilmiş fəaliyyət göstərə bilərik. Odur ki, mən hər birinizi fəal dialoqa çağırıram. Xalqlarımızın mənafeyi, insan hüquqlarının daha səmərəli təmini naminə əməkdaşlığa dəvət edirəm.

Diqqətinizə görə çox sağolun.

**Cənab Martin KREUTNER**
**Beynəlxalq Antikorrupsiya Akademiyasının (İACA) dekanı və icraçı katibi**




Hörmətli, cənab Baş prokuror, ECO Baş katibi, nazirlər, nümayəndə heyətlərinin rəhbərləri, millət vəkilləri, zati-aliləri, xanımlar və cənablar, əziz həmkarlar və dostlar,

Səkkiz həftə əvvəl mən Drezdendə təhlükəsizlik mövzusunda olan ATƏT-in Daimi Şurasında çıxış etmişdim. O zaman mən öz çıxışıma bəzi şəhərlərdə terrorist hücumların qurbanlarına dair düşüncələrimi ifadə edərək başladım. İndi də Bakıda cənab Sədr icazənizlə mən eyni şeyi etmək istərdim və daha bir şiddətli terror hücumuna məruz qalmış Əfqanıstan xalqına, dostlara və ailələrə öz təəssübümü ifadə etmək istərdim. Bu bizləri növbəti iki gün ərzində müzakirə edəcəyimiz mövzunun mərkəzinə gətirir. Çünki hamımızın bildiyi kimi korrupsiya təhlükə, qeyri-sabitlik və müharibə üçün də bir faktordur.

Xanımlar və cənablar, təhsil, hamımız üçün etibarlı və davamlı gələcək üçün şərait yaratmağa kömək edə bilər. Ya da Malala Yousafzai - Pakistanlı Nobel mükafatı laureatı olan gənc qadının 2015-ci ildə BMT-nin Davamlı İnkişaf Sammitində söylədiyi kimi, mən sitat gətirirəm "Təhsil ümiddir, təhsil sülhdür". Anti-korrupsiya təhsili birmənalı olaraq davamlı siyasi, sosial və iqtisadi rifaha doğru inkişafa öz töhfələrini verə bilər. Bu kimi tədbirlərin vacibliyi daha da artır, və mən yenidən ECO-ya, qonaq edən ölkə Azərbaycana məni dəvət etdiyinizə görə öz təşəkkürümü bildirirəm və konfransa uğurlar arzu edirəm. Gəlin qlobal çağırışlara kollektiv olaraq birgə səylərlə cavab verək, və həmçinin əmin olun ki, Beynəlxalq Anti-Korrupsiya Akademiyası Sizin ixtiyarınızdadır və biz hər zaman təkcə Akademiyaya Üzv Dövlətlərlə, təkcə Azərbaycanla deyil, həm də ECO, bu zaldakı digər dövlətlərlə və digər dünya ölkələri ilə də əməkdaşlığımızı gücləndirməyə, sürətləndirəyə hazırıq.

Yenə çox təşəkkür edirəm və konfransı uğurlar arzulayıram.



## I PLENAR İCLAS

### NÜMAYƏNDƏ HEYƏTİ RƏHBƏRLƏRİNİN HESABATLARI

**Sədrlik edir: Türkiyə Respublikasının Baş prokurorunun müavini cənab Halil ADIGÖZƏL**






**Ələvi SƏBZİVARİ**
**İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini**

Azərbaycan Respublikasının
Baş prokuroru cənab Qaralov!

Ev sahibi ölkəsinin yüksək səviyyəli rəsmiləri!
ECO-ya üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri!

Hörmətli qonaqlar,
xanımlar və cənablar!

"İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının üçüncü iclasında" sizi salamlamaq mənim üçün böyük fəxrdir. İlk olaraq və İqtisadi Əməkdaşlıq Təşkilatının Katibliyinin adından, mən bu çox vacib regional yığıncağın mükəmməl səviyyədə keçirilməsinə görə Azərbaycan Respublikasının Hökumətinə və xalqına, xüsusilə də Baş Prokurorluğa öz minnətdarlığımı ifadə etmək istərdim. Mən, həmçinin yüksək səviyyəli və fəal iştirakına görə İqtisadi Əməkdaşlıq Təşkilatının bütün Üzv Dövlətlərinə minnətdaram.

Hörmətli İştirakçılar,

Korrupsiyaya qarşı mübarizə ölkələrin və xalqların davamlı iqtisadi inkişafı və rifahı üçün milli, regional və beynəlxalq cəhdləri artıraraq sərhədlərdən, eləcə də siyasi və inzibati sistemlərdən kənara çıxır. Korrupsiyanın cəmiyyətə mənfi təsirləri əsas xidmətlər üçün nəzərdə tutulan maliyyə vəsaitləri və digər vəsaitlər ayıraraq iqtisadi inkişaf üçün hökumət planlarını alt-üst edir, istehsal, investisiya və ticarət üçün əlverişli mühiti təmin etmək imkanlarını aradan qaldırır. Bu, həmçinin dünyanın müxtəlif yerlərində ictimai inama, hesabatlılığa, şəffaflığa və qanunun aliliyinə təsir göstərir.

Korrupsiya sosial-iqtisadi və təhlükəsizlik məsələlərindən asılı olmayan hadisə kimi görünməməlidir. Pul vəsaiti, həmçinin ölkələrin və regionların ümumi təhlükəsizliyinə zərər yetirilməsi nəticəsində müəyyən dərəcəyə qədər transmilli cinayətlərdə istifadə edilir. Maliyyə korrupsiyası aşağı iqtisadi göstəricilərə, gəlirlərin və sərvətin bərabər olmayan bölgüsünə, sosial aktivlərin qiymətsizləşdirilməsinə sosial etibarın, milli inteqrasiyanın və birləşmənin pozulmasına gətib çıxarır. O, biznes mühitini pozur və xərcləri artırır. Buna görə də, korrupsiyaya qarşı mübarizə ədalətin və inkişafın əldə edilməsinə istiqamətlənən planların və proqramların əsas prioritetlərindən biri hesab olunur.

Ölkələr və xalqlar arasında regional və beynəlxalq əməkdaşlıq, bu və ya digər yolla beynəlxalq cəmiyyətə ictimai və özəl sektorlarda ən çox yayılmış korrupsiya növlərininin qarşısını almaq və onlara qarşı mübarizə aparmaq üçün məcəllələr toplusunu, standartları, öhdəlikləri və qaydaları müəyyən etməyə kömək edir. 2003-cü il tarixli Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Mübarizə haqqında Konvensiyasında müəyyən edilmiş tədbirlərlə korrupsiya təhlükəsinin qarşısının effektiv şəkildə alınması məqsədilə dövlət partiyaları beynəlxalq əməkdaşlığa yardım etməyə çağırılır.

İqtisadi Əməkdaşlıq Təşkilatı regional iqtisadi əməkdaşlıq və inteqrasiyaya həsr edilmişdir. Regional iqtisadi inkişaf cəmiyyətlərimizin  çiçəklənmə dövrünü və rifahını göstərə bilər. Bura, eyni zamanda regionumuzda təhlükəsizliyi və sabitliyi təmin edən cəhdlər əlavə edilməlidir.

Korrupsiya, yoxsulluq, savadsızlıq, qeyri-adekvat səhiyyə və işsizlik kimi sosial-iqtisadi məsələlər kollektiv cəhdlərimizə qarşı ümumi problemləri əks etdirdiyi üçün bu istiqamətdə birgə tədbirlər görülməlidir.

2011-ci ildə Korrupsiyaya qarşı Mübarizə Orqanlarının və Ombudsmanların Əməkdaşlığı üzrə ECO-Regional Mərkəzinin yaradılması ideyasının yarandığı İqtisadi Əməkdaşlıq Təşkilatının Üzv Dövlətlərinin korrupsiyaya qarşı mübarizə və ombudsman təşkilatlarının rəhbərlərinin birinci yığıncağının keçirilməsindən etibarən korrupsiyaya qarşı əməkdaşlıq üzrə regional platformalar inkişaf etdirilməyə başlamışdır. Bunun nəticəsində və Düşənbədə korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və ombudsmanların ikinci yığıncağı müddətində Mərkəzin Nizamnaməsi təsdiq edilmiş və Regional Mərkəz praktiki tətbiq olunması üçün qanunvericilik prosesinə daxil olmuşdur.

Bakı şəhərində keçirilən ECO (İqtisadi Əməkdaşlıq Təşkilatı) Üzv Dövlətlərinin Korrupsiyaya qarşı Mübarizə Təşkilatı Rəhbərlərinin hazırkı üçüncü yığıncağı ECO Üzv Dövlətləri arasında korrupsiyaya qarşı mübarizə aparmaq və qarşısını almaq məqsədilə regional əməkdaşlığı genişləndirmək üçün davamlı güclü cəhdin təzahürüdür. Bu regional iqtisadi əməkdaşlığın və inteqrasiyanın genişləndirilməsi üçün ECO çərçivəsində başqa tədbirlərə uyğundur. 2017-ci ilin mart ayında İslamabadda ECO-nun 13-cü Sammiti (Zirvə görüşü) tərəfindən təsdiq edilmiş 2025-ci il ECO Konsepsiyası Regionda iqtisadi inkişaf və ticarətin genişlənilməsi üçün əlverişli şəraitin yaradılmasına dair ehtiyacı, o cümlədən nizamlayıcı və hüquq-mühafizə fəaliyyətləri açıq-aydın vurğulayır. Regional səylərlə bağlı korrupsiyaya qarşı mübarizə inkişaf və çiçəklənmə üçün digər milli və regional səyləri dəstəkləcəyəkdir. ECO polisinin (ECOPOL), həmçinin Üzv Dövlətlər arasında regional məhkəmə və hüquqi yardım mexanizminin yaradılmasının hal-hazırda olan prosesləri iqtisadi əməkdaşlıq və inteqrasiya üçün əlverişli regional şərait təmin etmək üçün Təşkilatın digər əlavə öhdəlikləridir.

**Zati-aliləri,**
**Hörmətli iştirakçılar,**

Biz çox ümid edirik ki, sizin bugünki və sabahkı müzakirələriniz koorupsiya təhlükəsinə qarşı regional əməkdaşlığı gücləndirmək yolu ilə daha da aydınlanacaqdır. Profilaktik tədbirlər, korrupsiyaya qarşı mübarizənin aparılmasında qabaqcıl təcrübələrin bölüşdürülməsi, eləcə də ombudsmanların rolunun gücləndirməsi yolları və vasitələri kimi məsələləri əhatə edən Yığıncağın gündəliyinə edilən töhfələriniz ECO Katibliyinin öz mandatlarının yerinə yetirilməsinə kömək edəcək. Biz həmçinin əminik ki, bu Yığıncaq Korrupsiyaya qarşı Mübarizə Agentliklərinin və Ombudsmanların Əməkdaşlığı üzrə ECO-Regional Mərkəzinin (RCCACO) erkən fəaliyyəti üzrə əlavə hərəkətverici qüvvə olacaqdır. Biz, həmçinin səbirsizliklə operativ və potensialın inkişafı tədbirləri sahəsində regional proqram və layihələr üçün konkret təkliflərinizi gözləyirik.

Mənə Üzv Dövlətlərimizin xeyrinə müvafiq olan beynəlxalq və regional partnyorlarla əməkdaşlıq üçün ECO-nun hazırlığını ifadə etməyə icazə verin.

Sizə diqqətiniz üçün təşəkkür edirəm.

**Cənab Naser Serac**
**İran İslam Respublikasının**
**Dövlət Baş Müfəttişliyinin sədri**




**Mərhəmətli, rəhmli Allahın adı ilə!**

Hörmətli sədr
Hörmətli həmkarlarımız
Xanımlar və cənablar

İran İslam Respublikasının Ümumi Təftiş Təşkilatının rəhbəri kimi mən dost ölkə, Azərbaycan Respublikası və xüsusilə də Katibliyi, habelə ədliyyə orqanlarının və korrupsiyaya qarşı mübarizə sahəsində təşkilatların İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərləri və Ombudsmanların 3-cü iclasının keçirilməsi təşəbbüsünü yüksək qiymətləndirməyi zəruri hesab edirəm.

Xoşbəxtlikdən son beş il ərzində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin anti-korrupsiya və ombudsman təşkilatlarının regional əməkdaşlıq mərkəzi bütün üzv dövlətlərin fədakarlığı və əməkdaşlığı ilə yanaşı, hüquqi, inzibati sistemlərimizin məhkəmə və inzibati bütövlüyü və səmərəliliyinin artırılması üçün yaxşı idarəetmə, bölgəmizdə hesabatlılıq və şəffaflıqla əlaqədar məlumat və təcrübə mübadiləsini genişləndirmişdir.

Bildiyimiz kimi, ECO üzvü olan dövlətlərin İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərləri və Ombudsmanların ilk iclası 2011-ci ildə İran İslam Respublikasında keçirilmişdir. Tehran görüşündə bütün üzv dövlətlər bu istiqamətdə regional əməkdaşlıq mərkəzi qurmağı qərara aldılar. Eyni ildə Tehranda keçirilmiş rəsmi ekspert toplantısında Mərkəzin təklif olunan Konstitusiyası hazırlanaraq qəbulu üçün növbəti yüksək səviyyəli görüşə təqdim olundu. Xoşbəxtlikdən Konstitusiya layihəsi 2012-ci ildə dost və qardaş ölkə olan Tacikistan Respublikasında keçirilən ikinci görüşdə üzv dövlətlər tərəfindən qəbul edildi.

İran, Tacikistan və Əfqanıstan Mərkəzin Nizamnaməsini imzaladılar, digər üzv dövlətlər isə hazırlıqlarını və imzalanmasına maraq göstərdilər. İranda bu Əsasnamə 2015-ci ildə Parlament tərəfindən təsdiq edildi və İran İslam Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq Ümumi Təftiş Təşkilatı da daxil olmaqla müvafiq təşkilatlara göndərilmişdir.
Pakistan, Qırğızıstan və Azərbaycan artıq Mərkəzi Nizamnaməyə imza atmağa hazır olduqlarından böyük məmnunluq hissi keçirir. Ümid edirik ki, ECO-nun qalan üzv dövlətləri bu mühüm sənədi üçüncü görüşdə oxuyacaqlar.

Hörmətli həmkarlar,
Hörmətli iştirakçılar,

Hazırda ölkələrin milli sərhədləri çərçivəsində korrupsiyaya qarşı mübarizə mümkün deyil, çünki bu, regional və beynəlxalq əməkdaşlığı və digər ölkələrin təcrübələrindən istifadə etməyi tələb edən mürəkkəb və geniş fəaliyyətdir. ECO Üzv Dövlətlərinin qarşılaşdıqları əsas problemlərdən biri korrupsiya problemidir. Mərkəzimiz çərçivəsində regional əməkdaşlıq yolu ilə müvafiq beynəlxalq rəqəmlərdə, xüsusilə də «Transparency International» və digər müvafiq beynəlxalq təşkilatlarda Korrupsiyanın Qorunması İndeksində korrupsiyanın səviyyəsini azaltmaq iqtidarındadır. Mən əminəm ki, biz hamımız bu vacib məqamları regionda görüşlər keçirmək, təlim və potensialın artırılması üzrə seminarlar təşkil etmək, habelə yeni yaradılmış regional anti-korrupsiya təşkilatları və ombudsmanların təşkilatı arasında təcrübə mübadiləsi həyata keçirə bilərik.

Hörmətli qonaqlar,
Xanımlar və cənablar,

Hamımız bilirik ki, müəyyən xəstəliyin qarşının alınması müalicədən daha münasib və daha ucuzdur. Korrupsiyaya qarşı mübarizədə ən əhəmiyyətli nöqtə isə qarşısının alınmasıdır. Korrupsiyanın qarşısının alınması, baş verdikdən sonra korrupsiyaya qarşı mübarizənin çətinliklərindən daha sərfəli və səmərəlidir. Bizim böyük çətinliklərimizdən biri başqalarının ikili vətəndaşlığı verməkdən ibarətdir ki, maliyyə korrupsiyasına yol verən insanlar və vəzifəli şəxslər və bu faktiki olaraq korrupsiyaya qarşı mübarizədə önəmli hesab edilir.

Ölkələrimizin korrupsiyaya qarşı mübarizə və ombudsman təşkilatlarından məsul olan orqanlarımız kimi biz bütün gücümüzü və imkanlarımızı korrupsiyanın dinamizminə görə məhdudiyyətlər tətbiq etməyə borcluyuq. Korrupsiyanın qarşısını almaq üçün qura biləcəyimiz ən mühüm məhdudiyyətlərdən biri vətəndaşlığı təmin etməklə korrupsiya törədən vəzifəli şəxsləri ölkəmizdə yerləşdirilməsini dayandırmaqdır. Mən ikili vətəndaşlığı korrupsiya törətmiş vəzifəli şəxslərə verilməsi xüsusi bir məsələ hesab edirəm. İnanıram ki, ikitərəfli vətəndaşlığı olan vəzifəli şəxslərə verilməsi və kollektiv mexanizmlərin toplanmasının beynəlxalq səviyyədə ləğv edilməsi beynəlxalq ictimaiyyətin bütün sahəsindəki korrupsiyanın dinamizmini və genişləndirilməsini məhdudlaşdırır.

ECO Üzv Dövlətləri tez-tez qarşılaşdıqları problemlərdən biri də, pulların yuyulması və ya korrupsiyanın mütəşəkkil formalarına cəlb edən bəzi qərb ölkələri ilə sığınacaq axtaran və onların pullarını bu ölkələrdən birinə köçürən insanlardır. Belə ölkələr yalnız çirkli pulların yuyulmasına qarşı mübarizənin şüarını səsləndirirlər və səylərini praktikada təqdir edirlər. Lakin, onlar korrupsiya cinayətləri törətmiş insanlar tərəfindən yuyulmuş pulunu geri qaytarmağa, hətta Asiyadan yığılan pulların hamısını elan etməyə hazır deyillər.

Buna görə ECO Üzv Dövlətləri öz ölkələrindən qaçan və bu ölkələrlə sığınacaq axtarmağa mane olan maddi cəhətdən pozulmuş məcburi köçkünlər üçün qırmızı xəbərdarlıqları bildirmək üçün öz tədbirlərini birləşdirməlidir və koordinasiya etməlidirlər. Xoşbəxtlikdən ECO Üzv Dövlətləri ümumi birləşmədə çıxış edirlər. Buna görə də, siz qaçqınların üçüncü ölkələrlə sığınacaq axtarmasının qarşısını almaq üçün daha çox fəal olmağa kömək istəməyinizi xahiş edirik.

Korrupsiyaya qarşı mübarizə uzun və yüksək riskli bir yoludur. İran İslam Respublikasının Ümumi Təftiş Təşkilatı korrupsiyaya qarşı mübarizədə qətiyyətlə ciddi addımlar atır və bu baxımdan korrupsiyadan azad inteqrasiya edən bir cəmiyyətə çatmaq üçün hər bir səy göstərir.

Xanımlar və cənablar

Korrupsiyaya qarşı mübarizə bütün ölkələrdə mübarizə aparmaq üçün ciddi və çətin bir mübarizədir. Allahın izni ilə biz korrupsiyanı aradan qaldırmaq və ya ən azı onu minimuma endirə bilərik. Biz korrupsiyaya qarşı mübarizənin böyük ordusunun bir hissəsiyik və qalib olsaq, təkcə xalqımız deyil, bütün dünya bununla faydalanacaqdır.

Sonda, mən inanıram ki, korrupsiyaya qarşı mübarizədə nəzərə alınmalı olan ən mühüm amildir ki, bu pis hadisəni aradan qaldırmaq üçün hakimiyyətin iradəsidir. Korrupsiyaya qarşı mübarizədə və korrupsiyaya qarşı mübarizədə demək olar ki, bütün qlobal təcrübələrdə ilk və əsas şərt - korrupsiyanı həqiqətən aradan qaldırmaq üçün hakimiyyətin iradəsi və qərarıdır.

Həqiqi bir qətiyyət olmadan, korrupsiyaya qarşı mübarizədə heç bir ciddi tədbir görülməyəcək və bu istiqamətdə görülən hər hansı bir tədbir ictimaiyyətdən kənara çıxmayacaq. Korrupsiyaya qarşı mübarizə çətin və dözülməz bir səydir. Bir daha əminik ki, korrupsiyaya qarşı mübarizə uzun və yüksək riskli bir üsuldur, lakin biz bu yolla korrupsiyasız bir cəmiyyət qurmaq üçün qətiyyətli tədbirlər görəcəyik.

**As-Salamu Alaykum va Rahmatullahi va Barakatuhu**

**Cənab Zakir ŞAH**
**Pakistan Respublikasının**
**Milli Hesabatlılıq Bürosunun direktoru**




Sabahınız xeyir!

Hər birinizi salamlayıram və vaxtınızı çox almadan Pakistan Respublikasının korrupsiyaya qarşı mübarizədə beynəlxalq mexanizmlərlə əməkdaşlıq təcrübəsini sizinlə bölüşmək istəyirəm.

Bildiyiniz kimi korrupsiya bütün formalarda milli mənafeyi təhlükə altına qoyduğu üçün korrupsiyaya qarşı mübarizə dövlətlərin məqsədyönlü səylərini tələb edir. Bu bir danılmaz həqiqətdir ki, ümumi məqsədlərə qarşılıqlı əməkdaşlıq etmədən nail oluna bilməz. Məhz beynəlxalq və regional səylərin birləşdirilməsi qanunvericiliyin effektivliyini və imkanlarını gücləndirir. Razılaşdırılmış səylər cinayətkarlıq yolu ilə alınmış sərvətin transsərhəd hərəkatının dayandırılmasına imkan yarada bilər. Öz növbəsində Korrupsiyaya qarşı Birləşmiş Millətlər Təşkilatının Korrupsiya Əleyhinə Konvensiyası (UNCAC) tərəfindən bəyan edilmiş məqsədlərin yerinə yetirilməsi bu işdə əvəzsiz vasitədir.

Pakistan Respublikasının Milli Hesabatlılıq Bürosu tərəfindən korrupsiya cinayətləri ilə bağlı qarşılıqlı hüquqi yardımın (MLA) göstərilməsi ilə bağlı beynəlxalq əməkdaşlıq edilməsi 1999-cu ildə qəbul edilmiş Milli Hesabatlılıq təlimatının 21-ci bölməsi və UNCAC-ın 46-cı maddəsinə əsasən həyata keçirilir. 1999-cu ildən etibarən Pakistanın Milli Hesabatlılıq Bürosu qarşılıqlı hüquqi yardımla bağlı sorğuların həyata keçirilməsi ilə məşğul olmaqdadır.

Milli Hesabatlılıq təlimatının 21-ci maddəsinə əsasən qarşılıqlı hüquqi yardım xarici hüquq mühafizə təşkilatının yardım sorğusu və ya xarici hüquq mühafizə təşkilatı tərəfindən Pakistan hökuməti vasitəsilə edilmiş yardım sorğusu ilə rəsmi və ya qeyri rəsmi formada icra edilir.

Qarşılıqlı hüquqi yardım aktivlər, bank hesabları, maliyyə əməliyyatları, pul köçürmələri, öhdəlikdə olanlar üçün təhsil xərclərlərinin araşdırılması və yoxlanılması, götürmənin aparılması, aktivlərin, korrupsiya aktivlərinin qaytarılması, and altında şahid ifadələrinin və etibarlı sənədli sübutların alınması, çağırışa dair bildirişlər, məhkəməyə çağırış vərəqələri, məhkəmə qərarlarına dair xidmətlərin göstərilməsi kimi məqsədlərə nail olunmasına xidmət edir.

Qarşılıqlı hüquqi yardım barədə sorğuların həyata keçirilməsində iş üzrə faktlar, instintaq, məhkəmə prosesinə dair xüsusatlar, lazımlı sübutlar, törədilmiş cinayət və araşdırılmış sübutlar arasında qırılmaz əlaqə, MLA-nın tələb olunduğu qanunlar, istintaqın predmeti ilə bağlı tam məlumatlar və araşdırılmış məlumatın tam təsviri əsas şərtlərdəndir.

Cinayət nəticəsində vurulmuş ziyan təqdirləndirilən şəxsin özü tərəfindən könüllü və ya istintaq sövdələşməsi, qarşılıqlı hüquqi yardım, xarici məhkəmələrdə mülki prosedurların başlanılması yolu ilə geri qaytarılır.

Nəaliyyət kimi göstərmək olar ki, indiyədək hüquqi yardımın həyata keçirilməsi ilə bağlı 458 sorğu yerinə yetirilmiş, 22 milyon ABŞ dolları məbləğində vəsait xaricdən geri qaytarılmışdır.

Qeyd etdiyim kimi Milli Hesabatlılıq Bürosu öz fəaliyyətində UNCAC-a böyük önəm verir. Milli Hesabatlılıq Bürosu MLA sorğularını UNCAC-ın 46-cı maddəsinə əsasən xarici yurisdiksiyalara göndərir. Çünki UNCAC-a üzv dövlətin ekstradisiya ilə bağlı sorğuları həyata keçirməsi barədə öhdəçilik təsbit olunmuş, bu günə kimi 180 dövlət konvensiyanı imzalamışdır. 46-cı maddədə istintaq, ittiham və məhkəmə baxışı zamanı qarşılıqlı hüquqi yardım nəzərdə tutulmuş, MLA istənilən iştirakçı dövlətin müvafiq qanunları, müqavilələri, razılaşmaları və düzəlişləri ilə mümkün qədər geniş şəkildə təmin edilmişdir.

Bundan başqa biz sorğu verən dövləri də hüquqi yardımla təmin edir, bu sahədə milli və beynəlxalq qanunvericilik çərçivəsində əlimizdən gələn köməyi əsirgəmirik. Verilən sorğuların icrası ilə əlaqədar olaraq şəxslərdən sübut və ya ifadələr əldə etmək, məhkəmə sənədlərini əldə etmək, axtarış aparılması, əmlak üzərinə həbs qoyma, dondurma, obyektlərin araşdırılması, məlumat, sübut məqalələri və ekspert qiymətləndirmələrini təmin etmək, cinayətin gedişini, əmlakını, alətlərini müəyyənləşdirmək, izləmək, dövlətdən istənilən şəxslərin görünməsini asanlaşdırmaq, konvensiyanın 5-ci fəslin müddəalarına uyğun olaraq aktivlərin bərpası və digər bu kimi istənilən dövlətin daxili qanunvericiliyinə zidd olmayan hər hansı yardım göstərilir.

Bundan başqa çıxışımda ekstradisiya məsələlərinə də toxunmaq istərdim. Ekstradisiyanın icra edilməsinin şərtləri kimi nəzərdə tutulmuşdur ki, cinayətin subyekti göstərilmiş müqavilə və qanuna uyğun olaraq ekstradisiya edilə bilən olmalıdır. İki dəfə cinayətə cəlb olunmamaq və qarşılıqlılıq prinsipi, eləcə də, sorğu verilən dövlətin prosessual tələblərinə uyğunluq da digər başlıca şərtlərdəndir.

Məlumat üçün qeyd edim ki, Əlcəzair, İran, Argentina, İraq, Avstraliya, Lüksemburq, Avstriya, Maldiv, Belçika, Monako, Çin, Hollandiya, Portuqaliya, Portuqaliya, Kuba, İsveçrə, Danimarka, San Marino, Misir, Səudiyyə Ərəbistan, Ekvador, Türkiyə, Fransa, B.Ə.Ə, Yunanıstan, ABŞ, İtaliya və Özbəkistanla ekstradisiyaya dair müqavilələr mövcuddur.

Beynəlxalq Anti-korrupsiya qurumları ilə əməkdaşlıq məsələlərinə gəldikdə isə Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyası (UNCAC), Beynəlxalq Anti Korrupsiyaya Təşkilatlarının Assosiasiyası (IAACA), Asiya və Sakit okean üçün AİB - OECD Anti-Korrupsiya Təşəbbüsü, Çirkli pulların yuyulmasına dair Asiya Pasifik qrupu (APG), İKT Korrupsiyaya Qarşı Mübarizə və Dürüstlüyə Yardım Forumu (ACEIF), Beynəlxalq Anti-Korrupsiya Konfransı (IACC), Əmlakın bərpası üzrə Asiya Pasifiklərarası Agentlik Şəbəkəsi (ARIN-AP), Korrupsiyaya Qarşı Mübarizə Agentlikləri və Ombudsmanlar İqtisadi Əməkdaşlıq Regional Mərkəzi (RCCACO), Asiya və Sakit okean üçün İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA) və korrupsiyaya qarşı mübarizə və dürüstlüyü təmin etmək üzrə Qlobal Forum əməkdaşlıq edilən təşkilatlardandır.

Pakistan - qlobal dünyanin məsuliyyətli üzvü kimi 9 dekabr 2003-cü ildə UNCAC-ı imzalayıb və 31 Avqust 2007-ci ildə ratifikasiya etmişdir. UNCAC çərçivəsində mərkəzi hakimiyyət orqanı olan Milli Hesabatlılıq Bürosu korrupsiyaya qarşı mübarizədə mühüm rol oynayır.

Bundan başqa qarşılıqlı hüquqi yardım üçün nəzərdə tutulan qanun layihəsi korrupsiya təhlükəsinə güclü təsir göstərməsini nəzərdə tutur və hazırda Parlamentin müzakirəsindədir.

ECO-nun fəaliyyətinə gəldikdə isə bu təşkilat regional əməkdaşlıq üçün mühüm rola malikdir. Təşkilatın fəaliyyətinin daha da gücləndirilməsi,qarşılıqlı hüquqi yardım və ekstradisiya həyata keçirilməsi, ECO üzvü olan ölkələrlə ikitərəfli və çoxtərəfli müzakirələr və yüksək səviyyəli təlimlərin həyata keçirilməsi məqsədi ilə Anti-korrupsiya Akademiyasının yaradılması, istintaq və təqib prosesində texniki ekspertizadan istifadəni mümkün edən ECO korrupsiyaya qarşı mübarizə orqanlarının məlumat bazasına girişin yaradılmasını təklif edirik. Eləcə də, korrupsiyaya qarşı mübarizədə informasiya və texniki yardımın paylaşılması və qarşılıqlı regional yanaşma yolu ilə korrupsiyaya qarşı mübarizə strategiyalarının formalaşdırılmasında bacarıq və təcrübə mübadiləsinin aparılması da müsbət nəticələr əldə edilməsinə təkan olardı.

Diqqətinizə görə təşəkkür edirəm!

**Cənab Solaymon SOLTANZODƏ**
**Tacikistan Respublikasının Dövlət maliyyə nəzarəti və korrupsiya ilə mübarizə Agentliyinin direktoru**




Hörmətli xanımlar və cənablar!

İcazə verin tacik nümayəndə heyətinin adından bu günkü iclasın təşkilatçılarına və şəxsən cənab Zakir Qaralova Azərbaycan torpağında səmimi qəbul və qonaqpərvərliyə görə təşəkkürümü bildirim. Biz növbəti görüşümüzə səmimi qəlbdən sevinirik. Çünki biz əminik ki, həmkarlarımızla əməkdaşlıq məhsuldar olacaq.

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərləri və Ombudsmanların 3-cü iclasının yüksək səviyyədə təşkil olunması Azərbaycan rəhbərliyinin regional əməkdaşlığın möhkəmləndirilməsi və inkişaf etdirilməsinə olan hədsiz marağının növbəti göstəricisidir.

Korrupsiya ölkənin nüfuzuna zərbə endirməklə kölgə iqtisadiyyatına, dövlət və ictimai vəsaitlərdən məqsədə uyğun olmayan şəkildə istifadəyə, insan hüquqlarının pozulmasına və cəmiyyətin mənəvi dayaqlarının sarsıdılmasına şərait yaradır.

Müstəqilliyinin ilk günlərindən etibarən Tacikistan korrupsiya ilə mübarizəni dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyən etmiş, bu istiqamətdə hüquqi və struktur əsaslarını yaratmış, beynəlxalq əməkdaşlığı gücləndirmişdir.

Korrupsiyaya qarşı mübarizə Tacikistan Respublikasının daxili və xarici siyasətinin tərkib hissəsidir; həmin siyasətin formalaşdırılması və icra olunması ölkə rəhbərliyinin siyasi iradəsi sayəsində mümkündür.

21 iyul 1999-cu ildə Tacikistan Respublikasının Prezidenti korrupsiya ilə mübarizədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edən “İqtisadi və korrupsiya cinayətləri ilə mübarizənin gücləndirilməsinə dair əlavə tədbirlər barədə” Fərman imzalamışdır.

Korrupsiyaya qarşı mübarizədə dövlət orqanları və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətini əlaqələndirmək məqsədi ilə Korrupsiyaya qarşı mübarizə üzrə Milli Şura təsis edilmiş, bölgə, şəhər və rayonlarda isə korrupsiyanın qarşısının alınması üzrə ictimai komissiyalar fəaliyyət göstərir.

Müstəqillik dönəmində korrupsiyaya qarşı mübarizəyə dair təşkilati-hüquqi, sosial-iqtisadi və mənəvi-mədəni xarakterli kompleks tədbirləri əhatə edən korrupsiyaya qarşı mübarizə üzrə iki dövlət strategiyası qəbul olunmuşdur.

Bütün müvafiq beynəlxalq aktlar, o cümlədən Tacikistanın 2006-cı ildə imzaladığı BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası ratifikasiya olunmuşdur.

2003-cü ildə Tacikistan ilk ölkələrdən biri olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının korrupsiyaya qarşı Şəbəkəsinə üzv olmuş, korrupsiyaya qarşı mübarizəyə dair İstanbul Fəaliyyət Planı çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.

Beləliklə, korrupsiya ilə mübarizənin hüquqi bazası yaradılmış, korrupsiyaya qarşı mübarizə aparan orqanlar müəyyən edilmişdir.

Ölkə qanunvericiliyinin beynəlxalq normalara uyğunlaşdırılması və korrupsiya ilə əlaqədar bütün məsələlərin əhatə olunması məqsədi ilə normativ hüquqi aktlarda korrupsiya amillərini aradan qaldırmağa istiqamətlənmiş “Normativ hüquqi aktların və normativ hüquqi aktların layihələrinin antikorrupsiya ekspertizası barədə” Tacikistan Respublikasının Qanunu qəbul edilmişdir.

Bundan əlavə, dövlət qulluqçularının məsuliyyətini artırmaq məqsədi ilə ölkə qanunvericiliyndə korrupsiya ilə mübarizənin gücləndirilməsi və korrupsiya risklərinin təhlilinə dair məcburi müddəalar müəyyən edilib, hər hansı şəxsin dövlət qulluğuna qəbul edilməsi zamanı onun əvvəllər korrupsiya cinayətlərinin törədib-törətməməsi araşdırılır.

Həmçinin qeyd olunmalıdır ki, cari il ərzində BMT-nin Korrupsiyaya qarşı Konvensiyasının 3-4-cü fəsillərin icrasını və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının korrupsiyaya qarşı İstanbul Fəaliyyət Planı çərçivəsində həyata keçirilən 4-cü raund monitorinq zamanı verilmiş tövsiyələrinin yerinə yetirilməsini yoxlamaq məqsədilə ölkəmizə iki qrup beynəlxalq ekspertlər səfər etmişdir.

Əziz dostlar!

2007-ci ilin yanvar ayında ixtisaslaşdırılmış qurum-Dövlət maliyyə nəzarəti və korrupsiya ilə mübarizə Agentliyinin yaradılması Tacikistan Respublikasının korrupsiya ilə mübarizədə nailiyyətlərindən biridir və bu öz növbəsində büdcə vəsaitlərindən, dövlət mülkiyyətindən düzgün və səmərəli istifadə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının, həmçinin dövlət və cəmiyyətin maraqlarının müdafiəsi məqsədlərini daşıyır.

Dövlət maliyyə nəzarəti və korrupsiya ilə mübarizə Agentliyinin 10 illik fəaliyyəti ərzində korrupsiya cinayətlərinin aşkar edilməsi və qarşısının alınması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

2015-ci ildən bəri “Tacikistan Respublikasının 2013-2020-ci illərdə korrupsiyaya qarşı mübarizə strategiyası”nın icrası çərçivəsində nazirliklərdə, yerli icra hakimiyyəti orqanlarında 116 kompleks monitorinq həyata keçirilmiş, həmin yoxlamalar nəticəsində nazirliklər, müəssisə və təşkilatlara 2542 yazılı göstəriş və 963 təklif göndərilmişdir.

Vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıqda həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində 1032 korrupsiya xarakterli cinayətin qarşısı alınmış, qanunu pozan şəxslər barəsində inzibati cərimələr tətbiq edilmişdir.

Qeyd olunmalıdır ki, korrupsiya ilə mübarizədə vətəndaşlar və ictimai institutlar vacib rol oynaya bilər. Bu səbəbdən biz vətəndaş cəmiyyəti ilə əməkdaşlığımızı genişləndiririk.

Dövlət maliyyə nəzarəti və korrupsiyaya qarşı mübarizə üzrə Agentliyinin əməkdaşlarının ötən il əhali arasında həyata keçirdiyi sosioloji sorğu bu neqativ hala qarşı mübarizədə əhəmiyyətlə rola malik ola bilər.

Son on ildə ölkəmiz özünün müasir standartlar səviyyəsində və qabaqcıl təcrübəyə, həmçinin cinayətkarlığa qarşı ənənəvi mexanizmlərə əsaslanmış korrupsiyaya qarşı mübarizə sistemini formalaşdırmışdır.Korrupsiyaya qarşı mübarizənin vacib tərkib hissəsi hesab olunan cinayət yolu ilə əldə edilmiş vəsaitin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sistemi formalaşdırılmaqdadır. Həmin sistemin uğurunun əsası Sülhün və millətin birliyinin yaradıcısı, millətin lideri, Tacikistan Respublikasının Prezidenti Emomali Raxmonun güclü və qətiyyətli siyasi iradəsidir.

Hökumət tərəfindən həyata keçirilmiş tədbirlər bizim korrupsiya ilə mübarizədə qətiyyətimizin göstəricisidir.

Müasir dünyada korrupsiyanın ayrı-ayrı ölkələrin və ya regionların problemi olmadığını başa düşdüyümüzdən, qeyd etmək istərdim ki, bizim ölkələrimizdə korrupsiyaya qarşı uğurlu və səmərəli mübarizəni yalnız beynəlxalq əməkdaşlıq sayəsində təmin etmək mümkündür.

Qloballaşma şəraitində korrupsiyanın bizim ölkələrimizin iqtisadi və sosial inkişafına təhdidlərini, eyni zamanda korrupsiyanın dövlətin inkişafını, hakimiyyət orqanlarına ictimai etimadı sarsıtdığını nəzərə alaraq, əməkdaşlığın beynəlxalq-hüquqi mexanizmlərinin təkmilləşdirilməsinə zərurət yaranmışdır.

Biz əminik ki, ölkəmiz beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlıqda, qabaqlayıcı tədbirləri həyata keçirməklə, vətəndaşların hüquqi mədəniyyətini inkişaf etdirməklə, bu proseslərə vətəndaş cəmiyyətini cəlb etməklə korrupsiyaya qarşı mübarizədə, qanunların tələblərini yerinə yetirilməsində, korrupsiyaya qarşı mübarizəyə dair dövlət strategiyaları və proqramlarının icra olunmasında tələb olunan nəticələri əldə edəcək.

Diqqətinizə görə minnətdaram!

**Cənab Kamran ƏLİYEV**
**Azərbaycan Respublikasının Baş prokurorunun müavini –**
**Baş prokuror yanında Korrupsiyaya qarşı**
**Mübarizə Baş İdarəsinin rəisi,**




Hörmətli həmkarlar!
Möhtərəm qonaqlar!

Bu mühüm tədbirə ev sahibliyi etmək və sizləri Bakı şəhərində salamlamaqdan məmnunluq duyduğumuzu bildirmək istərdim. Bildiyiniz kimi korrupsiya dünyada milyonlarla insanın həyatına mənfi təsir edən, demokratiya və qanunun aliliyinə zərbə vuran, iqtisadi və sosial sabitliyi təhlükə altına alan, mütəşəkkil cinayətkarlıq, terrorçuluq və digər təhlükələr üçün münbit şəraitə yol açan sosial bəladır. Korrupsiyaya qarşı mübarizə Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindəndir və İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclası anti-korrupsiya tədbirlərinin təşviqi, məlumat və təcrübə mübadiləsi yolu ilə təşkilata üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə səylərinin dəstəklənməsini nəzərdə tutur.

Fürsətdən istifadə edərək mən Azərbaycan Respublikasında anti-korrupsiya siyasəti və korrupsiyaya qarşı mübarizənin vəziyyəti və həyata keçirilmiş tədbirlər barədə qısa təqdimat etmək istərdim.

Bildiyiniz kimi siyasi iradə korrupsiyaya qarşı mübarizənin əsas elementidir. Azərbaycanda cənab Prezident İlham Əliyevin möhkəm siyasi iradəsinə əsaslanan korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı və inzibati tədbirlərin həyata keçirilməsi siyasəti aşağıdakı əsas sütünlara söykənir:

- Beynəlxalq standartlara cavab verən qanunvericiliyin formalaşdırılması;
- Məhkəmə və hüquq sistemində islahatlar;
- Dövlət idarəçiliyində şəffaflıq;
- İxtisaslaşmış anti-korrupsiya qurumlarının təsis edilməsi;
- Vətəndaş cəmiyyəti və beynəlxalq tərəfdaşlarla möhkəm əməkdaşlıq.

I - EFFEKTİV ANTİ-KORRUPSİYA QANUNVERİCİLİYİ.

Qısa müddət ərzində Azərbaycan geniş miqyaslı hüquqi və institusional islahatlar həyata keçirməklə beynəlxalq tələblərə cavab verən qanunvericilik bazası formalaşdırmışdır. 2004-cü ildə “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanun qəbul edilmiş, eləcə də digər qanunvericilik aktlarına müvafiq dəyişikliklər edilmişdir. Azərbaycan bu sahədə mövcud bütün beynəlxalq təşəbbüslərə qoşulmuşdur. Belə ki, 2003-2004-cü illərdə Azərbaycan Respublikası BMT-nin Korrupsiya əleyhinə və Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyaları, Avropa Şurasının Korrupsiya ilə əlaqədar mülki və cinayət məsuliyyəti haqqında Konvensiyalarına qoşulmuş, Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə aparan Dövlətlər Qrupu (GRECO) və OECD-nin Anti-Korrupsiya Şəbəkəsinə üzv olmuşdur.

Cənab Prezident İlham Əliyevin möhkəm siyasi iradəsinin nümunəsi kimi 2004-cü ildən etibarən qəbul edilmiş bir sıra Korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planları, Dövlət Proqramı və Strategiyalarını misal göstərmək olar.

Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üzrə ən son Milli Fəaliyyət Planı 2016-cı ilin aprel ayında qəbul edilmişdir. Bir neçə gün öncə, iyun ayının 2-də “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmış, Sərəncama müvafiq olaraq korrupsiya ilə mübarizəyə dair yeni dövlət proqramının hazırlanması nəzərdə tutulmuşdur.

## II – MƏHKƏMƏ SİSTEMİNDƏ İSLAHATLAR

Ədalətli və müstəqil məhkəmə sisteminin demokratik və şəffaf cəmiyyətin təməllərindən olmasına inanaraq və anti-korrupsiya tədbirlərinin effektivliyini təmin etmək məqsədilə Azərbaycan Respublikası özünün məhkəmə sistemini beynəlxalq standartlara uyğun olaraq yenidən qurmuşdur. İslahatlar nəticəsində 3 pilləli məhkəmə sistemi təsis edilmiş, məhkəmə hakimiyyətinin müstəqil özünü idarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edilmişdir. Məhkəmə Hüquq Şurası hakimlərin seçilməsi, təyin edilməsi, rotasiyası və onların fəaliyyətinin qiymətləndirilməsini həyata keçirən qurumdur. Ötən müddət ərzində Şuranın səalhiyyətləri artırılmış və bu sahədə həyata keçirilmiş islahatlar Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyinin artırılması üzrə Komissiyası – CEPEJ tərəfindən yüksək qiymətləndirilmişdir.

## III – DÖVLƏT İDARƏÇİLİYİNDƏ ŞƏFFAFLIQ

Bu sahədə dövlət qulluğuna və hüquq-mühafizə orqanlarına qəbulun şəffaflığı bu prosesin test imtahanları əsasında həyata keçirilməsi ilə təmin edilmiş, bütün qurumlarda daxili nəzarət üzrə struktur vahidləri yaradılmış, Etik Davranış Qaydaları qəbul edilmiş, Elektron Hökumət platformasının fəaliyyət göstərməsi və bu sahədə maarifləndirmə tədbirlərinin həyata keçirilməsi təmin edilmişdir. 2012-ci ildə Sosial İnnovasiyalar və Vətəndaşlara Xidmət üzrə Dövlət Agentliyinin yaradılması Azərbaycan rəsmilərinin dövlət idarəçiliyində korrupsiyaya qarşı mübarizə aparılmasında möhkəm siyasi iradəsinin növbəti nümunəsi kimi göstərilə bilər. Özünün ASAN Xidmət Mərkəzləri vasitəsilə bir pəncərə prinsipi əsasında vahid və mərkəzləşmiş qaydada ictimai xidmətlərin göstərilməsini təmin edir. Ötən müddət ərzində Agentlik vətəndaşların 15 milyondan artıq müraciətinə baxmışdır. Hər il ölkənin müxtəlif regionlarında yeni Xidmət Mərkəzləri açılır və hazırda onların sayı 11-ə çatdırılmışdır. Bu il daha 5 xidmətin əlavə edilməsi ilə göstərilən xidmətlərin sayı 112-yə çatdırılmışdır. ASAN Xidmət Mərkəzləri 2015-ci ildə BMT-nin İctimai Xidmətlər üzrə Mükafatının qalibi olmuşdur.

## IV – İXTİSASLAŞMIŞ ANTİ-KORRUPSİYA QURUMLARI

BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının tələblərinə müvafiq olaraq Azərbaycanda ixtisaslaşmış anti-korrupsiya qurumları yaradılmışdır. Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya 2004-cü ildə təsis edilmişdir və bu qurum ölkədə korrupsiyaya qarşı mübarizə siaysətinin hazırlanması, tətbiqi və nəticələrinin qiymətləndirilməsi funksiyalarını daşıyır. Komissiya dövlət hakimiyyətinin hər üç qolundan bərabər sayda olmaqla təsis edilir və 15 üzvdən ibarətdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

KQMBİ 2004-cü ildə Prezident Fərmanı ilə təsis edilmişdir və korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı funksiyalarını həyata keçirir. Baş idarə Azərbaycan Respublikasının Baş prokuroruna tabedir və öz fəaliyyəti barədə mütəmadi olaraq Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya və Baş prokuror vasitəsilə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir.

Baş İdarənin əsas funksiyaları:

- ✓ Preventiv tədbirlərin həyata keçirilməsi və təhqiqat
- ✓ Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi
- ✓ Korrupsiya cinayətlərinin ibtidai istintaqının həyata keçirilməsi
- ✓ Vətəndaşların müraciətlərinə baxılması
- ✓ Beynəlxalq əməkdaşlıq
- ✓ Maarifləndirmə tədbirlərinin və vətəndaş cəmiyyəti ilə əməkdaşlığın həyata keçirilməsi

Baş İdarə dələduzluq, mənimsəmə, aktiv və passiv rüşvətxorluq, vəzifə səhlənkarlığı, vəzifə səlahiyyətlərini aşma və sui-istifadə, çirkli pulların yuyulması, nüfuz alveri və digər korrupsiya cinayətlərinin ibtidai istintaqını həyuta keçirir.

## V- VƏTƏNDAŞ CƏMİYYƏTİ VƏ BEYNƏLXALQ TƏRƏFDAŞLARLA ƏMƏKDAŞLIQ.

Azərbaycan Respublikası vətəndaş cəmiyyəti və beynəlxalq tərərfdaşlarla əməkdaşlığa mümüm əhəmiyyət verir. Belə ki, vətəndaş cəmiyyəti nümayəndələri Milli Anti-Korrupsiya Fəaliyyət Planlarının və müvafiq qanunvericiliyin hazırlanması, qəbulu, tətbiqi və monitorinqi prosesində fəal iştirak edirlər. Həmçinin vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə maarifləndirmə tədbirləri həyata keçirilir. Burada mən beynəlxalq və regional tərəfdaşlarla faydalı əməkdaşlığı xüsusilə qeyd etmək istərdim. Bu sıraya Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı Assosiasiyası (IAACA); Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP); Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA); Regional təşkilatlardan Avropa Şurası və Avropa Birliyi; Demokratiya və İnkişaf naminə Təşkilat (GUAM); Qara dəniz əməkdaşlıq təşkilatı (BSEC); Korrupsiyaya qarşı Avropa tərəfdaşlıq təşkilatı (EPAC) Korrupsiya-ya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN) və digərlərini göstərmək olar.

Yekunda mən konfrans zamanı baş tutan müzakirələrin bizlərin korrupsiyaya qarşı mübarizə səylərimizin yenidən nəzərdən keçirmək və gücləndirməyimizə öz töhvəsini verəcəyinə inamımı ifadə etmək istərdim.

Tədbir iştirakçılarına uğurlar və səmərəli müzakirələr arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Cənab Halil ADIGÖZƏL**
**Türkiyə Respublikasının**
**Baş prokurorunun müavini**




Əvvəlcə Əfqanıstan, Azərbaycan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Özbəkistan, Tacikistan və Türkmənistandan proqrama qatılan qiymətli dost və qohum ölkə nümayəndələrini dərin hörmətlə salamlayıram. Bütün dost və qardaş ölkə nümayəndələrinə Türkiyədən gətirdiyim salamları çatdıraram. İçində olduğumuz mübarək ramazan ayının bütün ölkə xalqlarına sülh, qardaşlıq və dinclik gətirməsi xahişi ilə sözlərimə başlamaq istəyirəm.

Türkiyə olaraq biz; Orta Asiya ölkələri, qonşu və qardaş ölkələrlə birlikdə üzv olduğumuz regional iqtisadi təşkilat olan iqtisadi Əməkdaşlıq Təşkilatını xüsusi əhəmiyyət veririk.

Korrupsiyanın Xüsusiyyətləri
- Gizliliyi tələb edir.
- Aktyorlar ən azı iki şəxsiyyətdir.
- Şəxsi maraqlar ictimai maraqların üzərindədir.
- Rüşvət faktı iki tərəf arasında bir alış-veriş əlaqəsini xatırladır.
- Cəmiyyətin dövlətə olan inam duyğusunu əhatə edir.

Korrupsiyanın səbəbləri
- Bəzi iş adamları ilə dövlət işçilərinin qanunlara zidd şəkildə bir mənfəət birliyi yaratmaları,
- Dövlətə ziyan vuraraq iş görmə vərdişinin bəzi dairələrdə yerləşməsi və yayılması,
- İctimai nizam yaxşı qurulmadığına görə bir keçid mərhələsi yaşanması və həll yollarının qeyri-qanuni yollardan axtarılması,
- yoxsulluğa qarşı sağlam bir cəmiyyət şüurunun qurulmaması, cəmiyyətin laqeydliyi,
- Təsirli bir vergi yoxlama sisteminin olmaması,
- İnkişaf prosesində ictimai fayda və cəmiyyətin mənfəəti yerinə fərd, partiya, qrup, firma və təbəqə mənafelərinin önə çıxması,
- Gəlir dağılımındakı ədalətsizlik və qeyri-kafi gəlir səviyyəsi,
- Cəmiyyətdə aşağı ödəniş siyasəti,
- Bürokratik əməliyyatların həddindən artıq çoxluğu və zaman alması.

Bütün ölkələrdə fərqli şəkillərdə və ölçülərdə görülən sui-istifadələr, dövlətlərin idarəetmə strukturlarında, iqtisadiyyatlarında, ictimai həyatda və ədalət sistemində çöküntülərə səbəb olmuş, tarazlıqları pozmuş, bütün bu və bənzəri mənfiliklərin nəticəsi olaraq hökumətləri devirmiş, bir çox bürokrat və siyasətçinin vəzifələrinin sona çatmasına səbəb olmuşdur.

Korrupsiya; ictimai təşkilatlar və dövlət işçiləri başda olmaqla birlikdə özəl sektorda də görülən bir hadisədir. Lakin buradakı fəqri qeyd etmək lazımdır. Belə ki, ictimai formada mənfəət qarşılığı edilən qanunsuzluqlar korrupsiya olaraq xarakterizə edərkən, özəl sektorda yaşanan korrupsiya hadisələri sui-istifadə etmə, saxtakarlıq, fırıldaqçılıq olaraq qarşımıza çıxmaqdadır.

Korrupsiya hadisəsi gizli bir hadisədir. Gizliliyi əsas edən, hadisəyə cəmiyyətin və qanunların baxışıdır.

Ölkəmizdə korrupsiya ilə mübarizə aparan ictimai qurum və təşkilatlar.
-Sayıştay (Məclis adına maliyyə yoxlama orqanı)
-Yüksək Nəzarət heyəti
-Dövlət Nəzarət heyəti (Prezidentə bağlı olaraq çalışır) (DDK)
-Bankları tənzimləmə və təftiş qurumu (BDDK)
-Sərmayə Bazarı Şurası (SPK)

-Türkiyə Böyük Millət Məclisi (TBMM) qanunvericilik fəaliyyəti yanında korrupsiya araşdırma komissiyaları ilə araşdırma, meydana çıxarma və həll təklifləri istiqamətində çalışır.

-Ombudsman Təşkilatı (Baş ictimai nəzarət)

30 Mart 2010-cu il tarixli qanun,

12 Sentyabr 2010-cu il tarixli ümumxalq səsverməsi ilə Konstitusiya təşkilatı,

15.06.2012-də qanun layihəsi TBMM tərəfindən qəbul edilmişdir,

29.06.2012-də dövlət başçısı tərəfindən təsdiqlənərək qüvvəyə minmişdir.

-Baş Nazirlik təftiş heyəti,

-İctimai tender təşkilatı,

-Nazirliklərin daxili təftiş və nəzarət qurumları

Ölkəmizdə korrupsiya ilə mübarizə aparan digər qeyri-hökumət təşkilatları

-İctimai Şəffaflıq Hərəkatı Dərnəyi, (1996) Dərnək Beynəlxalq Şəffaflıq Təşkilatının Türkiyə nümayəndəliyidir.

-Vətəndaşın Vergisini Qoruma Dərnəyi (1997)

-Türkiyə İqtisadi və Sosial təhsil Vəqfi,

-Devlet Yoxlama İşçiləri Dərnəyi,

-Türkiyə Etik Dəyərlər Mərkəzi,

-TÜSİAD. Türk Sənayeçi və İş adamları Dərnəyi,

-Ağ Nöqtə Fondu

Zaman darlığı səbəbiylə beynəlxalq təşkilatları sadalaya bilməyəcəm.

Həll təklifləri

-Korrupsiya hadisələriylə təhsilin vəziyyəti yaxından əlaqədardır. İctimai təşkilatlarda korrupsiya əməlləri ilə əlaqədar olaraq işçilərə məlumat verilməli, seminarlar təşkil edilməli, xidmət daxili maarifləndirmə həyata keçirilməlidir.

Korrupsiya həm qeyri-əxlaqi həm qeyri-qanuni hadisədir. Qanunvericilik, icra və məhkəmə gücü dövlət hakimiyyətinin 3 qoludur. Mətbuat da demokratik və azad olaraq 4-cü bir güc funksiyasını yerinə yetirir.

Hazırki cəmiyyətlərdə əsas problemlər arasında, korlanma və rüşvət əməlləri ilk sıralarda yer alır. Rüşvət faktları, xüsusilə az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qorxuducu həddlərə çatarkən, ölkələrin iqtisadi və ictimai həyatlarında, kompensasiyası mümkün olmayan nəticələr ortaya çıxarmışdır.

Korrupsiya hadisəsi daha çox dövlət təşkilatlarında görülməkdədir. Dövlətin fəaliyyət sahəsinə girən hadisə dövlətin verdiyi xidmətlər, korrupsiya əməllərinə gətirib çıxarmaqda, onun meydana çıxmasına münbit şərait yaratmaqdadır. Buna görə də dövlət öz içində, korrupsiyaya və qanunsuzluqlara qarşı bir yoxlama sistemi və bu sistemdən irəli gələn qanunlar qəbul etmişdir. Bu qanunlar ictimai nəzarət sistemində insanları vəzifələri ilə bağlı əllərində olduqları səlahiyyətlərdən və etmiş olduqları hərəkətlərdən ötəri ortaya çıxan qanunsuzluqların qarşısını almaq və zəruri tədbirləri əvvəlcədən görməklə dövlət xidmətlərinin yerinə yetirilməsi əsasında sistemin düzgün və şəffaf fəaliyyətinin nəzarət etmək məqsədiylə meydana çıxmışlar. İctimai təşkilatlarda korrupsiyaya şərati yaradacaq hər hansı əməl təsirsiz hala gətirilməli, nəzarət mexanizmləri gücləndirilməli, təşkilatların strukturu sağlam, şəffaf bir şəkildə üst səviyyəyə gətirilməlidir. Korrupsiya ilə mübarizə ictimaiyyət dəstəyindən məhrum olaraq aparıla bilməz. İctimaiyyət dəstəyi də şüurlu bir media və təsirli qeyri-hökumət təşkilatları vasitəsilə həyata keçirilə bilər. Həmçinin korrupsiyaya artıq ölkələrin daxili problemləri olmaqdan çıxaraq qlobal bir problemə çevrildiyindən bütün ölkələrin beynəlxalq sahədə ortaq həll axtarmaları və əməkdaşlıq etmələri bir zərurət halını almışdır. Burada da 10 qonşu və qardaş ölkə ilə bu problemi müzakirə edirik və həll yollarını axtarırıq. Nəticə olaraq bu deyilə bilər: Korrupsiyaya qarşı dövlət təşkilatlanmasının yanında güclü bir vətəndaş birliyi, möhkəm bir hüquqi quruluş, əməkdaşlığa və səmimiyyətə söykənən beynəlxalq bir təşkilatlanma şərtdir. Mübarizə artıq bir bütün olaraq düşünülməlidir.

Diqqətinizə görə minnətdaram!

**Cənab İslamcan ERQAŞXOCAYEV**
**Özbəkistan Respublikasının**
**Baş prokurorunun müavini**




Salam, hörmətli həmkarlar,
xanımlar və cənablar!

İcazə verin, Özbəkistan Respublikasının Baş Prokurorluğunun rəhbərliyinin adından və şəxsən Baş prokurorun tapşırığına uyğun olaraq bugünke tədbirin təşkilatçılarını və bütün iştirakçılarını salamlayım.

İqtisadi Əməkdaşlıq Təşkilatına bu tədbirdə iştirakla əlaqədar dəvətə görə minnətdarlığımızı bildirmək istərdim. Azərbaycan tərəfinə-Azərbaycan Respublikasının Baş Prokurorluğuna bizi bu qonaqpərvər ölkədə qəbul etdiyinə görə xüsusi minnətdarlıq düşür.

Reqlamenti nəzərə alaraq, öz çıxışımda Özbəkistanda beynəlxalq təşkilatlarla əməkdaşlıqda həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirlərinə qısaca olaraq toxunmaq istərdim.

Qeyd olunan sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində əsas amil qismində Özbəkistan Respublikasının 2008-ci ilin iyul ayında BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasına, 2010-cu ildə isə İƏİT-nin Korrupsiyaya qarşı mübarizəyə dair şəbəkəsinin İstanbul Fəaliyyət Planına qoşulması çıxış etmişdir.

İƏİT-in Katibliyi tərəfindən qeyd olunmuşdur ki, 2011-2015-ci illərdə Özbəkistan tərəfindən nəzərəçarpan irəliləyiş əldə edilmişdir. Antikorrupsiya islahatlarının bəzi istiqamətləri üzrə görülmüş işlər İstanbul Fəaliyyət Planının digər iştirakçıları üçün nümunə ola bilər.

Son illər ərzində Özbəkistan Transparency İnternational təşkilatının korrupsiyanın qarvranması indeksi reytinqində 19 pillə irəliləmişdir.

Qeyd olunmalıdır ki, 2015-ci ildə Özbəkistan “Basel anti-money laundering index” reytinqində Mərkəzi Asiya ölkələri üzrə ən yüksək göstəriciyə layiq görülmüşdür.

ATƏT, BMT-nin Narkotiklər və cinayətkarlıqla mübarizə İdarəsi, İƏİT, Dünya Bankı və digər təşkilatların nümayəndələrinin tövsiyələri nəzərə alınmaqla 2015-2016-cı illərdə antikorrupsiya tədbirlərinə dair praktiki addımların kompleks planları hazırlanmışdır.

Atılan addımların məntiqi davamı olaraq 5 oktyabr 2016-cı il tarixdə Prezident tərəfindən “Sahibkarlıq fəaliyyətinin sürətli inkişafının daha da sürətləndirilməsi üzrə əlavə tədbirlərə dair” Fərman imzalanmışdır.

4 yanvar 2017-ci il tarixdə “Korrupsiya ilə mübarizə haqqında” Qanun və həmin Qanunun “icrasına dair tədbirlər barədə” Prezident fərmanı imzalanmışdır.

50-dən artıq tədbirlərin icrasını nəzərdə tutan Korrupsiya ilə mübarizəyə dair Dövlət proqramı qəbul edilmişdir.

60 nazirlik və idarələrdə idarədaxili antikorrupsiya planları hazırlanıb təsdiq olunmuşdur.

Dövlət orqanlarının antikorrupsiya tədbirlərinin səmərəliyinin qiymətləndirilməsinin Metodikası təsdiq olunmuşdur.

2017-ci ilin fevral ayında Özbəkistan Respublikasının 2017-2021-ci illərə dair inkişaf Strategiyası qəbul edilmişdir.

Strategiyanın əsasını Prezident Şəvkət Mirziyəyevin ölkənin siyasi, iqtisadi mədəni, humanitar və sosial sahələrdə inkişafına dair səsləndirdiyi fikirlər təşkil etmişlər.

Dövlət proqramına daxil edilmiş tədbirlərin icrasına 37.7 trilyon sum və 8.3 mlrd ABŞ dolların xərclənəcəyi nəzərdə tutulmuşdur.

Cinayətkarlıqla mübarizə tədbirlərinin həyata keçirilməsi nəticəsində 2016-cı ildə korrupsiya cinayətləri ilə əlaqədar vəzifəli şəxslərə qarşı başlanılmış cinayət işlərinin sayı 2015-ci illə müqayisədə üçdə bir qədər və yaxud 28 **%** azalmışdır.

“Hüquq pozuntularının qarşısının alınması” barədə Qanun Baş Prokurorluğun üzərinə dövlət orqanlarının hüquq pozuntularının qarşısının alınmasındakı fəaliyyəti sahəsində əlaqələndirici funksiyasını müəyyən etmişdir.

Baş prokurorun rəhbərliyi altında korrupsiya ilə mübarizəyə dair Respublika idarələrarası komissiyası yaradılmışdır.

Ədliyyə Nazirliyi tərəfindən normativ-hüquqi aktların antikorrupsiya ekspertizasının metodikası təsdiq olunmuşdur.

2016-cı ildə prokurorluq və ədliyyə orqanları tərəfindən korrupsiyanın qarşısının alınmasına dair beş mindən artıq tədbir keçirilmişdir.

Milli Teleradiokampaniya Baş Prokurorluq və ATƏT-lə birgə ali təhsil və dövlət qulluğu sahələrində korrupsiyanın qarşısının alınmasına yönəlmiş sosial çarxlar hazırlayaraq bütün televiziya kanallarında nümayış etdirmişdir.

Vətəndaş cəmiyyəti institutları ilə korrupsiya ilə mübarizə sahəsində birgə tədbirlərə dair Memorandumlar imzalanır.

Normativ-hüquqi aktlar Özbəkistan Respublikasının qanunvericiliyinə dair məlumat bazası sayılan lex.uz saytında yerləşdirilir.

İƏİT-in tələblərinin nəzərə alınaraq Cinayət və Cinayət-prosessual Məcəllələrin qəbul edilməsi, “Məhkəmələr haqqında”, “Prokurorluq haqqında”, “Daxili işlər orqanları barədə” və bir sıra digər əsas qanunların qəbul edilməsi korrupsiya ilə mübarizədə vacib əhəmiyyətə malik olmuşdur.

Məhkəmələr onların səlahiyyətlərinə aid olmayan funksiyalardan-məhkəmə qərarlarının icrası və cinayət işlərinin başlanılması vəzifələrinin icrasından azad olunmuşlar. Ədalət mühakiməsinin müstəqilliyinin hüquqi və sosial təminatları gücləndirilmişdir.

Mülki, cinayət, inzibati və iqtisadi icraat sahələrində ali məhkəmə orqanı yaradılmış, inzibati məhkəmələr, həmçinin elektron məhkəmə sistemi fəaliyyətə başlamışdır.

2017-ci ildən hakimlərin birinci-beş illik, növbəti-10 illik müddətə vəzifələrə təyin olunması və sonradan ömürlük vəzifədə qalmasına dair qayda müəyyən olunmuşdur.

Qeyd olunan sahədə vacib hadisə kimi daxili işlər orqanlarının vəzifələri, fəaliyyətinin istiqamətləri və prinsiplərini müəyyən edən “Əməliyyat-axtarış fəaliyyəti haqqında” və “Daxili işlər orqanları” barədə Qanunların qəbul edilməsi olmuşdur.

Baş Prokurorluq və digər orqanların strukturlarında korrupsiya ilə mübarizəyə dair ixtisaslaşdırılmış orqanlar, həmçinin daxili təhlükəsizlik bölmələri yaradılmışdır.

Korrupsiya ilə mübarizədə vacib mexanizm kimi Baş Prokurorluğun nəzdində vergi, valyuta cinayətləri və cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə departamentinin yaradılması olmuşdur.

Avrasiya qrupunun fəaliyyəti çərçivəsində Özbəkistana çirkli pulların yuyulması və terroçuluğun maliyyələşdirilməsi sahəsində texniki yardım göstərilir, müvafiq məsləhətləşmələr aparılır və ixtisaslı kadrların hazırlanması prosesinə dəstək verilir.

2015-2016-cı illərdə korrupsiya cinayətlərinin törədilməsi nəticəsində vurulmuş ziyanın təxminən 90**%**-i aradan qaldırılmışdır.

2015-ci ildə Baş Prokurorluqda 1007-telefon yardım xətti fəaliyyətə başlamış, nəticədə gün ərzində vətəndaşların müraciətlərinin qəbul edilməsi mümkün olmuşdur.

Dövlət qulluqçuları aşkar olunmuş korrupsiya cinayətləri ilə əlaqədar müraciətlərə baxılması nəticəsində məsuliyyətə cəlb olunurlar.

ATƏT, BMT və digər təşkilatların texniki dəstəyi sahəsində “elektron hökumət” sisteminin tətbiqinə dair genişmiqyaslı işlər həyata keçirilir.

Bu məsələ ilə əlaqədar ikinci sessiya çərçivəsində cənab U.Muxammadiyev daha geniş məlumat verəcəkdir.

2015-2016-cı illərdə təhsil, səhiyyə, torpaqdan istifadə və dövlət satınalmaları sahələrində korrupsiya risklərinin analizi həyata keçirilmişdir.

2016-cı ildə Hökumət tərəfindən dövlət qulluqçularının Nümunəvi davranış qaydaları

təsdiq olunmuşdur. Bütün orqanlar tərəfindən əməkdaşların idarədaxili Davranış qaydaları hazırlanaraq qəbul edilmişdir. Etik məsələlərə dair müəssisədaxili komissiyalar yaradılmışdır.

Baş Prokurorluq tərəfindən etik davranış qaydalarının monitorinqi və analizi həyata keçirilir.

Dövlət qulluqçuları, müəllimlər və təhsil müəssisələrinin administrasiya əməkdaşları arasında korrupsiya hallarının qarşısının alınması ilə əlaqədar xüsusi kurslar tədris edilir.

Beynəlxalq standartlar və qabaqcıl təcrübələr sahələrində elmi dairələrin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakları ilə təlim kursları təşkil edilir.

İnteraktiv dövlət xidmətlərinin Vahid portalında 2015-ci ildən etibarən normativ aktların layihələrinin və onların biznesə təsirinin müzakirəsinə dair sistem fəaliyyətə başlamış və bü günə qədər 1200-dən artıq normativ aktların layihələri müzakirə edilmişdir.

Özbəkistan ekspertləri İsrail, İndoneziya və Qazaxıstan tərəfindən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının icra edilməsinə dair monitorinqində fəal iştirak etmişlər.

Biz beynəlxalq ictimaiyyətin Özbəkistanda korrupsiya ilə mübarizə üzrə milli sisteminin formalaşması və inkişafı məsələlərinə ayırdığı diqqəti yüksək qiymətlənidiririk.

Özbəkistan Respublikasının korrupsiya ilə mübarizə sahəsində mövcud olan milli sistemi mütəmadi olaraq təkmilləşir, onun fəaliyyəti beynəlxaq hüququn prinsiplərinə əsaslanır.

Yekunda öz əminliyimi bildirmək istərdim ki, ECO və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq bundan sonra da dinamik və konstruktiv şəkildə inkişaf edəcək.

Diqqətinizə görə minnətdaram!

**Cənab Asan KANGELDİYEV**
**Qırğızıstan Respublikasının**
**Bişkək şəhər prokurorunun müavini,**




Hörmətli müşavirə iştirakçıları,

İcazə verin, bu tədbirin ən yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığımı bildirim.

Korrupsiyanın qarşısının alınması, ölkədən çıxarılmış cinayət yolu ilə əldə edilmiş vəsaitlərin (aktivlərin) geri qaytarılması sahəsində beynəlxalq əməkdaşlığın formalarını müəyyən edən BMT-nin Korrupsiyaya qarşı Konvensiyası Qırğızıstan Respublikasının Mərkəzi milli orqanı tərəfindən 6 avqust 2005-ci il tarixli Qanunla ratifikasiya olunmuş, Konvensiyanın icrasına məsul orqan kimi Baş Prokurorluq müəyyən edilmişdir.

Bundan əlavə, Qırğızıstan Respublikası İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Şərqi Avropa və Mərkəzi Asiya ölkələri şəbəkəsi tərəfindən icra edilən İstanbul Fəaliyyət Planının iştirakçısıdır.

2011-ci ildə Baş Prokurorluq İƏİT ilə qarşılıqlı əlaqələr üzrə Milli koordinator təyin edilmiş, 2012-ci ilin yanvar ayında Qırğızıstan Respublikası tərəfindən korrupsiyaya qarşı mabarizəyə dair İstranbul Fəaliyyət Planının icrasına dair 2-ci monitorinq raundu keçirilmişdir.

2015-ci ilin yanvar ayında Baş Prokurorluq tərəfindən İstanbul Fəaliyyət Planının icrasına dair 3-cü monitorinq raundu keçirildi. Həmin raundun nəticələri əsasında İƏİT-nin plenar iclasında 3-cü monitorinq raunduna dair 16 yeni tövsiyə müəyyən olundu, əvvəlki 9 tövsiyə isə qüvvədə qaldı. Beləliklə, Qırğızıstan Respublikasına ümumilikdə 25 tövsiyə təqdim olunmuşdur.

Parisdə keçirilən iclas və hesabatın müzakirəsi nəticələri üzrə Qırğızıstan Respublikası beynəlxalq ekspertlər tərəfindən yüksək qiymət almışdır.

Qırğızıstan Respublikası iclasda Baş Prokurorluq, Müdafiə Şurası, Antikorrupsiya xidməti və İqtisadiyyat Nazirliyinin nümayəndələri ilə təmsil olunmuşdur.

İƏİT ilə qarşılıqlı əməkdaşlıq məsələlərində Milli koordinator olan Baş Prokurorluq ölkənin beynəlxalq öhdəliklərini icra edərək Təşkilatın plenar iclaslarında mütəmadi iştirak edir və İƏİT-in tövsiyələrinin icrasına dair hesabatları təqdim edir.

Belə ki, Təşkilatın ötən ilin oktyabr ayında Paris şəhərində keçirilmiş 16-cı Plenar iclasında Qırğızıstan Respublikasının İƏİT-nin tövsiyələrinin icrasına dair 3-cü monitorinq raundunun aralıq hesabatı təqdim edilmiş, nəticədə 25 tövsiyədən 15-i üzrə irəliləyiş qeydə alınımşdır. Xüsusi olaraq qeyd edilməlidir ki, vətəndaş cəmiyyəti institutlarının da cəlb olunduğu antikorrupsiya platformalarının keçirilməsi, bir sıra qanunvericilik aktlarına, o cümlədən əmlakın əldə edilməsi zamanı xərclərin məcburi bəyan edilməsinə, cinayət yolu ilə əldə edilmiş vəsaitin leqallaşdırılmasında və korrupsiya cinayətlərində iştirakı olan hüquqi şəxsin məsuliyyətinin müəyyən edilməsi, dövlət satınalmaları zamanı elektron tenderlərin keçirilməsi və s. məsələlərə dair aktlara əlavə və dəyişikliklərin edilməsi ekspertlər tərəfindən müsbət qiymətləndirilmişdir.

İƏİT-in tövsiyələrinə uyğun olaraq, Qırğızıstan Respublikasında qüvvədə olan normativ aktların və qanun layihələrinin yeni antikorrupsiya ekspertizası prosedurları tətbiq edilir, layihəyə əsasən prokurlruq orqanları bu işə məsul orqan hesab edilir.

İstanbul Fəaliyyət Planının icrasının nəticələrinin İƏİT-in simasında beynəlxalq ictimaiyyət tərəfindən qiymətləndiriləcəyini nəzərə alaraq, hesab edirik ki, bütün dövlət orqanları bu istiqamətdə, xüsusilə də hələ icrasında irəliləyiş qeydə alınmayan tövsiyələrin icrası sahəsində fəaliyyətlərini fəallaşdırmalıdırlar.

GRECO:

Baş Prokurorluq Avropa Şurası və Bişkek şəhərində yerləşən ATƏT-nin Mərkəzi Ofisi ilə qarşılıqlı əlməkdaşlıqda fəaliyyətini davam etdirir.

Avropa Şurasının dəvəti ilə Baş Prokurorluğun nümayəndələri cari il ərzində iki dəfə Avropa Şurasını ziyarət edərək Qırğızıstan Respublikasının GRECO-ya daxil olması mexanizminə dair müvafiq məsləhətləşmələr aparmışlar.

Avropa Şurası tərəfindən 4 fevral 2015-ci il tarixdə qəbul olunmuş "2015-2017-ci illər üçün Qırğızıstan Respublikasının qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın prioritetləri" adlanan konseptual sənəddə geniş spektrli məsələlər üzrə, o cümlədən respublikanın Avropa Şurasının konvensiyalarına, həmçinin cinayət törətmiş şəxslərin verilməsi və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımı məsələlərinə dair əsas istiqamətlər müəyyən edilmişdir.

Respublikanın Baş Prokurorluq və Ədliyyə Nazirliyinin nümayəndələri ötən ilin 18 iyun tarixində Strasburq şəhərində GRECO-nun 68-ci plenar iclası çərçivəsində Qırğızıstan Respublikasının Təşkilata üzv olmağa dair niyyətini ifadə etmişlər.

BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası:

BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası norma və müddəalarının implementasiyası üzrə mərkəzi orqan səlahiyyətlərini yerinə yetirən Baş Prokurorluq tərəfindən beynəlxalq əməkdaşlıq (cinayət törətmiş şəxslərin ekstradisiyası, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın göstərilməsi) sahələrində kompleks tədbirlər həyata keçirilir.

Qırğızıstan Respublikası tərəfindən BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının yuxarıda qeyd olunmuş fəsillərinin icrası vəziyyəti Pakistan və İndoneziya hökumətlərini təmsil edən ekspertlər tərəfindən BMT-nin Narkotiklərə və cinayətkarlığa qarşı mübarizə idarəsinin beynəlxalq ekspertləri tərəfindən yoxlanılmışdır.

Hörmətli iclas iştirakçıları, çıxışımın sonunda qeyd etmək istərdim ki, korrupsiyanın qlobal miqyasda yayılmasını nəzərə alaraq, qüvvədə olan müqavilələr əsasında korrupsiyaya qarşı beynəlxalq müstəvidə mübarizəni gücləndirmək lazımdır. Axı bizim hamımızı vahid məqsəd-ölkələrimizdə mövcud olan korrupsiyanın səviyyəsinin aşağı salınması və onun əsl səbəblərini aradan qaldırılması məqsədi birləşdirir.

Diqqətinizə görə minnətdaram.

**Cənab Qurbanverdi Baysahedov**
**Türkmənistan Baş Prokurorluğunun şöbə rəisi**




Hörmətli tədbir iştirakçıları,

Bu regional görüşdə iştirak edən Türkmənistan nümayəndə heyətinin adından günəşli və qonaqpərvər Azərbaycana səfər etmək və bu nüfuzlu toplantıda iştirak etməyə bizi dəvət etdiyiniz üçün səmimi minnətdarlığımı ifadə etmək istərdim. Türkmənistan üçün Azərbaycan yalnız dənizlə ayrılan ən yaxın qonşudur və xalq deyimində də deyildiyi kimi yaxşı qonşu doğma qardaşdan yaxındır. Odur ki, biz – Türkmənistan və Azərbaycan xalqları qardaş xalqlar hesab edilirik.

Ümid edirəm ki, bizim toplantımız məhsuldar olacaqdır və hər bir belə görüşlə biz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdə korrupsiya və digər cinayətlərə qarşı mübarizəyə əsaslı töhfə verəcəyik.

Cinayətkarlıqla, o cümlədən korrupsiya cinayətləri, cinayət yolu ilə əldə edilmiş gəlirlərin yuyulması və ölkəmizin nüfuzuna xələl gətirən, dövlətin iqtisadiyyatına, Türkmən xalqının maraqlarına zərbə vuran cinayətlərlə mübarizə dövlət vəzifələri sırasına daxil edilmişdir.

Qanunsuz gəlirlərin qarşısının alınmasına yönələn ilk qanunlardan biri "Cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması haqqında" 28 may 2009-cu il tarixli Türkmənistanın Qanunu olmuşdur. Bu qanunun qəbul edilməsi ilə bir sıra qanunqüvvəli normativ aktlar qəbul edilmiş, Türkmənistanın Cinayət və İnzibati Xətalar Məcəllələrinə əlavələr edilmişdir.

Dünya təcrübəsində cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasının maddi əsasını cinayətkar qrupların fəaliyyəti, korrupsiya, rüşvətxorluq, dələduzluq, narkotiklərin, silah və döyüş sursatlarının qanunsuz dövriyyəsi, insan oğurluğu və insan ticarəti, saxtalaşdırılmış məhsulların istehsalı və yayılması, saxta pul nişanlarının hazırlanması və yayılması, həmçinin təbii ehtiyatların qanunazidd istifadəsi və iqtisadiyyatın müxtəlif sahələrində digər qanunsuz fəaliyyət nəticəsində əldə edilmiş gəlirlər təşkil edir.

Müasir mərhələdə cinayət yolu ilə əldə edilən gəlirlərin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə şərait yaradan xarakterik şərtlərdən biri dövlət hakimiyyəti orqanlarında, o cümlədən hüquq-mühafizə orqanları və məhkəmə sistemində mövcud olan korrupsiya hallarıdır.

1 mart 2014-cü il tarixdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Türkmənistanın qanunu qəbul edilmişdir. Həmin qanuna əsasən, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması və onların törədilməsində təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsini təmin edən orqanlardan biri öz səlahiyyətləri hədlərində prokurorluq orqanlarıdır.

Bununla yanaşı, həmin qanunla Türkmənistanın Baş prokuroru və tabe prokurorların üzərinə korrupsiyaya qarşı mübarizədə daxili işlər, milli təhlükəsizlik, gömrük və digər hüquq-mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, həmçinin Türkmənistanın normativ hüquqi aktları ilə müəyyən edilən korrupsiyanın qarşısının alınması ilə bağlı digər funksiyalar qoyulmuşdur.

Həmçinin "Türkmənistan prokurorluğu haqqında" qanunun 26-cı maddəsinə əsasən dövlət idarəetmə orqanları, Silahlı Qüvvələr və digər qoşunların idarəetmə orqanları, yerli özünüidarəetmə orqanları, istehsal-təsərrüfat və kommersiya fəaliyyətinin iştirakçıları,

müəssisələr, təsisatlar, təşkilatlar, ictimai birliklər, vəzifəli şəxslər və vətəndaşlar tərəfindən qanunların icrasına nəzarət funksiyalarını prokurorluq həyata keçirir.

Bütün bu tələbləri nəzərə alaraq, Türkmənistan baş prokurorunun əmri ilə Korrupsiyaya qarşı mübarizə haqqında qanunların icrasına nəzarət idarəsi yaradılmış, idarənin əsasnaməsi qəbul edilmişdir. 2015-ci ildə fəaliyyətin səmərəliliyini artırmaq məqsədilə bu struktur vahid Ümumi nəzarət idarəsinin strukturuna daxil edilmişdir. Belə ki, ümumi nəzarət funksiyaları çərçivəsində korrupsiyaya qarşı qabaqlayıcı-profilaktik tədbirlər həyata keçirilir və inzibati, intizam icraatı və cinayət təqibi həyata keçirilir.

“Korrupsiyaya qarşı mübarizə haqqında qanun”un icra edilməsi məqsədilə 5 iyun 2014-cü il tarixdə Baş prokuror tərəfindən “Korrupsiyaya qarşı mübarizə haqqında qanunun icra edilməsinə prokuror nəzarətinin təşkili haqqında” əmr imzalanmış və icra edilməsi üçün bütün tabe prokurorlara göndərilmişdir.

Prokurorluq orqanlarının tədbirlər planına müvafiq olaraq prokurorluğun bütün səviyyələrdə təmsil olunan əməkdaşları tərəfindən müəssisə, təşkilat və təsisatların kollektivləri ilə mütəmadi olaraq korrupsiyaya qarşı mübarizə məsələləri ilə bağlı mühazirə və söhbətlər təşkil edilir.

Hər bir hesabat dövrünün nəticələrinə uyğun olaraq törədilmiş cinayət faktları ilə tanışlıq məqsədilə Baş prokurorluğun əməkdaşları tərəfindən dövlət hakimiyyət və idarəetmə orqanlarında mühazirələr keçirilir.

Bundan əlavə, prokurorluq əməkdaşları müəssisə, təşkilat və təsisatların kollektivlərinə qanunların, o cümlədən “Korrupsiyaya qarşı mübarizə haqqında qanun”un icra vəziyyətinə dair məruzələr edirlər. Bu da profilaktik tədbirlərin bir növüdür.

Korrupsiya ilə bağlı cinayətlər və hüquqpozmaların profilaktikası məqsədilə vəzifəli şəxslərə qanunların pozulmasının yolverilməzliyi barədə xəbərlıq edilir.

Yoxlamalar zamanı aşkar edilmiş pozuntular əsasında təqsirli şəxslər inzibati və intizam məsuliyyətinə cəlb edilirlər. Həmçinin ümumi nəzarət funksiyası çərçivəsində baş vermiş cinayət faktları və təqsirli şəxslər barəsində Türkmənistan Cinayət Məcəlləsinin 181, 184, 185, 187-ci maddələri və 229-cu maddənin 2-ci hissəsinin “v” bəndi ilə cinayət işləri başlanılır.

“Korrupsiyaya qarşı mübarizə haqqında” qanunun tətbiqi istiqamətində ilk addımlardan biri İnzibati Xətalar Məcəlləsinə qanunsuz olaraq əmlakın və ya əmlak xarakterli mənfəətin əldə edilməsinə görə dövlət orqanlarının vəzifəli şəxsləri tərəfindən vətəndaşların əmlakının qanunsuz müsadirəsi üçün cərimə növündə cəza nəzərdə tutan müddəaların, həmçinin dövlət qulluqçuları və onlara bərabər şəxslər tərəfindən özü və ya üçüncü şəxslər üçün pul, dəyərli əşya, digər əmlak və ya əmlak xarakterli xidmətlərin, hüquqların əldə edilməsi məqsədilə vəzifə səlahiyyətlərindən və ya onunla bağlı imkanlardan istifadə edilməsi, qeyd edilən şəxslərin ələ alınması üçün digər fiziki şəxslər tərəfindən və ya hüquqi şəxslərin adından və ya onların mənafeləri üçün yuxarıda qeyd edilən hərəkətlərin edilməsinin cəzalandırılmasını nəzərdə tutan müddəaların daxil edilməsi olmuşdur.

26 mart 2016-cı il tarixdə “Dövlət qulluqçusunun etikası və qulluq davranışı haqqında” Türkmənistanın qanunu qəbul edilmiş, hansı ki, dövlət qulluqçusunun peşəkar fəaliyyəti və ictimai rəy nəzərə alınmaqla dövlət qulluqçusuna davranışına dair tələbləri müəyyən edir və dövlət qulluqçusunun nüfuzunun və vətəndaşların ona olan etimadının yüksəldilməsi və möhkəmləndirilməsinə yönəlmişdir.

Dövlət qulluqçusu ardıcıl olaraq Türkmənistan Prezidentinin siyasətini həyata keçirməli, öz davranışı ilə dövlət hakimiyyətinin nüfuzunu möhkəmləndirməlidir. Qeyd edilən qanuna əsasən dövlət qulluqçusu insan və vətəndaşın və hüquqi şəxslərin qanuni maraqlarını qorumalı və ona xidmət etməlidir.

Dövlət qulluqçusu dövlət və ictimai maraqlarına zidd olaraq öz şəxsi maraqlarının təmin edilməsinə yönəlmiş davranışı istisna etməli, dövlət qulluğu, xidməti və peşəkar etika ilə əlaqədar qanunla müəyyən edilmiş qadağa, məhdudiyyət və öhdəliklərə ciddi riayət etməli, digər dövlət qulluqçularını da buna təşviq etməlidir.

Qanunda dövlət qulluqçularına korrupsiya ilə mübarizədə mühüm rol ayrılmışdır. Dövlət qulluqçuları hər hansı formada dövlətə zərər vurulmasının qarşısını almaq üçün bütün

imkanlardan istifadə etməlidirlər. Digər dövlət qullqučularına münasibətdə təşkilati-sərəncam səlahiyyətlərinə malik dövlət qulluqçusuna xüsusi rol ayrılmışdır ki, o, peşəkarlıq, qüsursuz nüfuz nümunəsi olmalı, şəxsi davranışı ilə dürüstlük və ədalətlilik örnəyi nümayiş etdirməlidir. Cari qanun dövlət qulluqçusunun işdən kənar vaxtda davranışına dair də tələblər müəyyən edir. Belə ki, o, asudə vaxtlarında təvazökar və dürüst olmalı, öz qulluq mövqeyindən şəxsi məqsədlər üçün istifadə etməməlidir.

Dövlət qulluqçuları tərəfindən "Dövlət qulluqçusunun etikası və qulluq davranışı haqqında" Türkmənistanın qanununun pozulması işçi kollektivlərində mənəvi qınağa, qanunla nəzərdə tutulmuş hallarda isə müvafiq məsuliyyətə səbəb olur.

"Dövlət qulluqçusunun etikası və qulluq davranışı haqqında" qanunun qəbulu ilə eyni vaxtda "Dövlət qulluğu haqqında" qanun qəbul edilmişdir. Həmin qanuna müvafiq olaraq Türkmənistanın korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyinin tələblərinə riayət edilməsi dövlət qulluqçusunun vəzifəsidir. Nazirliklərin və digər mərkəzi icra hakimiyyəti orqanlarının Kadrlar idarələrinin üzərinə bu sahədə Türkmənistanın qanunvericiliyinə, eləcə də dövlət qulluğunda olmaqla əlaqədar tələb, məhdudiyyət və qadağalara riayət edilməsinə nəzarət edilməsi qoyulmuşdur. "Korrupsiyaya qarşı mübarizə haqqında" Türkmənistanın qanunu ilə nəzərdə tutulan bütün tələb, məhdudiyyət və qadağalara riayət edilməsi dövlət qulluqçusuna şamil edilir.

Türkmənistan Konstitusiyasına əsasən Türkmənistanda cəmiyyətin və dövlətin ən ali dəyəri insandır.

İnsanın müdafiəsi, dəstəklənməsi və ona xidmət edilməsi dövlət hakimiyyəti orqanlarının əsas vəzifəsidir.

23 noyabr 2016-cı il tarixdə "Ombudsman haqqında" Türkmənistanın qanunu qəbul edilmiş və 1 yanvar 2017-ci il tarixdən qüvvəyə minmişdir.

Türkmənistanda insan hüquqları üzrə müvəkkil olan Ombudsman vəzifəsi Türkmənistanın Konstitusiyasına əsasən insan və vətəndaşın hüquq və azadlıqlarının dövlət müdafiəsinin, onlara dövlət hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və vəzifəli şəxslər tərəfindən hörmət və riayət edilməsinin təminatı məqsədilə təsis edilmişdir.

Ombudsman öz fəaliyyəti ilə Türkmənistan Konstitusiyası və digər normativ hüquqi aktlara əsasən insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmadan insan və vətəndaşın hüquq və azadlıqlarının dövlət müdafiəsinin mövcud vasitələrini tamamlayır.

Qanun olduğu yerdən asılı olmayaraq Türkmənistan vətəndaşı, Türkmənistan ərazisində olan xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxslərlə dövlət hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları və onların vəzifəli şəxsləri arasında insan və vətəndaş hüquq və azadlıqlarının reallaşdırılması zamanı ortaya çıxan münasibətləri tənzim edir.

Ombudsman Türkmənistan Prezidenti tərəfindən təqdim edilən üç namizədin sırasından müəyyən edilmiş deputatların sadə səs çoxluğunun gizli səsverməsi ilə beş il müddətinə Türkmənistan Məclisi tərəfindən seçilir. Eyni bir şəxs həmin vəzifəyə ardıcıl olaraq iki dəfədən artıq seçilə bilməz.

Türkmənistan Məclisinin 20 mart 2017-ci il tarixli qərarı ilə gizli səsvermənin nəticəsində Yazdursun Qurbannəzərova Türkmənistanda insan hüquqları üzrə müvəkkil – Ombudsman seçilmişdir.

Ombudsman öz səlahiyyətlərinin icrasında müstəqildir və hər hansı dövlət orqanı və ya vəzifəli şəxsə tabe deyildir, pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının bərpası sahəsində geniş səlahiyyətlərə malik olmaqla korrupsiyaya qarşı mübarizədə mühüm rol oynayır.

İnsan və vətəndaş hüquq və azadlıqlarının pozulması faktının müəyyən edilməsi zamanı Ombudsman hərəkət və ya hərəkətsizliyi ilə insan hüquq və azadlıqlarını pozan təsisat, müəssisə, təşkilat və ya vəzifəli şəxslərə pozulmuş insan hüquq və azadlıqlarının təxirəsalınmadan bərpası üçün zəruri olan tədbirləri, insan hüquq və azadlıqlarını pozan vəzifəli şəxs barəsində isə müvafiq səlahiyyətli dövlət orqanı və ya vəzifəli şəxsə intizam və inzibati icraat və ya cinayət işi başlamağı nəzərdə tutan öz tövsiyəsini göndərir.

**Cənab Vahidullah ZAHİD**
**Əfqanıstan İslam Respublikasının**
**Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin**
**əməkdaşı**




Xanımlar və cənablar,
Hörmətli həmkarlar,

Məlumat üçün bildirmək istəyirəm ki, Əfqanıstan İslam Respublikasının Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Konstitusiyanın 6, 7, 50, 75, 142 və 154-cü maddələrinə əsasən 2008-ci ilin iyul ayında yaradılmış-dır.

Baş İdarənin 390 əməkdaşı vardır və əsas funskiyalarına dövlət orqanlarında korrupsiyanın qarşısının alınması və korrupsiyaya qarşı mübarizə tədbirlərinin qəbul edilməsi, dövlət qurumlarında korrupsiyaya qarşı mübarizə üzrə qəbul edilmiş tədbirlər planının icrasına nəzarəti həyata keçirməsi və qiymətləndirməsi, şəffaflığının təmin edilməsi, dövlət və xüsusi əmlakın mühafizəsi, qorunması və s. daxildir.

Korrupsiya cinayətlərinin istintaqını aparmaq Baş Prokurorluğa, cinayətlər barədə hökm qəbul etmək isə məhkəmələrin səlahiyyələrinə daxildir.

İndiyədək korrupsiya ilə əlaqədar 544 material aidiyyati orqanlara göndərilmişdir.

Baş İdarənin Tədqiqatlar İdarəsinin əsas funksiyaları dövlət qurumlarının fəaliyyətinə nəzarəti həyata keçirmək, müvafiq korrupsiya hallarını araşdırmaq və toplanmış materialları Baş prokurorluğa və digər səlahiyyətli orqanlara təqdim etməkdən ibarətdir. Bu idarə həmçinin, Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı Konvensiyası (UNCAC) ilə bağlı Əfqanıstan qanunlarını təhlil edir və bununla əlaqədar boşluqları müəyyən edir.

Aktivlərin qeydiyyatı və təsdiqlənməsi idarəsi isə dövlət orqanlarında işləyən vəzifəli şəxslərinin aktivlərini qeydiyyata alır, yoxlayır və təsdiq edir.

Bu vəzifəli şəxslər üç kateqoriyaya ayrılır:

- Konstitusiyanın 154-cü maddəsinə əsasən: Prezident, vitse-prezidentlər, nazirlər, Ali Məhkəmənin və Baş prokurorluğun əməkdaşları (vəzifəyə başlamazdan və vəzifəni təhvil verdikdən sonra)
- Korrupsiyaya qarşı mübarizə strategiyasının həyata keçirilməsinə dair Qanunun 12-ci maddəsinə əsasən: 2-ci və daha yüksək kateqoriyaya aid vəzifəli şəxslər (vəzifəyə başlamazdan əvvəl və hər il olmaq şərti ilə). Bu kateqoriyaya Milli Məclis üzvləri, nazirlərin müavinləri, qubernatorlar, səfirlər, əyalət şuralarının üzvləri, hakimlərin, prokurorların və silahlı qüvvələrin generalları aiddir.
- Qanunun 12-ci maddəsinə əsasən: maliyyə, satınalma və mühasibat sahələrində işləyən vəzifəli şəxslər (vəzifəyə başlamazdan əvvəl və hər il olmaq şərti ilə)

Həmçinin qeyd edilməlidir ki, Baş İdarə Aktivlərin Elektron Bəyannaməsi Proqramı üzərində işləyir.

Baş İdarədə şikayətlər birbaşa, telefon, şikayət qutuları, E-poçt vasitəsi ilə qəbul edilir. 2009-cu ildən bəri Baş İdarədə 4685 şikayət qəbul edilmişdir.

İctimai maarifləndirmə idarəsinin əsas funksiyalarına isə korrupsiya və onun mənfi təsirlərinə dair məlumatlılığı artırmaq, Baş İdarənin fəaliyyəti və uğurları barədə ictimaiyyəti və KİV-i məlumatlandırmaq, korrupsiyaya qarşı mübarizədə ictimai, təhsil, dini və qeyri-hökumət təşkilatlarının dəstəyə və əməkdaşlığa cəlb etmək daxildir.

2016-cı ilin əsas uğurları 2688 nəfərin iştirakı ilə 61 korrupsiyaya qarşı mübarizə proqramının, məscidlərdə (paytaxt və əyaətlərdə) 120 maarifləndirmə proqramlarının həyata

keçirilməsi, 20 dövlət qurumuna 1850 korrupsiyaya qarşı mübarizə haqqında məlumatlandırma broşuraları paylanması, rabitə şirkətləri vasitəsilə 100000 mesaj göndərilməsi olmuşdur.

Baş İdarənin fəaliyyəti rəsmi internet səhifəsi vasitəsi ilə ictimaiyyətə daim açıqlanılır.

Bunlara baxmayaraq, korrupsiyaya qarşı mübarizədə əhəmiyyətli çətinliklər qalmaqda davam edir. Belə ki, korrupsiya ilə mübarizəyə dair lazımi qanunların və digər hüquqi sənədlərin olmaması, bəzi dövlət orqanları ilə zəif əməkdaşlığın olması, bu baxımdan məsul dövlət qurumları arasında zəruri və qənaətbəxş koordinasiyaların olmaması, əməkdaşlar arasında fərqli əmək haqlarının və imtiyazların olması, vətəndaş cəmiyyəti və kütləvi informasiya vasitələri ilə zəif əməkdaşlığın olması, təşkilati, struktur, səlahiyyətlərə və vəzifələrə dair ciddi problemlər, yoxsulluq, işsizlik, savadsızlıq, köhnə ənənələr və mədəni faktorlar və s. kimi problemlərin mövcudluğu korrupsiyaya qarşı mübarizənin lazımi səviyyədə həyata keçirilməsinə maneçilik yaradır.

Göstərilən problemləri aradan qaldırmaq üçün Baş İdarə gələcəkdə zəruri hüquqi sənədlər qəbul edərək, dəyişikliklər və islahatlar həyata keçirəcəkdir.

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ BEYNƏLXALQVƏ REGİONAL ƏMƏKDAŞLIQ MEXANİZMLƏRİ

**Sədrlik edir: İran İslam Respublikasının Dövlət Baş Müfəttişliyinin sədri cənab Naser Serac**



**Cənab Kamal CƏFƏROV**
**Azərbaycan Respublikasının**
**Korrupsiyaya qarşı Mübarizə üzrə**
**Komissiyasının katibi**




Hörmətli xanımlar və

cənablar, hörmətli tədbir iştirakçıları,

Bugünkü qlobal xarakter alması ilə dövrümüzün ən aktual məsələlərindən birinə çevrilən korrupsiya onunla mübarizədə beynəlxalq əməkdaşlığı zəruri edir. Bu günki tədbirin mövzusu çox mühüm məsələləri əhatə edir və korrupsiyaya qarşı mübarizəni həyata keçirən qurumlar və şəxslər üçün çox aktualdır.

Azərbaycan Respublikası da korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşəbbüslərdə aktiv iştirak etmiş və beynəlxalq standartların və yaxşı təcrübələrin tətbiqini diqqətdə saxlamışdır. Xüsusilə son 10 il ərzində sistemli olaraq həyata keçirilmiş antikorrupsiya siyasəti bu sahədə əhəmiyyətli dönüş yaratmış və təcrübədə özünü doğrultmuşdur. Bu dövrü ümumi olaraq dörd mərhələyə bölmək mümkündür.

Birinci mərhələ 2004-2007-ci illər əhatə edir. Bu müddətdə korrupsiyaya qarşı mübarizə sahəsində zəruri qanunvericilik bazası formalaşdırılmış, Korrupsiyaya qarşı mübarizə haqqında, İnformasiya əldə etmək haqqında, etik davranış kodeksləri və sair əhəmiyyətli qanunlar qəbul edilmişdir. İlk dəfə olaraq bu sahədə əhəmiyyətli sənəd olan “Korrupsiyaya qarşı mübarizə üzrə 2004-2006-cı illər üçün Dövlət Proqramı” qəbul edilmişdir. Bu proqram korrupsiyaya qarşı mübarizəyə kompleks yanaşmanı təmin etmiş və sahələr üzrə vəzifələr müəyyən etmişdir. Dövlət Proqramına uyğun olaraq məhkəmələrin fəaliyyətinin müasirləşdirilməsi üçün Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri genişləndirilmiş, hakimlərin toxunulmazlığına və səlahiyyət müddətlərinə yenidən baxılmış, hakim vəzifələrinə namizədlərin seçilməsi üçün Hakimlərin Seçki Komitəsi yaradılmış, hakimliyə namizədlərin beynəlxalq təcrübəyə uyğun xüsusi proqram üzrə uzunmüddətli təlim keçməsi təşkil olunmuşdur.

Bu dövrdə həmçinin insitusional islahatlar həyata keçirilmiş korrupsiyaya qarşı mübarizə sahəsində 2 əsas ixtisaslaşmış qurum Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə İdarəsi yaradılmışdır. Azərbaycan korrupsiyaya qarşı mübarizə ilə bağlı Avropa Şurasının və BMT-nin müvafiq konvensiyalarına qoşulmuş, o cümlədən OECD təşkilatının Anti-korrupsiya Şəbəkəsinə və Avropa Şurasının GRECO qrupuna üzv olmuşdur. Bu mərhələdə tədbirlərin icrası Azərbaycanda korrupsiyaya qarşı mübarizə üzrə sistemli, qarşılıqlı fəaliyyətdə olan və bir-birini tamamlayan mexanizmlərin yaradılması ilə nəticələnmişdir.

2007-2011-ci illərə əhatə edən korrupsiyaya qarşı mübarizənin ikinci mərhələsində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması prioritet istiqamət kimi müəyyən edilmişdir. Bu dövrdə tədbirlərin həyata keçirilməsinə hüquqi zəmin yaradan Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilən “Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli strategiya xüsusi əhəmiyyət daşıyır. Milli Strategiyanın icrası müddətində dövlət orqanlarında şəffaflıq təmin edilmiş, korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşmış qurumların fəaliyyəti gücləndirilmiş, müxtəlif sahələri əhatə edən kompleks islahatlar aparılmış, vətəndaş cəmiyyətinin üzvləri ilə səmərəli əlaqələr qurulmuş və geniş maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya qeyri-hökumət təşkilatlarının əməkdaşlıq şəbəkəsinə üzv olmuş, layihələrinin icrasına dəstək göstərmişdir.

Bildiyiniz kimi, elektron xidmətlər korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biridir. 2012-ci ildə başlayan dövr dövlət idarəçiliyində informasiya-kommunikasiya texnologiyalarının uğurlu tətbiqi və korrupsiyaya qarşı mübarizənin 3-cü mərhələsidir. 2012-ci ildə ölkəmizdə "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət planı" və "Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Plan" ları qəbul edilmişdir. Bu Fəaliyyət Planlarının icrası ölkəmizdə dövlət orqanlarının şəffaflıq, açıq hökumət prinsipləri əsasında idarə edilməsini və korrupsiyanı istisna edən idarəçilik mühitinin yaradılmasını təmin edir. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən "Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üzrə Milli Fəaliyyət Planları"nın yekun qiymətləndirilməsi həyata keçirilmişdir. Müəyyən edilmişdir ki, Korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı dövlət orqanları tərəfindən 86 faiz, Açıq hökumətin təşviqi üzrə Milli Fəaliyyət Planı isə 82 faiz icra olunmuşdur. Bu dövrün növbəti ən uğurlu antikorrupsiya layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan və Azərbaycan brendi hesab edilən "ASAN xidmət" mərkəzləridir.

Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli Sərəncamı ilə Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illəri əhatə edən növbəti Milli Fəaliyyət Planı qəbul edilmişdir. Yeni Milli Fəaliyyət Planının qəbulu və nəzərdə tutulan tədbirlərin əhatəsi Azərbaycanda açıq hökumət prinsiplərinin genişlənməsi və korrupsiyanın qarşısının alınması üzrə mövcüd güclü siyasi iradənin növbəti göstəricisidir.

Bu gün tam əminliklə demək olar ki, Azərbaycanda korrupsiya ilə səmərəli mübarizə üçün bütün mexanizmlər mövcuddur və bu proses uğurla davam etdirilir. Beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən sorğu və araşdırmalarda bu nəticələri bir daha təsdiqləyir. Nümunə üçün 2016-cı il Qlobal Korrupsiya Barometri" isə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində ciddi irəliləyişlərin olmasını və korrupsiyanın səviyyəsinin azalmasını göstərmişdir. Hesabatın nəticələri göstərir ki, Azərbaycanda respondentlərin 79 faizi korrupsiyanı cəmiyyətimizin üzləşdiyi əsas problemlərdən hesab etmir. Ölkəmizin göstəricisi Avropa İttifaqı (68 faiz) və postsovet ölkələri (66 faiz) ilə müqayisədə daha yaxşıdır.

Korrupsiyaya qarşı mübarizə daimi bir prosesdir və biz davamlı olaraq bu sahəni diqqətdə saxlayır bu sahədə baş verən beynəlxalq tələbləri və prosesləri izləyirik. Bu prosesdə beynəlxalq təşkilatların, xarici dövlətlərin və tərəfdaşlarımızın təcrübəsi və dəstəyi bizim üçün çox qiymətlidir. Hesab edirəm ki, bu tədbirin nəticələri bizim praktiki fəaliyyətimizdə öz müsbət nəticələrini göstərəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Cənab Rəcəbmo BADRİDDİNOVA**
**Tacikistan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin müavini**




Hörmətli tədbir iştirakçıları!
Hörmətli xanımlar və cənablar!

Fürsətdən istifadə edərək, ilk növbədə hazırki tədbirə dəvət və iştiraka imkan yaratmasına görə təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Bu sözsüz ki, başqa ölkələrin qabaqcıl təcrübəsinin öyrənilməsi, qarşıya çıxan problemlərin müzaki-rəsi, bu sahədə informasiya mübadiləsinin aparılması, əlaqələrin bərpası və əməkdaşlıq, bu sahədə mövcud problemlərin həlli yollarının müəyyən edilməsi ilə əlaqədar korrupsiyaya qarşı mübarizədə çox əhəmiyyətli platformadır.

Hörmətli həmkarlar!

Tacikistan Respublikası müstəqilliyinin ilk illərindən insan hüquq və azadlıqlarını, bu sahədə hamılıqla qəbul edilmiş beynəlxalq dəyərləri, norma və prinsipləri tanıyır. Müstəqil Tacikistan Respublikası Konstitusiyasının qəbulu ilə insan hüquq və azadlıqları ali dəyər kimi tanınmışdır. Onlar hədəflərin müəyyən edilməsində, qanunların tətbiq və icrasında, qanunverici və icra hakimiyyətinin fəaliyyətində rəhbəredici rolu yerinə yetirməyə başlamışdır. Konstitusiya çərçivəsində bütün əsas hüquq və azadlıqlar hərtərəfli tənzim edilmişdir.

Bununla əlaqədar olaraq, dövlət müstəqilliyinin əldə edilməsinin ilk illərindən korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqaməti kimi tanınmışdır. Belə ki, korrupsiyaya qarşı mübarizədə təşkilati-hüquqi əsaslar formalaşdırılmış, bu istiqamətdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün tədbirlər görülmüşdür.

Ölkə rəhbərliyinin gördüyü tədbirlər korrupsiyaya qarşı mübarizədə rəhbərliyin qətiyyətinin bariz nümunəsidir.

Sülhün və milli birliyin banisi- Ümummilli lider, Tacikistan Respublikası Prezidenti, hörmətli İmaməli Rəhman Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyinin 9-cu tədris ilinin iclasında qeyd etmişdir ki, korrupsiya xalqın dövlətə inamını, ölkənin avtoritetini və imicini sarsıdan mənfi fenomendir, kölgə iqtisadiyyatının əmələ gəlməsinə şərait yaradır, bütövlükdə dövlət və cəmiyyətin resurslarının sui-istifadəsi insan hüquqlarının pozulmasına təsir göstərir, cəmiyyətin mənəvi əsaslarını sarsıdır.

Tacikistan Respublikasında korrupsiyaya qarşı mübarizə fəaliyyəti korrupsiyaya şərait yaradan halların əmələ gəlməsi, səbəb və şərtlərinin müəyyən edilməsi, qarşısının alınması və xəbərdar edilməsi, onun mənfi təsirlərinin aradan qaldırılması, insan hüquq və azadlıqlarının müdafiəsi, insanların həyat şəraitinin yüksəldilməsi, iqtisadiyyatın inkişafı və ölkələrin təhlükəsizliyinin təmini bütün dövlət hakimiyyətinin fəaliyyətini əhatə edir.

Tacikistan Respublikasında İnsan Hüquqları üzrə Müvəkkilinin rolu profilaktik tədbirlərin görülməsi və korrupsiyaya qarşı mübarizədə insan hüquqlarının müdafiəsindən ibarətdir. Bu sahədə fəaliyyət Tacikistan Respublikası «İnsan Hüquqları üzrə Müvəkkili haqqında» Tacikistan Respublikası Qanunu ilə verilmiş səlahiyyət çərçivəsində həyata keçirilir. Həmin qanunun tələbinə görə Müvəkkil vəzifəsi insan hüquq və azadlıqlarının dövlət müdafiəsinə Konstitusion təminatının gücləndirilməsi, dövlət hakimiyyəti və vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyət və hörmət göstərilməsinin təşviqi məqsədilə formalaşdırılmışdır.

Həmçinin, qeyd edilməlidir ki, Müvəkkil digər orqanların qərarlarını ləğv etmir, dəyişdirmir, insan hüquq və azadlıqları ilə bağlı mövcud mexanizmləri tamamlayır, habelə insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı bütün imkanlardan istifadə edərək müstəqil orqan kimi fəaliyyət göstərir.

Tacikistan Respublikasında Müvəkkil fəaliyyətinin prinsipləri ilə dövlət antikorrupsiya siyasəti üst-üstə düşür, hansı ki, əsas məqsədlərə nail olmaqda qüvvələrin birləşdirilməsinin mümkün və zəruriliyini təsdiq edir. Tanınmış bu universal prinsiplərə insan hüquq və azadlıqlarının müdafiəsi və təminatı, müstəqillik, qanunilik, ictimailik, əlçatanlıq, aşkarlıq, bərabərlik və ayrıseçkiliyin yolverilməzliyi, dövlət orqanlarının qarşılıqlı fəaliyyəti aiddir.

Müvəkkil dövlət və cəmiyyət arasında vasitəçilik missiyasını həyata keçirir, insan hüquqlarının müdafiəsi və təminatı sahəsində dövlət hakimiyyətinin fəaliyyəti üzərində nəzarət funksiyasının həyata keçirilməsi, bununla da korrupsiyanın aşkar olunması və qarşısının alınmasında köməklik göstərir.

Müvəkkil dolayı olaraq korrupsiyaya qarşı mübarizə aparmaq imkanlarına malikdir:

- hüquqlara riayət, müdafiə və bərpa;
- Müvəkkil insan hüquq və azadlıqları ilə bağlı qanunvericiliyinin təkmilləşdirilməsi;

insan və vətəndaş hüquq və azadlıqları sahəsində vətəndaşların hüquqi maarifləndirmənin həyata keçirilməsi;

məlumata icazə, məlumata icazə barədə vətəndaşların müraciətinə baxılması və yoxlanılması;

Tacikistan Respublikasının dövlət orqanlarının, vətəndaş cəmiyyətinin strukturunun qarşılıqlı fəaliyyəti;

İnsan hüquq və azadlıqları sahəsində beynəlxalq əməkdaşlığın inkişafı və koordinasiyası.

İnsan Hüquqları üzrə Müvəkkilinin əsas fəaliyyət istiqamətlərindən biri vətəndaşların qəbulu və onların şikayətlərinə baxılmasıdır.

İnsan Hüquqları üzrə Müvəkkil şikayətlərə baxılması zamanı istənilən insan hüquqlarının müəyyən edilməsinə imkan verən mandatından irəli gələn kompleks səlahiyyətlərindən istifadə edir, habelə müraciətlərə baxılması ilə bağlı dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyət göstərir (dövlət hakimiyyəti orqanlarına icazəsiz başçəkmə həyata keçirmək, dövlət orqanlarının rəhbərləri və vəzifəli şəxsləri tərəfindən, hərbi birləşmələr, cəza icra müəssisələri tərəfindən göndərilmiş sorğulara cavab əldə edilməsi üçün təcili qəbul edilmək, ekspert tədqiqatlarının həyata keçirilməsi ilə bağlı tapşırıqların verilməsi və sair).

İnsan hüquqlarının pozuntusunu müəyyən etmək nəticəsində İnsan Hüquqları üzrə Müvəkkil vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək barədə təqdimat göndərir. O, həmçinin səlahiyyəti dövlət orqanlarına inzibati və ya intizam təqibinin başlanması, yaxud qərarları və ya hərəkətləri ilə insan hüquq və azadlıqlarını pozmuş vəzifəli şəxs barəsində cinayət işinin başlanması barədə vəsatətlə müraciət edə bilir.

İnsan Hüquqları üzrə Müvəkkilinin digər mühüm fəaliyyət istiqaməti kimi normativ hüquqi aktların layihələrinə dair rəy verməklə, normativ hüquqi aktların layihələrinin işlənməsində işçi qruplarının işində iştirak etməklə insan hüquqları sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə köməklik göstərməkdir. Hər il İnsan Hüquqları üzrə Müvəkkil təxminən 60-70 normativ hüquqi aktların layihələrinə rəylərini təqdim edir.

2003-cü ildə ilk olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına qoşulan dövlət kimi Tacikistana Korrupsiyaya qarşı mübarizəyə dair olan İstanbul Planı çərçivəsində vətəndaşların hüquqlarının pozulması ilə bağlı məlumat əldə edilməsinə dair müraciətlərinə baxılmağa səlahiyyətli olan xüsusi müstəqil qurumun yaradılması barədə təklif irəli sürülmüşdür.

Qeyd edilən təklifə uyğun olaraq Tacikistan Respublikası «İnsan Hüquqları üzrə Müvəkkili haqqında» Qanunda informasiya əldə edilməsi ilə bağlı müraciətlərə baxılmasına dair dəyişiklik həyata keçirilmişdir. 2016-2020-ci illərdə İnsan Hüquqları üzrə Müvəkkilinin fəaliyyət strategiyasına uyğun olaraq informasiyaya giriş hüququ, həmçinin İnsan Hüquqları üzrə Müvəkkilinin əsas fəaliyyət istiqamətlərindən biri kimi çıxış edir.

Dövlət hakimiyyəti orqanlarının şəffaflığı və onların fəaliyyəti barədə informasiyaya əlçatanlıq korrupsiyaya qarşı mübarizədə əsas amil kimi çıxış edir. Dövlət hakimiyyəti orqanlarının fəaliyyəti barədə tam və vaxtlı informasiyanın mövcudluğunun müəyyən edilməsi məqsədi ilə İnsan Hüquqları üzrə Müvəkkili onların internet-saytlarında monitorinqləri həyata keçirir.

Məsələn: 2016-cı ildə 2 Nazirlik və 54 Respublika şəhər və rayon məhkəmələrinin internet-saytlarında monitorinq həyata keçirilmişdir. Monitorinqin nəticəsində müvafiq dövlət orqanlarına təkliflər göndərilir.

Təbliğat və təşviqat işlərinin aparılması korrupsiyaya qarşı ümumbarışmaz mühitin yaradılmasında, əhalinin müxtəlif təbəqələrində antikorrupsiya hüquqi biliklərin səviyyəsinin artırılmasında mühüm əhəmiyyət kəsb edir.

Bununla əlaqədar olaraq, vətəndaşlara hüquqi biliklərin təbliği çərçivəsində ölkənin 9 regionunda fəaliyyət göstərən İnsan Hüquqları üzrə Müvəkkil Aparatının əməkdaşları yerli hakimiyyət nümayəndələri və ictimaiyyət nümayəndələri ilə, habelə Ümumi Yığıncaq üzvlərinin yerlərdə ictimai qəbulu ilə birgə vətəndaşların 144 qəbulu həyata keçirmişlər. Vətəndaşlara korrupsiya hüquqpozmalarının əlamətləri, korrupsiyaya qarşı mübarizə ilə bağlı tənzimetmədə mövcud qanunvericilik, korrupsiya fenomeninə köməklik göstərən amillər, həmçinin bu fəaliyyətə qarşı mübarizə yol və metodları izah edilir.

İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən işlənmiş və Tacikistan Respublikası hökumətinin qərarı ilə təsdiq edilmiş 2013-2020-ci illərdə insan hüquqları sahəsində təhsil Proqramı korrupsiyaya qarşı mübarizədə vacib rol oynayır. Həmin proqram təhsil sistemində insan hüquqları sahəsini təhsilini, müəllimlərin, hakimlərin, mülki dövlət qulluqçularının, hüquq mühafizə və hərbi orqanların ixtisasının artırılmasını kurslarını müəyyən edir.

İnsan Hüquqları üzrə Müvəkkilinin korrupsiyaya qarşı mübarizədə digər işlək aləti rolunu illik hesabatlar çıxış edir ki, bu Prezidentə, Tacikistan Respublikasının Məclis Olusuna, Konstitusiya, Ali və Yuxarı İqtisad məhkəmələrinə, Baş prokurora göndərilir. İnsan hüquqlarının pozuntusuna gətirib çıxaran Korrupsiya amillərinin əks etdirilməsi ilə yanaşı, insan hüquqları sahəsində vəziyyətin yaxşılaşdırılmasına aid olan xüsusi və ya korrupsiyanın xəbərdar olunması sahəsində təkliflər təqdim edilir.

Bu sahədə təcrübə mübadiləsinin həyata keçirilməsi ilə əlaqədar beynəlxalq əməkdaşlıq, habelə vətəndaş cəmiyyəti nümayəndələri ilə əməkdaşlıq korrupsiyaya qarşı mübarizədə gözlənilən nəticələrin əldə edilməsinə, qanunların, qərarların, ölkədə korrupsiyaya qarşı mübarizə planı çərçivəsində həyata keçirilən dövlət strategiyası və proqramının tələblərinə riayət olunmasına imkan verir və Müvəkkil bu sahədə əməkdaşlığa hazırdır.

**Cənab Aydın SƏFİXANLI**
**Azərbaycan Respublikasının nümayəndə heyətinin üzvü,**
**İnsan hüquqları üzrə müvəkkil aparatının rəhbəri**



İlk olaraq İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərləri və Ombudsmanların 3-cü iclasında iştirak edən hər bir kəsi salamlayır və bu mühüm tədbirdə hər birinizə uğurlar arzu edirəm.

Məlumdur ki, korrupsiya bəşəriyyətin inkişafının istənilən mərhələsində müşahidə olunan sosial bəla olmaqla heç bir dövlət və cəmiyyətdən yan keçməmişdir.

Korrupsiyaya qarşı beynəlxalq səviyyədə olan xüsusi diqqətin səbəbi onun böyük dağıdıcı qüvvəyə malik olması ilə bağlıdır. Belə ki, korrupsiya istənilən ölkədə qanunların aliliyi, dövlətin səmərəli idarə olunması, bərabərlik və sosial ədalət prinsiplərinin gözlənilməsinə, iqtisadi və sosial inkişafa, dövlətin sabitliyinə və mənəvi dəyərlərinə, nəhayət ən vacibi demokratiyanın bərqərar olunması və insan hüquqlarının təmin olunması üçün böyük təhlükə yaradır.

Bu baxımdan istər beynəlxalq, istər regional, istərsə də milli səviyyədə korrupsiya ilə mübarizəyə yönəlmiş müqavilələr, sənədlər, strategiyalar, milli fəaliyyət planları qəbul olunmuşdur.

Korrupsiya ilə mübarizə sahəsində qəbul olunmuş beynəlxalq sənədlər sırasında BMT-nin 15 noyabr 2000-ci il tarixli "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" və 31 dekabr 2003-cü il tarixli "Korrupsiyaya qarşı" Konvensiyasını, eləcə də Avropa Şurasının 1999-cu il 27 yanvar tarixli "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" və 1999-cu il 4 noyabr tarixli "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiyaları və digər beynəlxalq regional sənədləri misal göstərmək olar.

Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan Respublikası adları çəkilən beynəlxalq sənədləri ratifikasiya etmiş və öz milli qanunvericiliyini bu sənədlər uyğun formalaşdırmışdır.

Azərbaycanda həyata keçirilən demokratik-hüquqi islahatlar nəticəsində dövlətimiz insan hüquqlarına mühüm təhlükə mənbəyi olan korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər)", "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı", "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilərək nəzərdə tutulmuş illər ərzində uğurla həyata keçirilmişdir.

Eyni zamanda ölkəmizdə açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, sahibkarların hüquqlarının müdafiəsi və adlarını qeyd etdiyim Milli Fəaliyyət Planları çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmiş və icrası uğurla həyata keçirilməkdədir.

Yeri gəlmişkən, ölkə Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında da korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması, milli mexanizmlərin inkişafı, habelə bu sahədə institusional islahatların

davam etdirilməsi, dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təmin edilməsi, insan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan korrupsiya və digər bu kimi cinayətlərin qarşısının alınması mövzusunda ölkədaxili və beynəlxalq tədbirlərin (dəyirmi masa, seminar, konfrans və s.) davam etdirilməsi ilə bağlı müddəalar nəzərdə tutulmuş və ötən müddət ərzində uğurla icra olunmuşdur.

Eyni zamanda qeyd etmək istərdim ki, ölkə Prezidentinin müvafiq fərmanları ilə respublikada maliyyə sisteminin sabitliyinin və dayanıqlılığının, habelə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, şəffaflığını və çevikliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin, həmçinin sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çox pilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında, habelə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apellyasiya şuralarının yaradılması korrupsiya ilə mübarizə baxımından olduqca əhəmiyyətli addımdır.

Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və ölkəmizin dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və «Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında» Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması vəzifəsini daşıyan Azərbaycan Ombudsmanının korrupsiya ilə mübarizədə öz rolu və yeri vardır.

Bu baxımdan Paris Prinsiplərinə uyğun milli insan hüquqları təsisatı kimi fəaliyyət göstərən Müvəkkil ölkəmizdə məhkəmədənkənar hüquq müdafiə mexanizmi olaraq korrupsiyanın insan hüquqlarının pozulması səbəbi kimi bu halın aradan qaldırılması istiqamətində öz səlahiyyətləri çərçivəsində bu sahədə ixtisaslaşmış dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıqda fəaliyyət göstərir.

Müvəkkil ünvanına daxil olmuş şikayətlərdə məmurlar tərəfindən korrupsiyaya yol verilməsi ilə bağlı öz əksini tapmış məlumatların yoxlanılması və təsdiq edildiyi təqdirdə, günahkar şəxslərin qanunvericiliyin tələblərinə müvafiq cəzalandırılması məqsədilə prokurorluq orqanlarına, habelə müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri ilə bağlı olduqda bilavasitə həmin qurumlara müraciətlər etmiş, bu məsələləri diqqətdə saxlamış, müvafiq tədbirlər görülmüşdür.

Sosial-iqtisadi həyatın hər bir sahəsində şəffaflığın təmin edilməsini korrupsiyaya qarşı mübarizədə ciddi amil hesab edən Müvəkkil ötən dövrdə bir sıra sahələrdə struktur islahatlarının aparılmasını, müvafiq sahələrdə işin yenidən qurulması üzrə tədbirlərin sürətləndirilməsini təklif etmişdir.

Məlum olduğu kimi korrupsiyaya qarşı mübarizə istiqamətləri sırasında qanunvericiliyin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsinin mühüm əhəmiyyəti vardır.

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanununun 1.8-ci maddəsinə əsasən, Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər.

Müvəkkil bu hüququndan istifadə edərək korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Cinayət Məcəlləsinə müvafiq əlavə və dəyişikliklərin edilməsi, bir sıra normativ-hüquqi aktların qəbul edilməsi ilə bağlı təkliflər irəli sürmüşdür.

Xüsusilə vurğulamaq istərdim ki, Parlamentlə yaradılmış səmərəli əməkdaşlıq əlaqələrinin nəticəsi olaraq Azərbaycan Ombudsmanı qanunyaradıcılıq prosesində yaxından və fəal iştirak etməkdədir. Belə ki, Parlamentdə müzakirəyə çıxarılan hər bir qanun layihəsi öncədən baxılıb təklif və tövsiyələrin bildirilməsi üçün Ombudsmana göndərilir.

Ombudsmanın nümayəndəsi Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılmış “İşçi qrupunun” üzvüdür və Azərbaycan Respublikası

Prezidentinin 2004-cü il 3 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmis “Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının (2004-2006-cı illər)”, 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dovlət Proqramı”nın, 2007-ci il 28 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın, 5 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın, “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın hazırlanması prosesində yaxından iştirak etmişdir.

Bununla yanaşı, Müvəkkil tərkibində korrupsiyaya qarşı mübarizə tədbirlərinin də təsbit olunduğu Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının və 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının hazırlanması prosesində yaxından iştirak etmişdir.

Ümumiyyətlə qeyd etmək istərdim ki, Müvəkkil fəaliyyəti dövründə insan hüquq və azadlıqlarının daha səmərəli təmini və müdafiəsi məqsədilə qəbul edilmiş Dövlət Proqramlarının və Milli Fəaliyyət Planlarının həm hazırlanması prosesində, həm də həyata keçirilməsində yaxından iştirak etmişdir.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi üzrə işçi qrupunun fəaliyyətinə rəhbərlik Ombudsmana tövsiyə edilmişdir. Bu da onu göstərir ki, bundan əvvəl təsdiq olunmuş Milli Fəaliyyət Planın icrasına rəhbərlik Ombudsman tərəfindən uğurla yerinə yetirilmişdir.

Proqramın icrası ilə bağlı Milli Məclis üzvlərinin, dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının, habelə media nümayəndələrinin iştirakı ilə dəyirmi masalar təşkil edilmiş və məsləhətləşmələr aparılmışdır. Həmçinin, ali təhsil ocaqlarında (Bakı Dövlət Universitetində, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Ədliyyə və Polis Akademiyalarında) professor-müəllim heyəti, tələbə və müdavimlərlə görüşlər keçirilmişdir.

Azərbaycan Ombudsmanının insan hüquqlarının müdafiəsi sahəsində tətbiq etdiyi müsbət təcrübələrdən biri də strateji sənədlərin implementasiyası məqsədilə həyata keçirilən ictimai dinləmələr olmuşdur.

Belə ki, Ombudsmanın təşəbbüsü və bilavasitə iştirakı ilə ölkənin hər bir şəhər və rayonunda həyata keçirilən, dövlət qurumlarının, əhalinin müxtəlif qruplarının, vətəndaş cəmiyyətinin Milli Fəaliyyət Proqramında fəal iştirakının təmin olunması məqsədini daşıyan ictimai dinləmələr insan hüquqlarının daha səmərəli müdafiəsi baxımından olduqca əhəmiyyətli olmuşdur. Dinləmələrdə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər haqqında da geniş məlumat verilmişdir.

Biznesin insan hüquqlarının reallaşdırılmasına təsiri, insan hüquqlarının pozulmasına görə kommersiya təşkilatlarının məsuliyyəti məsələsi son illər ciddi tədqiqat predmetinə çevrilmişdir. Problemin aktuallığı nəzərə alınaraq müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən BMT tərəfindən bu sahədə ciddi iş aparılır.

Qeyd etmək istərdim ki, 2013-cü il tarixdən Ombudsmanın yanında “Biznes və İnsan Hüquqları sahəsində İşçi qrup”u yaradılmış və ötən dövr ərzində İşçi Qrup tərəfindən müxtəlif aktual mövzulara, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsinə həsr olunmuş 14 dəyirmi masa təşkil edilmişdir.

Korrupsiyaya qarşı mübarizədə insan hüquqları ilə biznes arasında qarşılıqlı əlaqənin getdikcə dərinləşməsini, habelə biznesin idarə edilməsi zamanı insan hüquqlarının müdafiəsi məsələlərinin prioritetliyini diqqətdə saxlayan Müvəkkilin təşəbbüsü keçirilən toplantılarda

müvafiq dövlət qurumları, o cümlədən özəl strukturların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən səlahiyyətli dövlət qurumlarının iştirakı ilə geniş fikir mübadilələri aparılmış, təklif və tövsiyələr hazırlanmış və aidiyyəti səlahiyyətli qurumlara təqdim edilmişdir.

Azərbaycan Ombudsmanın təşəbbüsü ilə BMT-nin “Biznes və İnsan Hüquqları sahəsində Rəhbər Prinsipləri” və bu sənədin “Şərhi”, eyni zamanda, BMT-nin Beynəlxalq Sazişi, Edinburq Bəyannaməsi Azərbaycan dilinə tərcümə olunmuş, işçi qrupun üzvlərinə paylanılmış və Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Biznes və insan hüquqları sahəsi Müvəkkilin daim diqqət mərkəzindədir. Bu sahədə mövcud vəziyyətin monitorinqi, çatışmazlıqların müəyyən edilməsi və aradan qaldırılması, o cümlədən bu sahədə korrupsiyaya qarşı mübarizə məqsədilə Müvəkkil tərəfindən davamlı olaraq tədbirlər təşkil olunur, elmi-analitik iş aparılır, beynəlxalq təcrübə öyrənilir, bu istiqamətdə dövlət qurumları, qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq davam etdirilir.

Müvəkkil, eləcə də onun tapşırığına əsasən, Ombudsman Aparatının əməkdaşları, o cümlədən Milli preventiv qrup təqsirləndirilən şəxslərin saxlanma şəraitini öyrənmək, eyni zamanda təqsirləndirilən şəxslərin və məhbusların korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirilməsi məqsədilə Ədliyyə Nazirliyi Penitensiar xidmətinin istintaq təcridxanalarında, cəzaçəkmə müəssisələrində, DİN-nin müvəqqəti saxlama və istintaq təcridxanalarında, İnsan Alverinə qarşı Mübarizə İdarəsində olmuş, müraciət etmiş və başqa saxlanılan şəxslərlə görüşmüşlər.

Söhbət aparılmış şəxslərə şübhəli və təqsirləndirilən şəxslərin hüquq və vəzifələri, həmçinin “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununa uyğun olaraq Müvəkkilin səlahiyyətləri, eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində mövcud qanunvericiliyin müddəaları izah olunmuşdur.

İnsan hüquqlarının təmini sahəsində Azərbaycan Ombudsmanının tətbiq etdiyi müsbət təcrübələrdən biri də əhalinin müxtəlif kateqoriyalarının hüquq və azadlıqlarının müdafiəsi işinin əlaqələndirilməsinin təmin edilməsi və müxtəlif sahələr üzrə, o cümlədən, korrupsiya ilə mübarizə üzrə ixtisaslaşdırılmış müşavirlər institutunun yaradılması olmuşdur.

Belə ki, ixtisaslaşdırılmış müşavirlər tərəfindən mütəmadi olaraq müvafiq sahələr üzrə milli qanunvericilik və beynəlxalq-hüquqi aktlar, bu sahədə ölkədəki vəziyyət təhlil edilir, ayrı-ayrı istiqamətlər üzrə təkliflər və tədbirlər planı hazırlanır.

Müvəkkil korrupsiya ilə mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla da sız əməkdaşlıq edir. Fəaliyyəti dövründə Müvəkkil bir sıra beynəlxalq qurumların, o cümlədən GRECO-nun (Korrupsiyaya qarşı mübarizə üzrə dövlətlər qrupunun) nümayəndələrini qəbul edərək onlarla birgə korrupsiyaya qarşı mübarizə üzrə əməkdaşlıq perspektivlərini müzakirə etmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin korrupsiya hallarının araşdırılması və aradan qaldırılması istiqamətində dövlət qurumları, qeyri-hökumət təşkilatları ilə yaratmış olduğu əməkdaşlıq əlaqələri uğurla inkişaf etdirilməkdədir.

İnanıram ki, bu günki tədbirimiz korrupsiyaya mübarizə sahəsində əldə olunmuş müsbət təcrübələrin öyrənilməsi, bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olacaqdır.

Diqqətinə görə təşəkkür edirəm!

**Cənab Azad CƏFƏROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi aparatının rəhbəri**




Hörmətli panel iştirakçıları,
xanımlar və cənablar,

Bu mühüm konfransda iştirak etmək mənim üçün çox xoşdur. Məni bu auditoriyada çıxış etməyə dəvət etdiyi və sizinlə Azərbaycanın dövlət xidmətləri sahəsində geniş təcrübəsini paylaşmaq imkanı yaratdığı üçün təşkilatçılara öz təşəkkürümü bildirmək istərdim.

Son on il ərzində, Azərbaycan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatları arasında yer tutur. Güclü milli siyasət nəticəsində Azərbaycan iqtisadi və sosial inkişaf sahəsində müsbət tendensiyaların saxlanmasına nail olmuşdur. İqtisadiyyatın inkişafı və şaxələndirilməsi, sosial rifahı təşviq etmək və xalq üçün daha yaxşı bir həyat yaratmaq dövlətin əsas prioritetləri olmuşdur.

Bir neçə il əvvəl ölkə rəhbərliyi dövlət idarəçiliyi sektorunda hərtərəfli islahatlara başlamışdır. Bu islahatların əsas məqsədi dövlət xidmətlərinin səmərəliliyi, effektivliyi və şəffaflığının artırılması idi.

2012-ci ildə Prezidentin fərmanı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və “ASAN xidmət”in yaradılması davamlı müasirləşmə prosesində uğurlu addım oldu. Bu əlamətdar qərar nəticəsində Azərbaycan dövlət idarəçiliyinin inkişafının yeni mərhələsinə qədəm qoydu.

ASAN nədir?

“ASAN xidmət" vahid məkandan dövlət və özəl xidmətləri göstərən mexanizmin Azərbaycan modelidir.

Biz “ASAN xidmət”in Azərbaycanın milli məhsulu və brendi olduğunu söyləməkdən qürur duyuruq.

Vahid məkan və Dövlət-Özəl Tərəfdaşlığı

“ASAN xidmət” dövlət xidmətlərinin göstərilməsinin innovativ modelini yaratmışdır. İndi həm dövlət qurumları, həm də özəl şirkətlər “ASAN xidmət” mərkəzləri adlanan vahid məkandan bir çox xidmətlər göstərirlər. “ASAN xidmət” mərkəzləri "vahid məkan" yanaşması əsasında 250-dən çox xidmətin göstərilməsini təmin edir. Beləliklə, bu model Dövlət-Özəl Tərəfdaşlığının uğurlu nümunəsini təcəssüm etdirir.

İndi paytaxtda və ondan kənarda 11 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. “ASAN xidmət” mərkəzləri həftənin bütün günləri nahar fasiləsi olmadan fəaliyyət göstərirlər: bazar ertəsindən cümə gününədək saat 10-dan saat 8-dək, şənbə və bazar günləri isə saat 10-dan saat 5-dək işləyirlər.

Şəffaflıq

Şəffaflıq “ASAN xidmət”də tətbiq olunan əsas prinsiplərdən biridir. Xidmət haqqının yalnız bank ödənişləri vasitəsilə həyata keçirilməsi, xidmət müddətinin video qeydiyyatı, şüşəli bürolar şəffaflığı təmin etmək üçün vasitələrdir.

İctimai iştirak və hesabatlılıq

- ✓ veb səhifə, fb səhifə, (www.asan.gov.az; www.vxsida.gov.az).

- ✓ Rəy sorğusu monitorları

- ✓ Facebook səhifəsi
  "ASAN xidmət" facebook səhifəsi ictimai maraq sahələri üzrə interaktiv sorğu üçün əlverişli bir vasitədir – səhifə 420,000-dən çox bəyənilməyə (like) malikdir.

- ✓ Elektron skype köşkü

- ✓ 108 Çağrı Mərkəzi

108 Çağrı Mərkəzi vasitəsilə "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlər haqqında məlumatların ödənişsiz olaraq verilməsi təmin edilir. Eyni zamanda bu xidmət vasitəsilə vətəndaşların işin keyfiyyətinə dair şikayətlərini qeyd edilir. Çağrı mərkəzi ayda 25 mindən çox zəngə cavab verir.

- ASAN Radio

Bizim növbəti yeniliyimiz ictimai media layihəsi olan ASAN Radiodur. Bu, Azərbaycanda və inanıram ki, dünyada dövlət xidmətlərinin göstərilməsinə həsr olunmuş ilk FM radiostansiyasıdır. ASAN radio dövlət xidmətlərinin göstərilməsi ilə bağlı məlumatların yayılmasına və bu sahədə yeni inkişaflara dair ictimaiyyətin məlumatlandırılmasına yönəldilmiş proqramları yayımlayır.

Əlçatanlıq

- Səyyar xidmətlər

Səyyar "ASAN xidmət" vətəndaşların ölkə daxilində xidmətlərə universal əlçatanlığını təmin etmək üçün Dövlət Agentliyi tərəfindən hazırlanmış ən yaxşı innovativ yanaşmadır. Bu xidmət dövlət xidmətlərini insanlara gətirərək proaktiv yanaşmanı təmin edir. "ASAN xidmət" mərkəzlərinin təsis edilmədiyi ucqar ərazilərdə və kəndlərdəki əhaliyə xidmətlərin çatdırılması üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilən irihəcmli xüsusi avtobuslar səyyar formada əhaliyə xidmət göstərir.

Bu xidmət növü konseptual olaraq yeni və faktiki olaraq, Azərbaycanda və onun hüdudlarından kənarda bir inqilabdır. Yarandığı gündən - 2013-cü ilin may ayından etibarən Azərbaycanın bütün bölgələrində 1,051,000-ə yaxın vətəndaş səyyar xidmətlərdən yararlanmışdır.

- Şəhərdaxili səyyar xidmətlər

Dövlət Agentliyi paytaxt Bakı şəhərində şəhərdaxili səyyar xidmətlər göstərməyə başlamışdır. Şəhərdaxili səyyar xidmətlər vətəndaşlara əlavə ödəniş etməklə iş yerində və ya ev ünvanında və ya istədikləri hər hansı bir yerdə xidmət almağa imkan verir. Sosial birliyin və həmrəyliyin təşviq edilməsi məqsədilə bu xidmətlər əlilliyi olan və sağlamlıq imkanları məhdud olan uşaqlara pulsuz olaraq göstərilir.

Vətəndaş məmnunluğu

- Təlimlər

"ASAN xidmət" sistemində "Vətəndaş hər zaman haqlıdır" yanaşması tətbiq olunur. Bu yanaşmanın həyata keçirilməsi prosesində mərkəzlərin əməkdaşları daim səmərəli xidmətlərin göstərilməsi, etik davranış, psixoloji terapiya, vaxtın idarə edilməsi və s. mövzularda təlimlərə cəlb edilirlər.

2013-2017-ci illər ərzində "ASAN xidmət" mərkəzlərində təxminən 1500 təlim keçirilmişdir. Digər özəl və dövlət qurumlarının əməkdaşları "ASAN xidmət" mərkəzlərinin əməkdaşları ilə birlikdə təlimlərdə iştirak etmişlər. Ümumilikdə indiyədək 15000-ə yaxın iştirakçıya təlim keçirilmişdir.

"ASAN xidmət" modelinin təlim strategiyasının əsas məqsədi müasir təlim standartlarına və infrastruktura uyğun gələn hərtərəfli çevik və yenilikçi təlim sisteminin yaradılmasıdır.

Təlimlər və səmərəli xidmətlər nəticəsində vətəndaşların "ASAN xidmət"lərdən məmnunluğu 98 faizdir.

Əlverişli mühit

Vətəndaşların rahatlığı və onların xidmətlərə asan çıxışı bizim əsas məqsədimizdir. Mərkəzlər vətəndaşlar üçün yüksək keyfiyyətli şərtlər təklif edir.

Vətəndaşlar onlayn rejimdə və ya 108 Çağrı Mərkəzi vasitəsilə növbə götürə bilərlər.

Onlar internet səhifəsi və ASAN mobil proqramı vasitəsilə xidmət müddətini və növbə sistemini izləyə bilərlər.

Rahat gözləmə zallarında vətəndaşların ehtiyacları üçün imkanlar (uşaq oyun meydançası, kafelər, pulsuz internet, tibb məntəqəsi) mövcuddur.

Müraciətlərin statistikası

"ASAN xidmət" dövlət xidmətlərinə hər bir vətəndaşın maneəsiz və asan çıxışını təmin edir. Odur ki, 11 "ASAN xidmət" mərkəzi və Səyyar "ASAN xidmət" avtobusları vasitəsilə 15 milyondan çox müraciətə baxılmışdır. Hər gün 2000-dən çox vətəndaş "ASAN xidmət" mərkəzinə müraciət edir.

Xidmətlərin inteqrasiyası

- "ASAN Viza" sistemi

-

İyun ayının 1-də Azərbaycan Respublikasının Prezidenti Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında sərəncam imzalamışdır. "ASAN Viza" sistemi Azərbaycana gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə vizaların verilməsi prosedurunun sadələşdirilməsi, eləcə də, müasir informasiya texnologiyalarından istifadə etməklə şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədilə elektron viza sisteminin yaradılması üçün nəzərdə tutulmuşdur.

Korporativ Sosial Məsuliyyət

- Könüllülük fəaliyyəti

"ASAN xidmət" fəaliyyətini yalnız xidmət göstərilməsi ilə məhdudlaşdırmır, o eyni zamanda sosial kampaniyalar təşkil etməklə sosial məsuliyyəti də təşviq edir.

"ASAN xidmət"in bu istiqamətdə ən nəzərə çarpan fəaliyyəti Könüllülükdür. "ASAN xidmət" mərkəzlərində təşkil olunan könüllülük fəaliyyətinə 17-25 yaş arası gənclər müraciət edə bilər.

Mərkəzlərdə könüllü kimi 2 ay müddətində işləyib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Dövlət Agentliyi tərəfindən xüsusi sertifikatlar və müsbət xasiyyətnamə verilir. Bu onların peşəkar həyatının növbəti mərhələsinə uğurlu keçid üçün imkan yaradır.

İndiyədək "ASAN xidmət" mərkəzlərində könüllü kimi 11000-dən çox gənc fəaliyyət göstərmişdir. Bundan başqa, peşəkarlığına görə fərqlənən təxminən 1000 nəfər gənc Dövlət Agentliyi, "ASAN xidmət" mərkəzləri və digər dövlət müəssisələri, özəl şirkətlər və sahibkarlar tərəfindən işə götürülmüşdür.

Beynəlxalq tanınma

- BMT-nin Dövlət Xidmətləri Mükafatı

"ASAN xidmət"in "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyası üzrə 1-ci yerin qalibi kimi Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətləri Mükafatı ilə təltif olunmasını xüsusilə qeyd etmək istəyirəm. BMT-nin "ASAN xidmət"i ən yaxşı göstəricilərinə və əlamətdar fəaliyyətinə görə təltif etməsi təsadüfi deyil. Bu mükafat dövlət xidmətləri sahəsində mükəmməlliyin beynəlxalq səviyyədə ən nüfuzlu tanınmasıdır. Bu, digər ölkələr tərəfindən mümkün replikasiya üçün müvəffəqiyyətli təcrübələri paylaşmaq məqsədini daşıyır.

BMT-nin Dövlət Xidmətləri Mükafatının sahibi kimi Azərbaycanın qabaqcıl təcrübəsi dövlət xidmətlərinin göstərilməsi sistemlərini "ASAN xidmət" modeli əsasında müasirləşdirmək niyyətində olan ölkələrin diqqətini cəlb etmişdir. Artıq Əfqanıstanda eyni adda qurum – "ASAN Khedmat" yaradılmışdır.

Bundan başqa, Dövlət Agentliyi və "ASAN xidmət" mərkəzləri dövlət xidmətlərinin göstərilməsində yüksək keyfiyyətli iş və nailiyyətlərin tanınması üzrə çoxsaylı beynəlxalq standart sertifikatları almışdır.

- ISO 9001:2008
- OHSAS 18001:2007

Bura keyfiyyətin idarəolunması sistemi üzrə beynəlxalq standart ISO 9001:2008, əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi üzrə beynəlxalq standart OHSAS 18001:2007, eləcə də, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən verilmiş "Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması" üzrə mükafat daxildir.

Yekun

Hörmətli iştirakçılar, xanımlar və cənablar

Təqdimatımın sonunda bildirmək istərdim ki, səmərəli dövlət xidmətlərinin davamlılığını təmin etmək üçün davamlı inkişaf tələb olunur. Siyasi iradə, institusional mədəniyyət, təkamül yanaşması və davamlı inkişaf arzu olunan nəticəni təmin edəcək əsas amillərdir. Bu baxımdan Azərbaycan öz uğurlu təcrübəsini bölüşməyə hazırdır.

Konfransın işinə uğurlar arzu edirəm.

Diqqətinizə görə minnətdaram.

**Cənab Əliməmməd NURİYEV**
**«Konstitusiya» Araşdırmalar**
**Fondunun prezidenti**



Hörmətli xanımlar və cənablar!
Hörmətli tədbir iştirakçıları!

Vətəndaş cəmiyyəti təmsilçi olaraq qeyd etmək istərdim ki, İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdirilmiş korrupsiyaya qarşi mübarizə qurumlarının rəhbərlərinin və ombudsmanlarının üçüncü iclasının Bakıda keçirilməsi çox mühüm hadisədir. Bu formatda tədbirlər və müzakirələr korrupsiyaya qarşı mübarizə sahəsində təcrübə mübadiləsi, bilik və bacarıqların artırılması və koordinasiya baxımından çox böyük əhəmiyyət kəsb edir. Mən korrupsiyaya qarşı mübarizədə vətəndaş cəmiyyətinin rolu və Azərbaycan təcrübəsini diqqətinizə çatdırmaq istəyirəm.

Müstəqillik illərində ölkəmizdə müxtəlif sahələrdə fəaliyyət göstərən, cəmiyyətin bütün sektorlarına nüfuz edən vətəndaş cəmiyyəti institutları "üçüncü sektor" formalaşıb. Vətəndaş cəmiyyəti institutları cəmiyyətin demokratik transformasiyası, hüquqi dövlət quruculuğu prosesinin vacib institutlarından birinə çevriliblər.

Qeyri-hökumət təşkilatlarının və bütövlükdə "üçüncü sektor"un güclənməsi, onların dövlət orqanları ilə münasibətlərinə də təsirsiz ötüşməyib. Ardıcıl və sistemli səylərdən sonra dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında tərəfdaşlıq münasibətləri, əməkdaşlığın inkişaf etməsi sahəsində müəyyən nəticə və təcrübə əldə olunub.

Korrupsiyaya qarşı səmərəli mübarizə cəmiyyət, dövlət, özəl sektorun səylərinin birləşdirilməsini tələb edir. qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları məhz bu harmoniyanın yaradılmasında əsas cilalayıcı bünövrə funksiyasını yerinə yetirməyə çalışırlar.

Son illərdə Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində də vətəndaş cəmiyyəti institutları mühüm rol oynamağa, korrupsiyaya qarşı mübarizədə vətəndaş iştirakçılığının genişləndirilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, hesabatlılığın artırılması, maarifləndirmə, ictimaiyyətin məlumatlandırılması istiqamətlərində dövlət və özəl sektorun əsas partnyoru kimi çıxış edərək əhəmiyyətli tövhələr veriblər.

Öz növbəsində hökumət, antikorrupsiya siyasətinin həyata keçirən orqanlar tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dəstəklənməsi istiqamətində müəyyən addımlar atıb. Qeyri-hökumət təşkilatlarının korrupsiyaya qarşı mübarizə sahəsində dar çərçivə ilə məhdudlaşan, maarifçilik, əhalinin məlumatlandırdılması istiqamətində fəaliyyət göstərən qurumlardan antikorrupsiya siyasətini həyata keçirən ixtisaslaşmış təsisatların, eləcə də dövlət orqanlarının əsas tərəfdaşlarından birinə çevriliblər.

Bu prosesin əsası Korrupsiyaya qarşı mübarizə üzrə I Dövlət Proqramının (2004-2007-ci illər) qəbulu ilə qoyulub. Proqramda antikorrupsiya siyasətinin həyata keçirilməsində qeyri-hökumət Təşkilatları dövlət orqanlarının tərəfdaşlarından biri kimi bəyan edilmişlər. Proqramda qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi, onların fəaliyyətinin dəstəklənməsi istiqamətində müddəalar da nəzərdə tutulub. Qeyri-Hökumət Təşkilatları da öz növbələrində, resursların imkan verdiyi səviyyədə Proqramda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində fəal iştirak etməyə çalışıblar.

2006-ci ildə Korrupsiyaya qarşı mübarizə üzrə Qeyri-Hökumət Təşkilatlarının Məlumat və Əməkdaşlıq Şəbəkəsi yaradılıb. Hazırda Şəbəkə özündə 30 Qeyri-Hökumət Təşkilatını

birləşdirir. Şəbəkənin yaranması korrupsiyaya qarşı mübarizə sahəsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının əməkdaşlığının inkişaf etdirilməsinə, onların fəliyyətlərinin əlaqələndirilməsinə güclü impuls verərək, səyləri birləşdirmək imkanı yaradıb.

Şəbəkənin başlıca məqsədi cəmiyyətin korrupsiyaya qarşı mübarizəyə səfərbər olunmasında iştirak etmək, korrupsiyaya qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatlarının və dövlət strukturlarının səylərinin əlaqələndirmək, onlar arasında daha sıx əməkdaşlığa nail olmaq; korrupsiyaya qarşı mübarizə aparan qeyri-hökumət təşkilatları arasında əməkdaşlığı inkişaf etdirmək, informasiya mübadiləsini təşkil etmək, korrupsiyaya qarşı mübarizənin vəziyyətini təhlil etmək, bu sahədə həyata keçirilmiş tədbirlərin səmərəsini artırmaq və korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə və əməkdaşlıq tədbirlərini birgə həyata keçirmək, korrupsiyaya qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədi ilə konsepsiyaların, proqram və təklifləri hazırlamaqdır.

Şəbəkə Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın (2007-2011) hazırlanmasının bütün mərhələlərində bilavasitə iştirak edib. Bu əməkdaşlığın nəticəsi kimi Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyada hökumətin antikorrupsiya siyasətinin həyata keçirilməsində vətəndaş cəmiyyəti institutları tərəfdaş kimi bəyan olunub. Milli Strategiyanın Fəaliyyət Planında 59 istiqamət, 200-dən çox pozitsiya üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulubdur. 93 pozitsiya üzrə qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları tərəfdaş kimi göstərilib.

Eyni zamanda, Şəbəkə Korrupsiyaya qarşı mübarizə üzrə 2012-2015-ci illəri əhatə edən Milli Fəaliyyət Planının (MFP) və 2016-2018-ci illər üçün Açıq Hökumətin Təşviqinə dair MFP-nın hazırlanmasında çox yaxından iştirak edib. 2016-2018-ci illər üçün Açıq Hökumətin Təşviqinə dair MFP-da 32 tədbir üzrə vətəndaş cəmiyyətinin təklifləri nəzərə alınıb.

Yeni plan çox böyük potensiala malikdir. Bu planın icrası islahatlar proqramının aktuallığını təmin etməyə kömək edəcək, vətəndaşlar, vətəndaş cəmiyyəti üçün yeni imkanlar açacaq.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası milli səviyyədə antikorrupsiya siyasətinin həyata keçirilməsində vətəndaş cəmiyyəti üçün müvafiq institusional imkanlar yaradıb. Vətəndaş cəmiyyəti qanunvericiliyin təkmilləşdirilməsi üzrə Komissiyanın İşçi Qrupunda Təmsil olunur. Bu vətəndaş cəmiyyəti üçün qanunvericiliyin və siyasət sənədlərinin hazırlanmasında bilavasitə iştirak imkanı verən çox yaxşı mexanizmdir.

Korrupsiyaya qarşı mübarizə üzrə Qeyri-Hökumət Təşkilatlarının Məlumat və Əməkdaşlıq Şəbəkəsi korrupsiyaya qarşı mübarizə sahəsində dövlət qurumları ilə vətəndaş cəmiyyətinin səylərininin əlaqələndirilməsi, qeyri-hökumət təşkilatlarının özlərinin fəaliyyətinin koordinasiyası, dövlət orqanları ilə işlək əməkdaşlıq mexanizmlərinin yaradılması baxımından çox müsbət təcrübə olmuşdur. Eyni zamanda Şəbəkənin fəaliyyəti dövlət orqanları ilə vətəndaş cəmiyyətinin əməkdaşlığının daha yüksək institusional səviyyəyə keçməsi üçün zəruri zəminlər yaratmış, bütün maraqlı tərəflərə müvafiq bilik və bacarıqlar vermişdir.

Bu təcrübədən çıxış edərək 09 sentyabr 2016-cı ildə açıq müzakirələr, dialoq və əməkdaşlıq üçün çox əlverişli format və müstəvi təqdim edən Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması yaradılmışdır. Platformada Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Baş prokuroru yanında Korrupsiya qarşı mübarizə Baş İdarəsi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi, Maliyyə Nazirliyi, Açıq Hökumət Tərəfdaşlığı Beynəlxalq Təşkilatının Azərbaycan üzrə Milli koordinatoru, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, parlamentin nümayəndəsi kimi Milli Məclisinin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri və 34 qeyri-hökumət təşkilatları təmsil olunur.

Platformanın məqsədi “Açıq Hökumət" Tərəfdaşlığı Təşəbbüsünün Azərbaycanda tətbiqinə hərtərəfli dəstək verilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın və açıq hökumət prinsiplərinin tətbiq edilməsi, bu təşəbbüsün Azərbaycanda tətbiqinə ictimai nəzarətin təmin edilməsi, habelə hökumət-vətəndaş cəmiyyəti dialoqunun inkişaf etdirilməsidir.

Mövcud ictimai iştirakçılıq mexanizmləri də Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti üçün yeni imkanlar yaradır. Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsinə əsasən vətəndaşların dövlətin idarə olunmasında iştirak

etmək hüququ var. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

Bu hüquq çeşidli formalarda, müxtəlif mexanizmlərdən istifadə etməklə gerçəkləşdirilə bilər. Əhalinin dövlət idarəçiliyində iştirakının formalarından biri də ictimai iştirakçılıq institutu vasitəsilə qərarların qəbuluna təsir göstərilməsi, dövlət orqanlarının fəaliyyətinə nəzarət olunmasıdır. “İctimai iştirakçılıq haqqında” Qanun da məhz bu məqsədlə qəbul olunub.

Qanunda ictimai iştirakçılığın təşkilati-hüquqi formaları təsbit olunub. Bunlar İctimai Şura, İctimai müzakirə, İctimai dinləmə, İctimai rəyin öryənilməsi, Hüquqi aktların layihələrinin ictimai müzakirəsi və yazılı məsləhətləşmədir. Bu forma və mexanizmlər vətəndaş cəmiyyəti üçün çox səmərəli korrupsiyaya qarşı mübarizə alətləri və ictimai nəzarət vasitələri kimi çıxış edir.

Xüsusən İctimai Şuralar vətəndaş cəmiyyətini səlahiyyətləndirir və bu səlahiyyətlərin həyata keçirilməsi üçün müvafiq institusional imkanlar verir. Azərbaycan vətəndaş cəmiyyəti bu imkanlarından maksimum yararlanmağa çalışır.

Qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilmiş layihələri təhlil edərək və ümumiləşdirmə apararaq hazırda korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyətinin daha çox aşağıdakı istiqamətlər üzrə fəaliyyət göstərdiyini söyləmək olar:

1. Antikorrupsiya mədəniyyətinin formalaşdırılması;

2. Maarifləndirmə;

3. Antikorrupsiya qanunvericiliyinin hazırlanması, normativ-hüquqi aktların və normativ aktların antikorrupsiya ekspertizası,

4. Antikorrupsiya tədrisi, antikorrupsiya vəsaitlərinin hazırlanması;

5. Dövlət orqanlarında şəffaflığın, hesabatlılığın, informasiya əldə etmək haqqında qanunvericiliyin tətbiqinin dəyərləndirilməsi;

6. Milli Strategiyanın və MFP-nın həyata keçirilməsində iştirak və onun monitorinqi.

7. Korrupsiya faktı ilə üzləşmiş vətəndaşlara hüquqi yardımın göstərilməsi

8. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi.

Yuxarıda da qeyd etdiyimiz kimi normativ baza dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının əməkdaşlığının genişlənməsi, inkişaf etməsi üçün böyük imkanlar nəzərdə tutur. Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın qəbulu korrupsiyaya qarşı mübarizə sahəsində qeyri-hökumət təşkilatları ilə dövlət orqanları arasında əməkdaşlığın yeni mərhələsinin əsasını qoymuş oldu. Strategiyada (“Milli Strategiya üzrə Tədbirlər 6. Korrupsiyaya qarşı mübarizədə əməkdaşlıq”) vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri və özəl sektor Fəaliyyət Planının icrası üzrə tərəfdaş kimi müəyyən ediliblər.

Ümumiyyətlə, apardığımız təhlillər göstərir ki, korrupsiyaya qarşı mübarizə sahəsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında tərəfdaşlıq əlaqələri daha çox aşağıdakı istiqamətlərdə müşahidə olunur:

1. Maarifləndirmə

2. İnstitusional yardım

3. Monitorinqlərin keçirilməsi

4. Layihələrin həyata keçirilməsində təşkilatı dəstək

5. Antikorrupsiya tədrisi, antikorrupsiya vəsaitlərinin hazırlanması;

6. Korrupsiyaya qarşı mübarizə sahəsində tədbirlərin, xüsusən regionlarda ictimai müzakirələrin təşkilinə yardım göstərilməsi

7. Korrupsiyaya qarşı mübarizə üzrə Fəaliyyət Planınlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində əməkdaşlıq

8. Antikorrupsiya qanunvericiliyinin hazırlanması sahəsində əməkdaşlıq

9. Beynəlxalq təşkilatların proqramları çərçivəsində əməkdaşlıq

Azərbaycan vətəndaş cəmiyyəti xüsusən son illər monitorinqlərə çox böyük önəm verir. “Konstitusiya” Araşdırmalar Fondu və "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi birgə tərəfdaşlığı çərçivəsində 3 il ərzində 2012-2015-ci illəri əhatə edən Korrupsiyaya qarşı mübarizə üzrə Mili Fəaliyyət Planının monitorinqi həyata keçirildi. Monitorinq

çərçivəsində 4 monitorinq hesabat təqdim olunub. Monitorinq prosesinin tərkib hissəsi kimi bütün maraqlı tərəflərin iştirakı ilə 7 dəyirmi masa müzakirələri keçirilib. Antikorrupsiya siyasətinin ən müxtəlif aspektləri ilə bağlı hökumətə tövsiyyələr təqdim edilib.

Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizə səyləri dövlət orqanları tərəfindən də dəstəklənir. Azərbaycanın milli donoru Azəbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası korrupsiyaya qarşı mübarizə, Açıq Hökumət Təşəbbüsləri, şəffaflıq, dövlət orqanlarının fəaliyyətində hesabatlılığın təmin edilməsi istiqamətlərini prioritet sahələr kimi diqqətdə saxlayır. 2016-cı ildə "Şəffaflıq və institusional məsələlər" istiqaməti üzrə həyata keçirilən 11 layihəyə 105000 AZN vəsait ayrılıb. Layihələrin icrası işlərinə ümumilikdə 58 işçi cəlb olunub. Layihələrin icrası çərçivəsində keçirilən tədbirlərdə 1468 nəfər iştirak etmişdir ki, onlardan 718 nəfəri gənc, 750 nəfəri isə digər yaş qrupuna aid insanlardır. İştirakçılardan 947-i kişi, 521-i isə qadındır. Maliyyələşmiş layihələr çərçivəsində 17 təlim, 30 seminar və 1 düşərgə təşkil olunub, 3 buklet və 1 kitabça çap edilib, 1 sayt təkmilləşdirilib, 1 hesabat və 5 TV veriliş hazırlanıb.

Azərbaycan Antikorrupsiya Akademiyası nəzdində "Korrupsiyaya qarşı mübarizə" mövzusunda ekspert və millət vəkillərinin iştirakı ilə 200 nəfər gəncə 10 təlim-seminar keçirilib. 74 mərkəzi icra orqanı və 65 yerli icra orqanının onlayn şəffaflıq vəziyyəti monitorinq edilib, müvafiq reytinq cədvəli tərtib olunub.

2015-ci ildən AŞ/Aİ Şərq Tərəfdaşlığı Proqram Əməkdaşlığı Çərçivəsində Azərbaycanda Korrupsiya ilə mübarizə və onun qarşısının alınması sahəsində bacarıqların artırılması layihəsi icra olunur. Vətəndaş cəmiyyəti də bu layihənin icrasında fəal iştirak etməyə çalışır.

Eyni zamanda artıq 4 ildir ki, "Şəffaflıq Azərbaycan" və onun tərəfdaşları tərəfindən "Azərbaycan Şəffaflıq Tərəfdaşlığı" layihəsi çərçivəsində miqyaslı monitorinqlər, təlimlər, hüquqi yardım fəaliyyətləri həyata keçirilir.

Vətəndaş cəmiyyətinin tərəfdaşlığı ilə Korrupsiyaya Qarşı Mübarizə üzrə 2016-2018-ci illər üçün MFP-nın səmərəli monitorinqi məqsədilə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya tərəfindən Elektron monitorinq Sistemi yaradılıb. Bu zaman antikorrupsiya siyasəti çərçivəsində dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, daha yaxşı əlaqələndirmə ilə bağlı vətəndaş cəmiyyətinin tövsiyyələri nəzərə alınıb.

Azərbaycan vətəndaş cəmiyyəti yeni nümunələrin yaradılması ilə də seçilib. Qeyri-Hökumət Təşkilatları Antikorrupsiya Şəbəkəsinin üzvü, "Şəffaflıq Azərbaycan" təşkilatının həyata keçirdiyi "ALAC" layihəsi buna misal ola bilər. 2005 ci il aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi MDB ölkələri arasında ilk olaraq yeni – ALAC (İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi) layihəsini həyata keçirir. ALAC layihəsinin missiyası vətəndaşlara – korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir.

Korrupsiyaya Qarşı Mübarizə üzrə Qeyri-Hökumət Təşkilatlarının Məlumat və Əməkdaşlıq Şəbəkəsi tərəfindən son 5 ildə iki dəfə ölkə üzrə korrupsiyanın səviyyəsinin qiymətləndirilməsi ilə bağlı ictimai rəy sorğusu keçirilib.

Bütün bunlar deməyə əsas verir ki, vətəndaş cəmiyyəti korrupsiayaya qarşı mübarizə siyasətində aparıcı mövqe tutur. Öz səyləri, nümunələri ilə novasiyaları təşviq etməklə, dövlət qurumlarının cavabdeh saxlanılması və islahatlar üçün etimad mühitinin yaradılmasına öz töhvəsini verir.

Vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə də töhvə vermək imkanları böyükdür. Bu məqsədlə İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış vətəndaş cəmiyyəti təşkilatlarının əməkdaşlığının gücləndirilməsi, əməkdaşlıq şəbəkələrinin yaradılması çox böyük fayda verə bilər. Bu cür əməkdaşlıq təcrübə mübadiləsi, bilik və bacarıqların artırılmasına, birgə layihələri həyata keçirilməsini şərtləndirməklə antikorrupsiya potensialının güclənməsinə töhvə verər.

**Cənab Rişad Rahimov**
**Qazaxıstan Respublikasının İnsan Hüquqları üzrə Milli Mərkəzin İdarə rəisi**




Hörmətli iştirakçılar,
xanımlar və cənablar!

İlk növbədə, Qazaxıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili adından Sizləri salamlayıram və dəvətə və danışmaq imkanını yaratdığınıza görə təşkilatçılara öz təşəkkürümü bildirirəm.

Bu gün dünyada korrupsiyaya qarşı mübarizə davamlı olaraq davam edir və daim təkmilləşdirilir. Dünyanın bütün ölkələri üçün optimal olan korrupsiyaya qarşı mübarizə mexanizmi mövcud deyildir. Hər bir ölkə tərəfindən korrupsiya ilə mübarizə üsulları unikaldı və nəinki siyasi və iqtisadi sabitlik kimi xüsusiyyətlərdən, o cümlədən adət və ənənələrdən, dindən və hüquqi mədəniyyətdən, eləcə də ərazisindən, əhalisinin sıxlığından və sayından asılıdır.

İqtisadiyyatın və genişmiqyaslı sosial dəyişikliklərin müasirləşdirilməsi kontekstində Qazaxıstanda da cari sosial-iqtisadi siyasətə uyğun olaraq ardıcıl anti-korrupsiya strategiyası üçün aşkar ehtiyac yaranmışdır.

Bu baxımdan, 26 dekabr 2014-cü il tarixdə 2015-2025-ci illər üçün Qazaxıstan Respublikasının yeni anti-korrupsiya strategiyası təsdiq edilmişdir.

Qazaxıstan Prezidentinin xalqa müraciətində korrupsiya və inzibati islahatlar nəticəsində - dövlət idarəetməsinin sadələşdirilməsi məqsədləri əks olunmuşdur. Dövlət başçısı korrupsiya ilə mübarizə proqramının əsas istiqamətlərini müəyyən edilmişdir. O vaxtdan bəri dövlət orqanlarının nəzarət funksiyaları məhdudlaşdırılmış, hesabatlılıq və iş şəffaflığı təmin edilmiş, iqtisadiyyatda və biznesdə hökumətin iştirakı məhdudlaşdırılmışdır.

Qazaxıstan Prezidenti korrupsiyaya qarşı mübarizədən danışanda çıxışlarında dəfələrlə qeyd etmişdir ki, ictimaiyyətin iştirakı olmadan korrupsiyaya qarşı mübarizənin aparılması qeyri-mümkündür. Bildiyiniz kimi, bu gün Qazaxıstan dəyişən qlobal iqtisadi və siyasi reallıqda müəyyən dövlət kimi yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün olduğu kimi heç vaxt insan hüquqları dünya siyasətində əsas amil kimi qəbul edilməmişdir.

Bu, hətta insan hüquqları mövzusu ilə bağlı məsələlərin daha çox gümdəmdə qalmasına şərait yaradır. Müstəqillik illərində Qazaxıstan öz dövlətçiliyini və iqtisadiyyatını gücləndirmiş, əhalinin rifahını təmin etmiş, beynəlxalq razılıqları icra etmiş, habelə beynəlxalq ictimaiyyətə inteqrasiya edərək, dinamik inkişaf edən ölkə kimi öz yerini tutmuşdur.

Ölkədə insan hüquqlarının müdafiəsi mexanizmlərinin gücləndirilməsi və inkişafı üzrə sistemli iş aparılır, insan hüquqları üzrə təşkilatlar, o cümlədən ölkə Prezidenti yanında İnsan Hüquqları Komissiyası, İnsan Hüquqları üzrə Ombudsman, Ailə Məsələləri və Gender siyasəti üzrə Komissiya, Uşaq hüquqları üzrə təşkilat, ixtisaslaşdırılmış ombudsmanlar, qeyri-hökumət təşkilatları yaradılmış və fəaliyyət göstərirlər. Qazaxıstan insan hüquqları sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşulmuşdur.

Bu mövzuda Ombudsman institutunun fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi üzrə geniş iş sahəsinə malikdir və dövlət və cəmiyyət arasında əlaqə vasitəçisi kimi hamı tərəfindən qəbul edilir.

Təşkilat insan hüquqlarının pozulmasına dair hər il təxminən min beş yüz vətəndaşın şikayətinə baxır.

Vətəndaşların şikayətləri insan hüquqlarına dair hər bir sahəni əhatə edir – bunlar, hüquq-mühafizə orqanlarının hərəkətləri, məhkəmələrin hərəkətləri və qərarları, həbsxana rəsmilərinin

hərəkətləri və qərarları, dövlət idarəçiliyində hüquq pozmaları, əmək hüquqları, uşaq hüquqları, mənzil hüquqları, sosial təminat, pensiya, məhkəmə qərarlarının icrası, əlillərin hüquqları və s-dir.

Şikayətlərin hər biri üçün müəyyən edilmiş qaydalar nəzərə alınmaqla araşdırılır, qəbul edilmiş hər beş şikayətdən birində hüquq pozuntuları aşkar edilir və onların bərpası üçün müvafiq işlər görülür.

Bununla əlaqədar müvafiq hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinə həmin hüquq pozuntularını aradan qaldırmaq üçün tövsiyələr və müraciətlər göndərilir. Dövlət başçısı hər il ölkədə insan hüquqlarının vəziyyətinə dair məlumatlandırılır və bununla əlaqədar Baş nazirə, Ali Məhkəmənin sədrinə, Baş prokurora, Milli Məclisin palatalarına, nazirlərə və hakimlərə məktublar göndərilir. Son illər bu məsələlər əsasən inzibati hüquqa, ədalətə, prokuror nəzarətinə, milli insan hüquqları institutlarının inkişafına, məhkəmə qərarlarının icrasına, həssas qruplara, gənclərə dəstək olunmasına və sairə aid olmuşdur.

Ombudsman Qazaxıstan Respublikasını beynəlxalq səviyyədə təmsil edir – bunlara İnsan Hüquqları üzrə BMT Ali Komissarı, ATƏT və Milli İnsan Hüquqları İnstitutları üzrə Asiya-Sakit okean Forumu, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatları misal göstərmək olar.

Xarici həmkarların Ombudsman ilə əməkdaşlığı onlara Qazaxıstanda insan hüquqlarının vəziyyətinə dair obyektiv və qərəzsiz məlumatın əldə edilməsinə imkan yaradır, habelə Qazaxıstanda ayrı-seçkiliyin aradan qaldırılması, işgəncəyə qarşı mübarizə, uşaqların zorakılıqlardan qorunması, eləcə də korrupsiyaya qarşı mübarizə sahəsində ən yaxşı təcrübələrin öyrənilməsinə yardımçı olur.

Bu illər ərzində Qazaxıstan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili insan hüquq və azadlıqlarının qorunmasında, onların bərpa edilməsində dövlət orqanlarının və vətəndaş cəmiyyətinin əlaqə vasitəçisi kimi mühüm rol oynamışdır.

Ombudsman insan hüquqlarının pozulmasına dair şikayətlərə baxılması, dövlət orqanlarında monitorinqlərin həyata keçirilməsi, vəzifəli şəxslərə tövsiyələrin və müraciətlərin göndərilməsi kimi geniş mandatlara malikdir.

Bundan əlavə, baxmayaraq ki, Konstitusiya ədalət mühakiməsinə müdaxilə olunmasını qadağan edir, Ali Məhkəmənin qərarı məhkəmələrin hərəkətlərindən və qərarlarından bizə gələn şikayət barədə müntəzəm olaraq ona məlumat verilməsi ilə əlaqədar imkanlar yaradır.

Bizim səylərimiz ölkə rəhbərliyinin və cəmiyyətin diqqətini ictimai və siyasi həyatda geniş imkanlara malik olmayan şəxslərin yaşamasına, habelə sosial və əmək münaqişələrinin qarşısının alınması, uşaq hüquqlarının təmin edilməsi və bir çox başqa məsələlər cəlb etmişdir.

Bizim nailiyyətlərimiz, həmçinin beynəlxalq tərəfdaşların dəstəyi ilə həyata keçirilmişdir.

Qazaxıstanın Ombudsman Aparatı beynəlxalq tərəfdaşların xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə insan hüquqları institutlarının fəaliyyətində əvəzsiz təcrübə mənbəyidir. Öz növbəsində, Ombudsman - beynəlxalq ictimaiyyətin, vətəndaş cəmiyyəti və dövlətin qarşılıqlı əsas vasitəçisidir.

Əsas tərəfdaş İnsan Hüquqları üzrə Ali Komissar və onun Mərkəzi Asiyada yerləşən regional ofisidir.

İnsan Hüquqları üzrə Ali Komissarının rəhbərliyi ilə bir çox görüşlər keçirilmiş, konfranslar, təqdimatlar, seminarlar, treninqlər və digər tədbirlərin təşkil olunmuşdur.

Bundan əlavə, İşgəncələrin Qarşısının alınması üzrə Altkomitə Milli Preventiv Mexanizmlərin yaradılması və hazırlanması üzrə əvəzsiz dəstək həyata keçirmişdir.

Beynəlxalq vasitəçi komitələr və onun Cenevrədə yerləşən nümayəndəsi ilə əlaqələr kadr hazırlığı və təcrübə mübadiləsi, o cümlədən bizim Cenevrədə həmkarlar və xarici Ombudsmanların ofislərində təcrübə mübadiləsini gücləndirir.

Şübhəsiz ki, böyük əməkdaşlıq üçün əhəmiyyətli imkanlar vardır. Bu, xüsusilə UNICEF, ATƏT və Penal Reform International ilə artan əməkdaşlıq nəticəsində əldə olunmuş müsbət nəticələrlə sübut olunub.

Astanada ATƏT-in Ofisi ilə müəyyən edilmiş proqramlara gəldikdə isə biz xüsusilə, Ombudsman institutu gücləndirilməsi, əsasən vətəndaşların dövlət orqanlarına girişinin təmin edilməsində sahəsində layihələri realizə edirik.

Bununla yanaşı, son illərdə Qazaxıstanda milli insan hüquqları institutunun statusu xeyli gücləndirilmiş, xüsusilə Beynəlxalq Əlaqələndirmə Komitəsinin milli insan hüquqları təsisatlarının akkreditasiya edilməsi, Asiya-Sakit okean Forumuna qoşulması və İşgəncələrə qarşı Konvensiyanın Fakültativ Protokoluna altında Milli Preventiv Mexanizmin yaradılması haqqında Qanunun qəbul edilməsi olmuşdur.

Qeyd edilənlərlə əlaqədar Ombudsmanın fəaliyyəti ilə əlaqədar 4 kodeks, 4 qanun və müvafiq normativ hüquqi aktlar qəbul etmişdir.

Ombudsman komitəni koordinasiya edir və təlim tədbirlərini təmin edir.

Bu məqsədlər üçün Ombudsmanın yanında Koordinasiya Şurası yaradılmışdır. Açıq, ədalətli və ictimaiyyətə açıq şəkildə seçki yolu ilə üzvlər seçilir, onlara və onların fəaliyyətinə nəzarət edilir. Bu gün 15 regional qruplardan 102 nəfər iştirakçı vardır. Mandata 3000-dən artıq penitensiar sistemin xüsusi təşkilatları, daxili işlər, təhsil, müdafiə, milli təhlükəsizlik və ictimai səhiyyə monitorinqləri daxildir. Bu institutların əməkdaşları və minlərlə müvafiq dövlət orqanlarının əməkdaşlarının ümumi sayı, onların təhsili təşkilatın nəzarəti altındadır.

Bu rəqəmlər xüsusilə təşkilatın səmərəliliyinin təmin edilməsi kontekstində onun monitorinq keyfiyyəti təşkilatın üzvlərinin gücü və bacarıqlarını təmin edir.

Qazaxıstanın Ombudsmanı bütün müvafiq insan hüquqları məsələləri üzrə əməkdaşlıq etməyə hazırdır. Məsələn, Ombudsman institutunun gücləndirilməsi, əməliyyat imkanlarının inkişafı, işgəncələrin qarşısının alınması, korrupsiyaya qarşı mübarizə, həssas qrupların hüquqlarının müdafiəsi (əlillər, uşaqlar, qadınlar, kənd sakinləri), yaxşı idarəetmə sistemi və bir çox başqaları.

Astanada artıq ikinci ildir ki, Ombudsmanın monitorinqi üçün uşaq müəssisələri sahəsində təcrübələrin yayılması üçün Mərkəzi Asiya ölkələri, Norveç və Britaniyalı həmkarlarla yüksək səviyyəli görüşlər keçirilmişdir. Ulan-Batorda 2016-cı ilin avqust ayında keçirilmiş Asiya-Sakit okean Konfransı zamanı vətəndaş cəmiyyətinin üzvlərinin qapalı müəssisələrə daxil olmasında Ombudsmanın nəzarəti böyük marağa səbəb olmuşdur. Bakı konfransında Ombudsmanların dövlət qurumları ilə səmərəli əməkdaşlıq təcrübəsi müzakirə edilmiş, Praqada Silahlı Qüvvələr üçün Ombudsman Qurumlarının 7-ci Beynəlxalq Konfransında (7ICOAF) müdafiə müəssisələrində monitorinq təcrübələri öyrənilmişdir.

Əlbəttə ki, Qazaxıstanda insan hüquqları mexanizmlərinin fəaliyyəti BMT-nin təşkilatlarının diqqət çəkən məsələsi olmuşdur. Bu məsələ həmçinin 2010 və 2014-ci ildə Universal Dövri İcmal altında nəzərdən keçirilmişdir. İnsan Hüquqları Komitəsi, İşgəncələrə qarşı Komitə və BMT-nin digər təşkilatları öz tövsiyələrində Qazaxıstanı Ombudsman institutunun durmadan möhkəmləndirilməsinə, yerli səviyyədə müvafiq məsələlərin müzakirə edilməsinə çağırır.

Bir qayda olaraq, yuxarıda adları çəkilən orqanların bu tövsiyələri Ombudsmanın konstitusiya və ya qanunvericilik səviyyəsində statusunun gücləndirilməsi ilə əlaqədar olmuş, kifayət qədər büdcə vəsaitlərinin ayrılmasının tam təmin edilməsi, vəzifələrinin müstəqil və heç bir təsir olmadan həyata keçirilməsi, Ombudsmanın regional ofislərinin yaradılması, fərdi orqanlara dair Ombudsmanın səlahiyyətlərinin genişləndirilməsi Prezidentinin Fərmanına uyğun olaraq, hazırda onun yurisdiksiyasından kənardır.

Beynəlxalq təşkilatlar tərəfindən ölkəmizin insan hüquqları sisteminə diqqəti Qazaxıstan Respublikasında əvvəl çıxışımda qeyd edildiyi kimi ixtisaslaşdırılmış ombudsmanların, uşaq hüquqları üzrə qurumların, sığorta, bank və investisiya ombudsmanlarının, sahibkarların hüquqlarının müdafiəsi üzrə ombudsmanların yaradılmasına öz tövhəsini vermişdir.

Yuxarı qeyd etdiklərimi ümumiləşdirərək qeyd etmək olar ki, ölkəmizdə insan hüquqlarının mexanizmləri var, onların hüquqi fəaliyyəti təkmilləşdirilir, ixtisaslaşdırılmış Ombudsmanlar şəbəkəsi genişləndirilir, qeyri-hökumət təşkilatları aktiv fəaliyyət göstərir.

Qazaxıstan Ombudsman institutunun yaradılması ilə əsas milli insan hüquqları institutu kimi dövlət orqanlarının fəaliyyətinə əlavə nəzarəti həyata keçirməkdə davam edir. Ənənəvi alətlər kifayət etmədikdə, hər bir halda sonuncunu qabaqlamır və ya əvəz etməyərək ona xas insan hüquqlarının qorunması və inkişafı kimi öz funksiyalarını yerinə yetirir.

Hörmətli iclas iştirakçıları!

Qazaxıstan Respublikasında Ombudsmanı dövlət proqramlarının həyata keçirilməsində iştirakı üzrə ölkənin siyasi və hüquq sistemində mühüm rol oynayır.

Eyni zamanda, bu gün dövlət və cəmiyyət Ombudsmanın keyfiyyətcə yeni rolunu qarşıya hədəf qoyur. Bu, hər şeydən əvvəl bundan sonra onun beynəlxalq standartlara uyğun olaraq dinamik və stabil cəmiyyətin və dövlətin davamlı inkişafı kimi institusional və hüquqi cəhətdən daha da gücləndirilməsi deməkdir.

Bununla əlaqədar:

10 mart 2017-ci il tarixdə Qazaxıstan Respublikasının Prezidenti "Qazaxıstan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" qanun lahiyəsini imzalamışdır. Konstitusion reform Prezidentdən Parlamentədək hakimiyyəti bölüşdürülməsini yenidən nəzərdə tutmuşdur və bu cəmiyyətdə demokratik proseslərin inkişafının, siyasi sistemin daha da modernləşdirilməsinin göstəricisidir.

Ən əhəmiyyətli dəyişikliklərdən biri də, hakimiyyət bölüşdürülməsi nəzərdə tutulmuş və Qazaxıstan Respublikasının Prezidentinin Qazaxıstan Parlament Senatına verilən təqdimatı ilə Ombudsmanın vəzifədən təyin və azad edilməsidir.

Ombudsman statusunun Konstitusiya səviyyəsində müəyyən edilməsi insan və vətəndaşların hüquq və azadlıqlarının milli səviyyədə təmin edilməsini, eləcə də Ombudsman rolunu siyasi-hüquqi səviyyədə gücləndirir.

Bu qərar müvafiq beynəlxalq təcrübəyə uyğundur və Qazaxıstan parlamentinin rolunun gücləndirilməsini, ölkədə demokratik islahatların həyata keçirilməsini və insan və vətəndaş hüquqlarının və azadlıqlarının prioritet kimi tanınmasını bir daha sübut edir.

Diqqətinizə görə minnətdaram.

**Tədbirin yekunlarına dair iclas**

*Sədrlik edir: Azərbaycan Respublikasının*
*Baş prokuroru cənab Zakir QARALOV*

Hörmətli tədbir iştirakçıları!
Xanımlar və cənablar!

Tədbirə ev sahibliyi edən ölkənin nümayəndə heyətinin rəhbəri kimi Azərbaycan hökumətinin adından İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının Azərbaycanda keçirilən 3-cü iclasında iştirakınızla əlaqədar Sizlərin hər birinə öz dərin təşəkkürümü bildirirəm. Hesab edirəm ki, tədbir



müddətində keçirilmiş müzakirələr, eləcə də nümayəndə heyətləri arasında baş tutmuş ikitərəfli görüşlər səmərəli olmuş, korrupsiya kimi təhlükəli bir fenomenə qarşı mübarizə sahəsində ölkələrimizin müsbət təcrübə və biliklərinin mübadiləsi, bu istiqamətdə səylərinin birləşdirilməsi, həmçinin ümumi məqsədimiz olan korrupsiya və digər bənzər neqativ hallardan azad cəmiyyətlərin qurulması işinə öz töhvəsini vermişdir.

Qeyd edilənlərlə yanaşı, bugünkü bağlanış mərasimində 3 məsələyə diqqət yetirilməsi zəruridir. İlk olaraq, İqtisadi Əməkdaşlıq Təşkilatının

Katibliyi tərəfindən hazırlanmış Təşkilatın hesabatı dinləniləcəkdir.

Hesabatın təqdim edilməsi məqsədilə İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini cənab Ələviyə söz verirəm.

**Hesabat İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini cənab Ələvi Səbzivari tərəfindən səsləndirildi.**

*cənab Zakir QARALOV*
*Azərbaycan Respublikasının Baş prokuroru*

Bağlanış mərasimi ilə əlaqədar gündəlikdə duran ikinci məsələ hazırki tədbirin yekunlarını əks etdirən Bakı Bəyannaməsinin qəbul edilməsi ilə bağlıdır. Bəyannamənin mətni müxtəlif dillərdə tədbir iştirakçılarına təqdim edilmiş və iştirakçıların onu nəzərdən keçirmək imkanı olmuşdur. İndi isə Bakı Bəyannaməsinin mətni səsləndiriləcəkdir:

**İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclası**

**07 iyun 2017-ci il**
**Bakı, Azərbaycan**

**Bakı Bəyannaməsi**
**ECO-ya üzv dövlətlər arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında**

İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin Korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərləri və Ombudsmanların 3-cü iclası06-07 iyun 2017-ci il tarixlərində Bakı şəhərində keçirilmiş 3-cü iclasının iştirakçıları iclasın yekunu olaraq bəyan edirlər ki,

ECO regionunda korrupsiyanın bütün formalarına qarşı təsirli cavab tədbiri kimi korrupsiyaya qarşı mübarizədə regional əməkdaşlığın əhəmiyyətini bir daha təsdiq edərək,

ECO-ya üzv olan bütün dövlətlərin tərəf olduğu BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının milli anti-korrupsiya qurumları vasitəsi ilə regional və beynəlxalq səviyyədə əməkdaşlığın gücləndirilməsini tövsiyə etdiyini nəzərə alaraq;

Korrupsiyanın bütün formaları ilə mübarizə istiqamətində İzmir Müqaviləsi, Kvetta Fəaliyyət Planı və digər ECO sənədlərində nəzərdə tutulmuş ümumi məqsədlərə nail olunmasında Üzv Dövlətlər arasında əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayaraq,

Ombudsman konsepsiyasının təşviqi və Ombudsmanın vəzifələrinin icrasında peşəkarlığın artırılması məqsədi ilə müvafiq tədbirlərin görülməsi zərurətinə diqqəti cəlb edərək;

Korrupsiyaya qarşı mübarizə ilə bağlı regional və beynəlxalq tədbirlərdə qarşılıqlı əməkdaşlığın, o cümlədən regional və beynəlxalq əməkdaşlığın təşviq edilməsinin, dəstəklənməsi və sürətləndirilməsinin, korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizəyə, eləcə də ombudsmanlığa texniki yardımın təmin edilməsinin əhəmiyyətini etiraf edərək;

n regional platformanın mövcudluğuna zərurəti vurğuladılar, bu məqsədlə Antikorrupsiya təşkilatları və Ombudsmanların əməkdaşlığı üzrə ECO-nun regional mərkəzinin nizamnaməsinin bütün üzv dövlətlər tərəfindən imzalanması və təsdiq edilməyə çağırdılar;

1. İƏT regionunda korrupsiyaya qarşı mübarizə sahəsində regional əməkdaşlığın güclənməsinə böyük maraqlarını vurğuladılar. Bu məqsədlə antikorrupsiya qurumlarını və Ombudsmanları öz aralarında tədbirlərin əlaqələndirilməsinə və əməkdaşlığın gücləndiriməsinə təşviq etdilər;

2. İƏT-ə üzv ölkələrin korrupsiyanın doğurduğu problemlərin və onların həlli yollarına dair tədqiqatların aparılmasını və onların həlli yollarının öyrənilməsi ilə təcrübə mübadiləsi aparmağa, o cümlədən Ombudsmanların fəaliyyətini dəstəkləməyə və inkişaf etdirməyə dəvət etdilər;

3. Korrupsiyaya qarşı mübarizədə əməkdaşlığın ümumi standartlarının inkişaf etdirilməsinin zəruriliyini tanıdılar;

4. Antikorrupsiya xidmətləri və Ombudsmanlar arasında əməkdaşlığın gücləndirilməsi üçün regional platformanın mövcudluğuna zərurəti vurğuladılar, bu məqsədlə Antikorrupsiya təşkilatları və Ombudsmanların əməkdaşlığı üzrə İƏT-in regional mərkəzinin nizamnaməsinin bütün üzv dövlətlər tərəfindən imzalanması və təsdiq edilməsinə çağırdılar;

5. Korrupsiyaya qarşı mübarizə tədbirlərinin qanunun aliliyinin təmin edilməsi istiqamətində effektivliyin əsas göstəricisi olmasını və bu sahədə elmi tədqiqatlar, peşəkar təlimlər və texniki dəstəyin cinayətlərin qarşısının alınması və cinayət mühakimə sisteminin əsası kimi qəbul edilməsinin zəruriliyini xatırladır;

6. Korrupsiya ilə mübarizə sahəsində məlumat, bilik və təcrübə mübadiləsini həyata keçirmək məqsədilə ixtisaslaşmış regional konfransların təşkil edilməsini alqışlayır;

7. Üzv Dövlətləri korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq indekslərdə onların göstəricilərinin yüksəldilməsi və korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə öz resursları daxilində hökumət və qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyətinin fəal iştirakının təmin edilməsinə dəvət etdi;

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclasına yüksək səviyyədə ev sahibliyi etdiyi və Azərbaycanın korrupsiya ilə mübarizə sahəsində həyata keçirdiyi ən son təşəbbüslərlə tanış olmaq istiqamətində çoxşaxəli imkanlar təmin etdiyi üçün Azərbaycan Respublikasına səmimi təşəkkürlərini bildirirlər. Eyni zamanda iclas iştirakçıları görüşün sədri cənab Zakir Qaralova müzakirələr zamanı öz səmərəli rəhbərliyinə görə, İƏT katibliyinə təşkilati işlərin yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edir.

***cənab Zakir QARALOV***
***Azərbaycan Respublikasının Baş prokuroru***

Gündəlikdə duran üçüncü və sonuncu məsələ isə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının növbəti - 4-cü iclasının yeri və tarixinin müəyyən edilməsi ilə bağlıdır.

Hesab edirəm ki, növbəti iclasın yeri və vaxtı barədə müzakirələr diplomatik kanallar vasitəsilə davam etdirilə bilər, odur ki, bununla bağlı iştirakçılara yaxın gələcəkdə əlavə məlumatlar veriləcəkdir.

Hörmətli qonaqlar!
Dəyərli tədbir iştirakçıları!

Sonda bir daha İqtisadi Əməkdaşlıq Təşkilatının rəhbərliyinə bu tədbirin məhz Azərbaycanda keçirilməsi təşəbbüsünə görə, həmçinin görüş iştirakçılarının dəvətimizi qəbul edib ölkəmizə təşrif buyurmasına görə minnətdarlığımızı bildirir, Sizləri ölkəmizdə qonaq etməkdən məmnunluğumuzu qeyd edirik. Mən bir daha Sizləri iclasın uğurla baş tutması münasibətilə təbrik edir, korrupsiyaya qarşı mübarizə sahəsində gələcək fəaliyyətinizdə uğurlar arzu edir, ölkələrimizə sabitlik, inkişaf və dostluq münasibətlərinin davam etdirilməsini diləyirəm.

Bununla da İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının 3-cü iclasını bağlı elan edirəm.

Təşəkkürlər!

## SONUNCU HESABAT

1. İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü İclası 6-7 iyun 2017-ci il tarixində Bakıda Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi və Ombudsmanlığı tərəfindən təşkil edilmişdir. Tədbirdə bütün ECO Üzv Dövlətlərindən olan nümayəndə heyətləri iştirak etmişdir. Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP), Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) və Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) nümayəndələri də İclasda iştirak etmişdir. ECO baş katibinin müavini tərəfindən rəhbərlik edilən ECO katibliyinin nümayəndə heyəti İclasda iştirak etmişdir. İştirakçıların siyahısı "Əlavə-1" kimi əlavə olunmuşdur.

İclasın təntənəli açılışı

2. İclas Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralov tərəfindən və ECO Baş Katibinin müavini cənab Seyed Cəlalədin Ələvi Səbzivari tərəfindən birlikdə təntənəli surətdə açılmışdır.

3. Açılışda Azərbaycan Respublikasının Prezidenti Administrasiyanın rəsmisi cənab Fuad Ələsgərov ECO Üzv Dövlətlərin Ombudsmanlarının və Korrupsiyaya qarşı Mübarizə Qurumlarının Rəhbərlərinin 3-cü İclasında iştirakına görə ECO Üzv Dövlətlərinə, regional və beynəlxalq təşkilatlara/müəssisələrə və ECO Katibliyinə öz minnətdarlığını bildirmişdir. Azərbaycan Respublikasının Prezidemtinin salamlarını iştirakçılara çatdıraraq o, qeyd etmişdir ki, Prezident 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etdiyinə görə Azərbaycan Respublikası müsəlman ümmətinə xüsusi diqqət yetirir. Bundan əlavə, o, qardaşlıq əlaqələrinin müsəlman aləminə təzahürü kimi 4-cü İslam Oyunlarına uğurlu ev sahibliyi edildiyini vurğulamışdır. ECO-nun fəal üzvü olaraq Azərbaycan Respublikası iki ECO sammitinə ev sahibliyi etmiş və 2012-ci ildən 2017-ci ilə qədər ECO-ya sədrliyi öz üzərinə götürmüşdür. O, həmçinin İclasın regional əməkdaşlığın möhkəmləndirilməsinə töhvə verəcəyinə əminliyini ifadə etmişdir.

4. İştirakçıları Bakıda qarşılayarkən Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralov korrupsiyaya qarşı mübarizə aparmaq və ombudsmanlar arasında fəaliyyətlərə yardım göstərmək üçün ECO Üzv Dövlətlər arasında əməkdaşlığın artırılmasının önəmini vurğulamışdır. O, bütün dünyadakı cəmiyyətlərdə korrupsiya fəaliyyətlərinin qarşısını almaq üçün ECO Regionunda tam və praqmatik yolları və vasitələri qəbul etməyə olan ehtiyacı vurğulamışdır. İclas korrupsiya şərinin aradan qaldırılması üzrə gələcək iş planlarının hazırlaması üçün mövcud mexanizmlərdən istifadə məqsədi ilə geniş imkanları təmin edəcəyinə ümidini ifadə etmişdir. Bu tapşırıq, nəticə etibarı ilə korrupsiya halına qarşı mübarizə aparmaq üçün regionun insanlarını davamlı iqtisadi inkişaf və irəliləyiş ilə təmin edən əlaqədar ombudsmanları və digər agentlikləri gücləndirməyə yol açacaqdır. Onun bəyanatının surəti Əlavə-2 kimi əlavə olunmuşdur.

5. Öz giriş nitqində cənab Seyed Cəlalədin Ələvi Səbzivari Azərbaycan Respublikasının Hökumətinə, xüsusilə də Baş Prokurorluğa, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə və Ombudsmana bu mühüm iclasa ev sahibliyi etdiyinə görə, o cümlədən səmimi qonaqpərvərliyə və nümayəndə heyətinə mükəmməl töhfələrinə görə öz dərin minnətdarlığını və ehtiramını ifadə etmişdir.

6. ECO Baş Katibinin Müavini ECO-nun profili barədə və əvvəlki İclaslarında ECO Üzv Dövlətləri tərəfindən razılıq verilən Korrupsiyaya qarşı Mübarizə Agentliklərinin və Ombudsmanlarının Əməkdaşlığı üçün ECO Regional Mərkəzinin (RCCACO) yaradılması barədə qısa məlumat vermiş və korrupsiyaya qarşı mübarizə ilə bağlı qeyd edilənlər də daxil

olmaqla, aydın ECO regional siyasətləri və fəaliyyətləri formalaşdırmaqda regional əməkdaşlığın möhkəmləndirilməsindəki son inkişafı qısaca təsvir etmişdir. Onun bəyanatının surəti "Əlavə-3" kimi əlavə olunmuşdur.

7. Azərbaycan Respublikasının Ombudsmanı xanım Elmira Süleymanova həmçinin iştirakçıları salamlamış və Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığını vurğulamış və demişdir ki, onun ölkəsi ictimai müzakirələrlə anti-korrupsiya tədbirlərini nəzərə alaraq və bir sıra qeyri-hökumət təşkilatlarının (QHT) qarşılıqlı əlaqəsini qiymətləndirərək Açıq Hökumətin Təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planını tərtib etmişdir. Azərbaycan Respublikası inkişaf sektorunda korrupsiyaya üstün gəlmək üçün mühüm rol oynayan preventiv idarəetmə tədbirlərinə ehtiyacı zəruriləşdirən korrupsiyadan çox əziyyət çəkmişdir. Azərbaycanın korrupsiyaya cavabı effektivliyi vətəndaşlar tərəfindən qiymətləndirilən ASAN formasındadır. O qeyd etmişdir ki, ECO Üzv Dövlətləri uğurlu ASAN təcrübəsini öz ölkələrində nümunə götürərək ondan faydalana bilərlər.

8. Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) dekanı və icraçı katibi cənab Martin Kreutner, həmçinin açılışda qeydlər etmiş və qısaca vurğulamışdır ki, IACA kompleks, sektorarası və beynəlxalq yanaşma yolu ilə hərtərəfli korrupsiya bəlasını həll etmək üçün təsis edilmişdir. IACA korrupsiyaya qarşı mübarizə sahəsində və əməl edilmə, təhsil və potensialın artırılması sahəsində işləmək üçün müxtəlif beynəlxalq orqanlar və başqaları tərəfindən tanınmışdır. O, 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Sammitində Pakistandan olan Nobel Mükafatı laureatı gənc xanım Malala Yousafzainin "Təhsil ümiddir, təhsil sülhdür" sözlərinə istinad etmişdir. O, təsdiq etmişdir ki, IACA gündəlikdə duran bu vacib məsələdə iştirakını davam etdirir və partnyorları ilə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyir.

Gündəlikdə duran Məsələ № 2
Sədrin seçilməsi

9. ECO prosedur qaydalarına əsasən, Azərbaycan Respublikasının Baş prokuroru Z.A. Cənab Zakir Qaralov yekdilliklə İclasın Sədri seçilmişdir.

Gündəlikdə duran Məsələ № 3
Gündəlikdə duran 3 saylı Məsələnin Qəbul edilməsi

10. İclas Əlavə-4-ə əlavə olunan gündəlikdə duran məsələni yekdilliklə qəbul etmişdir.

Gündəlikdə duran Məsələ № 4:
ECO üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının Birinci və İkinci İclaslarının Qərarlarının Yerinə yetirilməsi barədə ECO Katibliyi tərəfindən verilən Hesabat

11. ECO Dərman vasitələrinin qanunsuz dövriyyəsinin və Mütəşəkkil Cinayətkarlığa qarşı Koordinasiya İdarəsinin (ECO-DOCCU) Proqram rəhbəri cənab Raheel Ahmad Cheema son iki iclasda qəbul edilən qərarlar barədə və Korrupsiyaya qarşı Mübarizə Agentliklərinin və Ombudsmanların Əməkdaşlığı üzrə ECO Regional Mərkəzinin (RCCACO) Nizamnaməsi barədə son irəliləyişlər haqqında iştirakçılara qısaca məlumat vermişdir. O, qeyd etmişdir ki, ilk İclas 21-22 may 2011-ci il tarixində Tehranda keçirilmişdir və Korrupsiyaya qarşı Mübarizə Agentliklərinin və Ombudsmanların Əməkdaşlığı üzrə ECO Regional Mərkəzinin (RCCACO) təsis edilməsinə qərar verilmişdir. İclas, həmçinin bu Mərkəzin struktur işlərini tamamlamaq üçün ekspert qrupunun iclasını keçirməyə qərar vermişdir. İran İslam Respublikası Tehranda təklif olunan Müvəqqəti Katibliyi lazimi maddi xərclərlə təmin etməyi təklif edir. O, həmçinin, əlavə edir ki, Mərkəzin Əsasnaməsi üç ölkə - Əfqanıstan, İran və Tacikistan tərəfindən imzalanıb. İran əsasnaməni təsdiq edən ilk ölkə olub. Pakistan İslam Respublikası və

Qırğızıstan Respublikası isə sonradan Mərkəz Əsasnaməsinə qoşulmağa hazır olduqların bildirib. O, Mərkəzə daxil olmaq haqqında əlavə məlumat da verdi və sənədi imzalayan dövlətlərə Əsasnamənin ratifikasiyasının daxili qanunvericilik proseslərinin son vəziyyəti haqqında Katibliyə məlumat verməyi təklif etdi. Mərkəz 4 üzv dövlətin ratifikasiyasından sonra rəsmiləşəcək.

Gündəlikdə duran Məsələ № 5
Nümayəndə Heyətinin məruzələri / hesabatları

12. Heyət başçıları görüşə ev sahibliyi etdiyi üçün Azərbaycan Respublikasına təşəkkür edərək təşkil olunmuş transmilli cinayətlərlə mübarizə ilə bağlı öz milli siyasət və tədbirlərini əks etdirən əsasnamələri təqdim etdilər. Onlar, həmçinin, İƏT üzv dövlətləri arasında ədliyyə əməkdaşlığının inkişafı üçün mexanizmlərin yaranmasına ehtiyyac olduğunu vurğuladılar. Əsasnamələrin surətləri "Əlavə-5" kimi əlavə olunub.

Gündəlikdə duran Məsələ № 6
Korrupsiya ilə mübarizədə beynəlxalq və regional mexanizmlər

13. İƏT üzv dövlətlərinin yüksək vəzifəli rəsmiləri və Ombudsmanları ölkələrinin korrupsiya ilə mübarizə siyasətlərini və proqramlarını əks etdirən əsasnamələrini təqdim etdilər və milli, regional, eləcə də qlobal səviyyələrdə bu məsələlərin həllinə dair fəaliyyət planları,o cümlədən sinerji regional siyasətlərin hazırlanmasına ehtiyac olduğunu vurğulayıblar. Əsasnamələrin surətləri "Əlavə-6" kimi əlavə olunub.

14. Görüşdə korrupsiya əleyhinə mübarizə ilə bağlı qabaqlayıcı tədbirlər və bu mübarizədə Ombudsmanların rolu uzun müddət müzakirə olundu. Dövlətlərin milli müəssisələrinin yaradılması tarixindən danışıldıqdan sonra Ombudsmanlar bildirdi ki, onların müəssisələrinin əsas hədəfi insan hüquq və azadlıqları, yoxsulların və dövlət məmurlarının pis rəftarlarına məruz qalmış ehtiyacı olan insanların sosial rifahını təmin etməkdir. Həmçinin onlar dövlətlərinin qabaqlayıcı tədbir kimi qəbul etdiyi təcrübə və fikirləri bölüşdülər. Bu da vurğulandı ki, insan hüquq və azadlıqlarının qorunub saxlanılmasında Ombudsman müəssisələrinin mühümlüyü İƏT-in bir çox üzv dövlətlərinin hələ demokratiyanın keçid mərhələsində olması faktını nəzərə aldıqda böyük əhəmiyyət kəsb edir. Təqdimatın surəti "Əlavə-7" kimi əlavə edilib.

15. İƏT-in Baş Katibinin müavini nümayəndələrə bildirdi ki, İƏT üzv dövlətlərinin vəkil və baş prokurorlarının 2015- ci il Antalyada təşkil olunmuş görüşündə sərhədsiz cinayətlər əleyhinə mübarizədə regional əməkdaşlığı genişləndirmək üçün mümkün yol və vasitələr müzakirə edildi. Vəkillər / Baş Prokrorlar transmilli cinayətlərlə mübarizədə ilkin şərt kimi qarşılıqlı hüquqi yardımla bağlı hərtərfli regional əməkdaşlıq prinsiplərinin yaradılmasının nəzərdə tutulduğunu bildirdilər və həmçinin qərar verdilər ki, qeyd edilmiş fikri həyata keçirməklə bağlı konkret tədbirlər üzərində işləmək üçün mütəxəssislərin qrup görüşü təşkil edilməlidir. Mütəxəsislərin qrup görüşünün nəticələrinin İƏT Katibliyi tərəfindən həyata keçirilməsinə görə Vəkillər / Baş prokurorların 3-cü yığıncağında əlavə qeyd və yekun qərarlar üçün təqdim edilməlidir.

16. Geniş müzakirələrdən sonra yığıncaqda aşağıdakı əsas tövsiyələr irəli sürüldü:
İƏT üzv dövlətləri etməlidir :

a) Korrupsiya qarşı mübarə Agentlikləri və Ombudsmanların Əməkdaşlığı üzrə Regional Mərkəzin əsasnəmələrinin imzalanması / təsdiqlənməsi üçün milli prosedurların həyata keçirilməsinə köməklik göstərmək ;
b) Qlobal korrupsiya indekslərində dövlətlərin mövqelərinin möhkəmləndirilməsi üçün əməkdaşlıq etmək ;
c) Korrupsiya əleyhinə mübarizədə qabaqlayıcı tədbirlərlə bağlı birgə fəaliyyət göstərmək üçün razılaşmaq ;

d) Korrupsiya cinayətlərinin törədilməsində şübhəli/təqsiləndirilən şəxslər barəsində cinayət məsuliyyətinə cəlb edilmələri və ya cəzanın icrası məqsədi ilə qırmızı xətlə axtarış verilməsi ;

e) Korrupsiyanın formaları və qabaqlayıcı tədbirlər haqqında ictimaiyyətdə məlumatlılığı artırmaq ;

f) Regional səviyyədə təkmilləşdirilmiş təlimlərin həyata keçirilməsi üçün korrupsiya əleyhinə akademiya yaratmaq ;

g) Tədqiqat və axtarışların həyata keçirilməsində İƏT-in korrupsiya əleyhinə qurumlarının bazasından faydalanmaq ;

h) Regional yanaşmanın təşkil olunmasında yaradılan anti-korrupsiya strategiyaları üzrə ixtisaslaşmaq və bacarıqları mübadilə etmək ;

17. Görüşdə İƏT Katibliyinin bütövlükdə region və üzv dövlətlərin təlim ehtiyacları və potensialın gücləndirilməsinə yönəldilmiş Beynəlxalq Anti-Korrupsiya Akademiyası da daxil olmaqla müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıqları nəzərdən keçirməsi təklif olundu. Görüşdə, həmçinin Beynəlxalq Anti-korrupsiya Akademiyasına (IACA) İƏT regionu üzrə akademiyanın yaradılması məsələsini nəzərdən keçirməsi təklif olundu.

Gündəlikdə duran Məsələ № 7
Digər işlər:
Korrupsiya Əleyhinə Agentliklər və Ombudsmanların Əməkdaşlığı üzrə Regional Mərkəzin əsasnaməsinin oxunması mərasimi

18. Xüsusi mərasimdə İƏT-in Korrupsiya Əleyhinə Agentliklər və Ombuds-manların Əməkdaşlığı üzrə Regional Mərkəzinin əsasnaməsi Pakistan İslam Respublikasının prezdenti cənab Zahir Şah tərəfindən imzalandı. Azərbaycan Respublikası əsasnaməni milli prosedurları yekunlaşdırdıqdan sonra imzalayacağını bildirdi.

Gündəlikdə duran Məsələ № 8
Növbəti görüşün yeri və tarixi

19. Görüşdə İƏT Katibliyinə üzv dövlətlərlə məsləhətləşərək "İƏT üzv dövlətlərinin Anti-Korrupsiya təşkilatının rəhbərlərinin dördüncü görüşü"nə ev sahibliyi edəcək dövlətin müəyyənləşdirməsi tapşırıldı. Uyğun olaraq, görüşün dəqiq tarixi və yeri üzv dövlətlərə vaxtı gələndə bildiriləcəkdir.

Gündəlikdə duran Məsələ № 9
Yekun protokol və bəyannamənin qəbulu

20. Görüşdə "İƏT üzv dövlətləri arasında Anti-korrupsiya üzrə Bakı Bəyannaməsi " ilə yanaşı protokol da qəbul edildi. Bəyannamənin surəti "Əlavə-7" kimi əlavə olunub.

Gündəlikdə duran Məsələ № 10
Yekun nitq
21. İştirakçılar sədrə görüşü peşəkar şəkildə keçirdiyinə görə təşəkkürlərini bildirdilər. Nümayəndələr, həmçinin, Azərbaycam Respublikası hökümətinə, xüsusilə də Azərbacan Respublikasının Baş Prokurorluğuna, Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası və Ombudsmanına bu mühüm görüşü təşkil etdiklərinə, qonaqpərvərlik və mükəmməl təşkilatçılığa görə dərin minnətdarlıqlarını bildirdilər.

22. Sədr və üzv dövlətlər müvafiq sənədləri hazırladıqlarına və görüşün təşkilində göstərdikləri digər dəyərli xidmətlərinə görə İƏT katibliyinə də təşəkkürləri bildirdilər.

# ZİYARƏTLƏR

**İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının 3-cü görüşünün iştirakçıları Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər**



İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının 3-cü görüşünün iştirakçıları iyun ayının 6-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə tər güllər düzülmüşdür.

Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri düzmüş, “Əbədi məşəl” abidəsinin önünə əklil qoymuşlar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir.



# ZİYARƏTLƏR

**Beynəlxalq tədbirin iştirakçıları Bakıdakı 5 saylı «Asan xidmət» mərkəzindən zəngin təəssüratlarla ayrılıblar**



"Korrupsiyaya qarşı mübarizədə regional əməkdaşlıq" mövzusunda yüksək səviyyəli beynəlxalq konfransın iştirakçıları cari ilin iyun ayının 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakıdakı 5 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olublar.

Dövlət Agentliyinin aparat rəhbəri Azad Cəfərov qonaqları "ASAN xidmət"in fəaliyyəti barədə məlumatlandırıb. Bildirilib ki, Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində müvafiq hüquqi baza formalaşdırılıb, əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıb. Prezidentin Fərmanı ilə "ASAN xidmət" mərkəzləri yaradılıb. Qeyd edilib ki, 5 saylı "ASAN xidmət" mərkəzi 2015-ci ilin iyun ayının 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə açılıb.

Bildirilib ki, "ASAN xidmət" mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, "bir qapı" prinsipinin tətbiq olunması, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin - "dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasıdır. "ASAN xidmət" mərkəzinin əsas prinsipləri operativlik, şəffaflıq, nəzakət, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıqdır. Bununla yanaşı, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri öz fəaliyyətini yüksək standartlara uyğun quran və inkişaf etdirən dövlət orqanı qismində "Vahid məkan" prinsipinə əsaslanan qurumlardandır.



Diqqətə çatdırılıb ki, “ASAN xidmət” mərkəzlərində bir sıra dövlət orqanı tərəfindən çoxsaylı dövlət xidmətləri göstərilir. Eyni zamanda, mərkəzlərdə bir sıra funksional yardımçı xidmətlər təşkil edilib. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.



“ASAN xidmət” təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir və bu təcrübə Azərbaycan modeli kimi xüsusi təqdim olunur. Odur ki, “ASAN xidmət”in təkcə Azərbaycanda deyil, uğurlu model olaraq digər ölkələrdə də tətbiqi təşviq edilməkdədir. Bu istiqamət müxtəlif beynəlxalq tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə aparılan əməkdaşlığın əsas prinsiplərindən birini təşkil edir. Geniş marağın nəticəsidir ki, “ASAN xidmət” İSO 9001:2008 standartı üzrə keyfiyyətin idarə olunması ilə bağlı beynəlxalq dərəcəli sertifikata layiq görülüb.

Qonaqlara özünəxidmət köşkləri, “ASAN ödəniş” sistemləri barədə məlumat verilib. Bildirilibdir ki, məmur və vətəndaş arasında təmas və dialoqun minimallaşdırılmasında özünəxidmət köşkləri mühüm rol oynayacaqdır. Bunun üçün köşklər biometrik məlumatların götürülməsi, ödənişlərin nağd və plastik kartlar vasitəsilə aparılması imkanı ilə təmin ediləcəkdir. Bu il fevralın 11-də dövlət başçısının imzaladığı Fərmana əsasən “ASAN ödəniş” sisteminin hazırlanması üzrə planlı işlər görülüb. Bu sistem vətəndaş ilə dövlət orqanı əməkdaşı arasında birbaşa təması istisna edir, şəffaflığı və operativliyi təmin edir, korrupsiya və digər mənfi halların qarşısını alır.

Bildirilib ki, vətəndaşların və ölkəmizə gələn qonaqların məlumat əldə etmələri üçün hazırlanan “HELP POİNT” sistemində istirahət zonaları, gəzməli yerlər, restoranlar, dövlət qurumları, “ASAN xidmət” mərkəzləri haqqında informasiyalar və digər zəruri məlumatlar toplanıbdır.

Qeyd olunub ki, “ASAN xidmət” mərkəzində videomüşahidə kameraları və rüsumların məbləğlərini əks etdirən tablo quraşdırılıb. Vətəndaşlar mərkəzdən “108 Çağrı” mərkəzinə zəng edərək, canlı videobağlantı vasitəsilə xidmətdən yararlanıb razılıqlarını, təkliflərini, müraciətlərini bildirmək imkanı qazanırlar.

Konfrans iştirakçıları Azərbaycan brendi olan bu nadir təcrübə ilə tanışlıqdan məmnunluqlarını bildirərək, “ASAN xidmət” mərkəzindən zəngin təəssüratla ayrılıblar.

**Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatları rəhbərlərinin və ombudsmanlarının 3-cü görüşünün iştirakçıları Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin binası ilə tanış olublar**



Cari ilin 7 iyul tarixində konfrans iştirakçıları Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında yaradılan şəraitlə tanış olublar.

Baş İdarə rəisi Kamran Əliyev qonaqlara məlumat verib ki, 5 və 7 mərtəbəli iki korpus, habelə üçmərtəbəli yardımçı bina və yeraltı qarajdan ibarət olan kompleksin ətrafında yeni park salınıb, fəvvarələr quraşdırılıb.

Bildirilib ki, 100 və 250 nəfərlik konfrans zallarında müxtəlif treninqlər, seminarlar və beynəlxalq tədbirlər, mətbuat konfransları, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları ilə görüşlər, “dəyirmi masa”lar, maarifləndirici tədbirlər və təqdimatlar keçirilir. Burada əməliyyatların idarə edilməsi mərkəzi də yaradılıb. Mərkəzdə Baş İdarə tərəfindən həyata keçirilən əməliyyat tədbirlərinin birbaşa rejimdə idarə edilməsi mümkündür.

Qonaqlara məlumat verilib ki, korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirə salınmadan çatdırılması və operativ baxılmasının təmin edilməsi məqsədilə yaradılan “161” nömrəli “Qaynar xətt” əlaqə mərkəzinin fəaliyyəti təkmilləşdirilib. Artıq daxil olan zənglərin görmə funksiyasını əks etdirən monitorlar vasitəsilə qəbulu yeni proqram təminatı ilə həyata keçirilir ki, bu da korrupsiyaya daha çox məruz qalan sahələrin müəyyən edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün təhlillər aparmağa imkan yaradır.

Tədbir iştirakçıları korrupsiya cinayətlərinin qarşısının alınması və aşkarlanması istiqamətində əməliyyat-axtarış fəaliyyətinin uğurla həyata keçirilməsi məqsədilə elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini özündə birləşdirən zəruri avadanlıq, müasir texniki vasitələrlə təchiz edilmiş otaqlarla tanış olublar. Kriminalistika otağında müxtəlif kateqoriyadan olan korrupsiya cinayətlərinin istintaq metodikasına dair məlumatları əks etdirən lövhələr, əyani vəsaitlər quraşdırılıb. Bundan əlavə, binada vətəndaşların qəbul otağı yaradılıb, oraya müasir elektron məlumat daşıyıcıları, o cümlədən məlumat köşkü qoyulubdur. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq binaya əlillərin daxil olmaları üçün qaldırıcı qurğu quraşdırılıb.

Qonaqlar Baş İdarənin istifadəsində olan xüsusi avtomobillərə də baxıblar. Qeyd olunubdur ki, xüsusi avadanlıqla təchiz edilən kriminalistik avtomobillərdə istintaq və əməliyyat tədbirlərinin həyata keçirilməsi üçün zəruri şərait yaradılıb.



## GÖRÜŞLƏR









# GÖRÜŞLƏR





# GÖRÜŞLƏR





# GÖRÜŞLƏR





## GÖRÜŞLƏR



## QONAQLARIN QARŞILANMASI VƏ YOLA SALINMASI MƏRASİMİ









**Azərbaycan Respublikasının Baş prokuroru**
**cənab Zakir Qaralova**

Zati-aliləri,

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclasına dəvətiniz və Azərbaycanda olduğum müddət ərzində göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı və razılığımı bildirmək istəyirəm.

Belə görüş və sessiyalar tərəfdaşlarımızın regionda korrupsiyaya qarşı mübarizə və ombudsmanların fəaliyyəti sahəsində səmimi əməkdaşlıq və inkişaf üçün əsas məqsədini göstərir. Bakı deklerasiyası öz hədəflərinə çatana kimi əlaqələrimizi davam etdirməyə və onu yerinə yetirməyə qərarlıyam.

Eyni zamanda, ümid edirəm ki, Nizamnamənin ratifikasiya edilməsi üçün daxili prosedurlar yekunlaşmaq üzərədir, həmçinin biz İran Baş Təftiş Təşkilatı ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu (Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi) arasında anlaşma memorandumunun imzalanmasından məmnun olardıq.

Bundan başqa mən tədbirin yüksək səviyyədə keçirilməsi üçün xüsusi səy göstərmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə dərin minnətdarlığımı çatdırıram. Onun təqdirəlayiq səyləri mənim xatirələrimdə qalacaq və növbəti proqramlar üçün gözəl nümunə olacaqdır.

Sonda mən öz həmkarlarımın minnətdarlığını diqqətinizə çatdırıram və bir daha fürsətdən istifadə edib Sizə və bütün əməkdaşlarınıza təşəkkür edirəm.

Dərin hörmətlə və yenidən görüşmək ümidi ilə,

**Naser Seraj,**
**İran İslam Respublikasının Baş Təftiş Təşkilatının sədri**

**13 iyun 2017-ci il**

## MİNNƏTDARLIQ MƏKTUBLARI

### İqtisadi Əməkdaşlıq Təşkilatının Baş Katibliyi

**cənab Zakir Qaralova**
**Azərbaycan Respublikasının Baş prokuroruna**

Zati-aliləri,

6-7 iyun 2017-ci il tarixlərdə Bakı şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclasına ev sahibliyinə görə Azərbaycan Respublikasına öz minnətdarlığımı bildirmək istəyirəm. ECO-ya üzv olan 10 ölkənin hər birinin yüksək səviyyəli iştirakçıları tərəfindən razılaşdırılmış gələcək əməkdaşlıq istiqamətləri ECO regionunda yenilənmiş və möhkəmlənmiş tərəfdaşlığa, xüsusilə də “Anti-Korrupsiya Agentliklərinin və Ombudsmanlıqlarının əməkdaşlığı üçün ECO regional Mərkəzi”nin fəaliyyətinin sürətləndirilməsinin yeni mərhələyə daxil olmasına xidmət edəcəkdir.

Tədbirdə bu cür yüksək səviyyədə iştirak və tövhə Sizin şəxsi fədakarlığınız olmasaydı mümkün olmazdı. Zati-aliləri, mən Sizə tədbirin hazırlanması və keçirilməsi prosesində rəhbərliyiniz üçün ürəkdən təşəkkürlərimi çatdırmaq istəyirəm. Mən, həmçinin tədbir zamanı mükəmməl təşkilatçılığa, ECO Katibliyinin nümayəndə heyəti ilə səmərəli koordinasiyaya və qonaqların Bakı şəhərində qalma müddətlərində onların qayğısına qalınmasına görə Sizin bacarıqlı komandanıza, cənab Kamran Əliyev, Vüqar Əhmədli və digər həmkarlara öz təşəkkürümü bildirirəm.

Biz ECO və Azərbaycan Respublikası Baş Prokurorluğu arasında əməkdaşlığın davam etməsinə ümid edirik.

Hörmətlə,

**Halil İbrahim Akca,**

**18 iyun 2017-ci il**

**Azərbaycan Respublikasının Baş prokuroru yanında**
**Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi**

**cənab Kamran Əliyevə**

Zati-aliləri,

Hörmətli Kamran Əliyev,

Salam. Mən bu məktubu yazmaqla korrupsiyaya qarşı mübarizə ilə bağlı Bakı şəhərində keçirilmiş tədbirin yüksək səviyyədə təşkilinə görə Sizə və əməkdaşlarınıza bir daha ürəkdən təşəkkür etmək istərdim. Bu ECO-nun gündəliyinə Azərbaycan Respublikası və Sizin Baş İdarə tərəfindən edilmiş böyük tövhədir. Xahiş edirəm zati-aliləri cənab Zakir Qaralova tədbirdə şəxsi iştirakına, o cümlədən mənə və əməkdaşlarıma qarşı göstərdiyi mehriban münasibətinə görə ən dərin ehtiramlarımı çatdırın.

İnşallah Sizi yenidən burada Tehranda görməyi səbirsizliklə gözləyirəm. Sonda mən öz həmkarlarımın minnətdarlığını diqqətinizə çatdırıram və bir daha fürsətdən istifadə edib Sizə və bütün əməkdaşlarınıza təşəkkür edirəm.

Dərin hörmətlə və yenidən görüşmək ümidi ilə,

**Ələvi Səbzivari**
**İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini**

**19 iyun 2017-ci il**

## MİNNƏTDARLIQ MƏKTUBLARI

**Azərbaycan Respublikasının Baş prokuroru yanında**
**Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi**

**cənab Kamran Əliyevə**

Zati-aliləri,

İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə təşkilatlarının rəhbərlərinin və Ombudsmanlarının 3-cü iclasının təşkilinə və Azərbaycanda olduğum müddət ərzində göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Belə görüş və sessiyalar tərəfdaşlarımızın regionda korrupsiyaya qarşı mübarizə və ombudsmanların fəaliyyəti sahəsində səmimi əməkdaşlıq və inkişaf üçün əsas məqsədini göstərir. Bakı deklerasiyası öz hədəflərinə çatana kimi əlaqələrimizi davam etdirməyə və onu yerinə yetirməyə qərarlıyam.

Sonda mən öz həmkarlarımın minnətdarlığını diqqətinizə çatdırıram və bir daha fürsətdən istifadə edib Sizə və bütün əməkdaşlarınıza təşəkkür edirəm.

Dərin hörmətlə və yenidən görüşmək ümidi ilə,

**Naser Seraj,**

**13 iyun 2017-ci il**

